# ŞAİQ NÜMUNƏ MƏKTƏBİ



Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

# Şaiq Nümunə Məktəbi

QƏHK 2714
AŞM
Fonduna qəbul olundu
AŞMDK 7317

ASPOLİQRAF
Bakı–2022

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 1 aprel 2021-ci il tarixli 33-f nömrəli əmri ilə təsdiq olunmuş Nəşr Planının Tərtibi və Nəşriyyat Məhsullarının Satınalınması üzrə Komissiyanın qərarına əsasən çap olunub.

Ş16 **Şaiq Nümunə Məktəbi**. Bakı, "Aspoliqraf", 2022, 208 səh.

"Şaiq Nümunə Məktəbi" kitabında Abdulla Şaiq Talıbzadə tərəfindən əsası qoyulan Şaiq Nümunə Məktəbinin yaranması, fəaliyyəti barədə məlumat verilir. Kitabda, həmçinin məktəbdə çalışan müəllimlər və təhsil alan tələbələr haqqında informasiya, onların A.Şaiq barədə xatirələri yer alır. Kitabda Abdulla Şaiqin Mənzil-Muzeyinin Əsas fondunun və arxivinin nadir materiallarından istifadə edilib.

Ş $\frac{4502020000}{053}$ 2022

ISBN 978-9952-564-24-2

©Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2022



*Abdulla Şaiq Talıbzadə*
*(1881–1959)*



XX əsr Azərbaycan ədəbiyyatının təşəkkül tapıb inkişaf etməsində şair, nasir və dramaturq kimi Abdulla Şaiqin böyük əməyi vardır. Onun Azərbaycanda uşaq ədəbiyyatının, xüsusilə milli uşaq dramaturgiyasının yaranmasında misilsiz xidmətləri olmuşdur. Bir əsrə yaxındır ki, Azərbaycan xalqının neçə-neçə nəsli Abdulla Şaiqin uşaqlar üçün müxtəlif janrlarda qələmə aldığı gözəl sənət nümunələrindən faydalanıb və indi də faydalanmaqdadır. Abdulla Şaiq Azərbaycanın elmi və ədəbi mühitində sanballı ədəbiyyatşünas və gözəl bədii tərcümə ustası kimi də yaxşı tanınır.

Abdulla Şaiqin çoxşaxəli fəaliyyətinin böyük bir qismi Azərbaycanda maarifçiliyin müxtəlif sahələri ilə bağlı olmuşdur. Ali və orta təhsil məktəbləri üçün onlarla dərsliyin müəllifi olmuş Abdulla Şaiqin uzunmüddətli pedaqoji fəaliyyəti milli təhsilimizin yeni mərhələyə yüksəlişində mühüm rol oynamışdır.

**Heydər Əliyev**
**24 fevral 2001-ci il**



*Abdulla Şaiqin Mənzil-Muzeyi*



## Ön söz

1918-ci il Azərbaycan xalqının mənəvi təkamülünün tarixində xüsusi yer tutan iki əhəmiyyətli hadisə ilə əlamətdardır. Bir-biri ilə əlaqədar olan bu iki ictimai-siyasi hadisə Azərbaycan xalqının milli intibahının xüsusi bir mərhələsini təşkil edir. 1918-ci il mayın 28-də əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyəti və milli dəyərlər üzərində qurulan, dövlətçilikdən qaynaqlanan Şaiq Nümunə Məktəbi Azərbaycan türklərinin tarixi özünüdərkinin, milli yaddaşının növbəti mərhələsi, həm də qürur mənbəyidir.

Şaiq Nümunə Məktəbinin həyata keçirdiyi ictimai missiyanın əhəmiyyəti olduqca böyükdür. Azərbaycanda məktəb və maarif işinin tarixində xüsusi mərhələ olan Şaiq Nümunə Məktəbi ilə anadilli təhsilin, milli pedaqogikanın əsası qoyuldu. 1917-ci ildə çar hökumətinin Məktəblərin millilәşdirilməsi barədə verdiyi qərarının ardınca Xalq Maarif Nəzarətinin Qafqaz Tədris Dairəsi qərar haqqında əsasnaməni təsdiq etdi. Azərbaycanın mütərəqqi fikirli ziyalıları, əsasnamədə tələb olunduğu kimi, milli təhsilin yaradılması istiqamətində tədbirlər hazırlamağa başladılar. Bu şərəfli missiyanı yerinə yetirənlərdən birincisi Abdulla Şaiq oldu. Şaiqin təşəbbüsü və ardıcıl səyləri nəticəsində ərsəyə gələn layihə məhz 1918-ci ildə – Azərbaycan Xalq Cümhuriyyəti dönəmində reallığa qovuşmaq üçün ən münbit və münasib zamanını tapdı. Abdulla Şaiqin təşəbbüsü ilə 3 aylıq Azərbaycan dili kursu açıldı. Kursa cəlb edilən 25 şagirdə dərsləri türk dilində A.Şaiq, Q.R.Mirzəzadə, C.Cəbrayılbəyli, H.S.Səyyah kimi müəllimlər



tədris edirdilər. Kursu bitirən şagirdlər üçün 49 rus sinfi olan Bakı Birinci Realnı Məktəbinin nəzdində bir sinif açıldı. Zaman-zaman milli siniflərin sayı artırıldı.1924-cü ildə milli məktəb ilk məzunlarını buraxdı. Həmin məzunlar Azərbaycan maarifi tarixində ana dilində ilk orta təhsil alan şagirdlər oldular.

A.Şaiqin çoxcəhətli fəaliyyəti onun apardığı ideoloji işin tərkib hissələridir. Zəifvücudlu bu böyük şəxsiyyətin həyata keçirdiyi işlər özünün sinkretikliyi ilə diqqət çəkir. Tədrisin səviyyəsini və keyfiyyətini düşünən pedaqoq anadilli dərslik və proqramlar hazırlayır. Bu yolda o, A.Bakıxanovun, M.N.Didənin, S.Ə.Şirvaninin, R.Əfəndiyevin, F.Köçərlinin ənənələrinə əsaslanırdı. Sələflərinin elmi-pedaqoji təcrübəsindən bəhrələnən böyük pedaqoq dərslik tərtibinin məsuliyyətinin ağırlığını dərk edir, elmi, ədəbi biliklərini, pedaqoji səriştəsini səfərbərliyə alırdı. Dərsliklərin tərtib olunması üçün ədəbiyyat tarixi – onun mənşəyi və mərhələləri müəyyənləşdirilməli, uşaqların yaş və maraq dairəsinə uyğun əsərlər yazılmalı, eyni zamanda tərcümələr edilməli idi. A:Şaiq bütün bu işlərin öhdəsindən uğurla gəlir və özünü şair, yazıçı, dramaturq, ədəbiyyat tarixçisi, nəzəriyyəçi, tənqidçi, folklorşünas kimi təsdiq edir. Azərbaycan ədəbi fikir tarixinin bir sıra tanınmış nümayəndələri və onların yaradıcılığı, ilk dəfə olaraq, məhz onların ilk bioqrafı olan A.Şaiqin dərsliklərində təqdim olunur.

"Azərbaycanda pedaqoji intibahın görkəmli nümayəndəsi" (Y.Qarayev) hesab edilən Abdulla Şaiq milli dillə paralel olaraq, tədrisə milli düşüncə tərzi, folklor süjet və obrazlarını gətirdi. Bir pedaqoq kimi A.Şaiq uşaqların milli ruhda, soy-kökünə bağlı vətəndaş kimi yetişməsinə özən göstərdi. Onun tərtib etdiyi dərsliklər ümumtürk mədəniyyəti, ədəbiyyatı tarixinin təbliği baxımından böyük əhəmiyyətə malikdir. Burada

türklərin qədim dövrlərdən başlamış olan mədəni təkamülü əks olunur. Dünyanın yaranışı barədə mifoloji mətnlər, türklərin etnogenezisi haqqında, türk mənəvi dəyərləri, əxlaqı və dili barədə bilgilər dərsliklərdə müxtəlif elmi və ədəbi qaynaqlardan istifadə olunmaqla təqdim edilmişdir.

Bütün proqramı, məramı, missiyası ilə milli dəyərləri təbliğ edən Şaiq Nümunə Məktəbi Azərbaycanda milli kadr yetişdirilməsi sahəsində müstəsna işlər gördü. Elm, mədəniyyət, ədəbiyyat sahəsində görkəmli yeri və xidmətləri olan T.Ş.Simurq, R.Axundov, B.Talıblı, C.Cabbarlı, M.Müşfiq, Niyazi, A.Əfəndizadə, Ş.Bədəlbəyli, Ə.Bədəlbəyli, S.Rüstəm, F.Əfəndizadə, A.Əfəndizadə, S.Vəzirov, V.Axundov və onlarla ziyalı Şaiq məktəbinin yetirmələridir.

Abdulla Şaiqin yetirmələrinin bir qismi Azərbaycan ədəbiyyatının və mədəniyyətinin tanınmış simalarıdırsa, digər qismi hansı sahəni təmsil etməsindən asılı olmayaraq ana dilinə bu və ya digər şəkildə bağlı olan ziyalılardır; A.Şaiqin sevimli tələbələrindən biri, görkəmli ictimai xadim Tağı Şahbazi Simurq ADU-nun ikinci, həm də təhsilin ana dilində aparılmasına qərar verən ilk rektoru olub.Texnika elmləri doktoru, tanınmış energetik Azad Əfəndizadə texniki terminologiyanı işləyib hazırlayanlardan biridir. Onun rəhbərliyi altında elektrik intiqalı, elektromexanika və avtomatik idarəolunma sahəsində altıdilli terminlər lüğəti hazırlanıb çap olunmuşdur. Şaiqin tələbələrindən biri texnika elmləri doktoru, akademik Səftər Quliyev çox dərin neft və qaz quyularının qazma üsulunu ilk tətbiq edən tanınmış alim, həm də neft və qaz hasilatı sənayesi sahəsində Azərbaycan dilində elmi-texniki terminologiyanın yaradıcısıdır. Görkəmli ictimai-siyasi xadim Ruhulla Axundov Azərbaycanda siyasi terminologiyanın yaradıcısı və yeni əlifbaya keçidin



tərəfdarlarından biri idi. Bu siyahını artırmaq, həm də düşünmək olar ki, bu ziyalıları birləşdirən əsas cəhət onların ana dilinə həssas münasibəti, milli mədəniyyətimizə təmənnasız xidmət etmək istəyidir, müəllimləri Abdulla Şaiq kimi...

"Şaiq Nümunə Məktəbi" – kitab-albomu vasitəsilə Azərbaycan ədəbi və pedaqoji fikrinin klassiki Abdulla Şaiqin müəllimlik fəaliyyəti, məsləkdaşları, tələbələri ilə tanış olmaq mümkündür. Burada Şaiqin Nümunə Məktəbində təhsil alan tələbələri ilə yanaşı, digər təhsil müəssisələrində dərs dediyi tələbələri barədə məlumat verilir. Kitabda 1923-cü ildə A.Şaiqin ədəbi və pedaqoji fəaliyyətinin 20 illiyi münasibətilə keçirilmiş tədbirin işıqlandırılması Şaiq Nümunə Məktəbinə və onun yaradıcısına tələbələrinin verdiyi dəyər kimi qiymətləndirilməlidir.

Kitabın tərtibçiləri Abdulla Şaiqin müəllim həmkarları və tələbələrinin müəyyənləşdirilməsi istiqamətində araşdırmalar aparmış, bu məqsədlə ədibin xatirələrinə, Abdulla Şaiqin Mənzil-Muzeyinin fondunun sənədlərinə, internet materiallarına istinad etmişlər. Təbii ki, bir əsrdən çox yaşı olan məktəbin tarixi, kollektivi barədə təqdim olunan bilgilər bütün faktları əhatə etməyə bilər. Bu, bir tərəfdən faktların çoxluğu və pərakəndəliliyi ilə bağlıdırsa, digər tərəfdən milli dəyərlərə söykənən təhsil ocağının izlərinin məlum səbəblərdən tarix səhifələrində əks olunmaması ilə əlaqədardır.

Azərbaycan elminə və mədəniyyətinə böyük töhfələr verən ziyalılarla tanışlıq hər birimizə fəxarət və qürur hissi aşılayır. Lakin kitab-albomda hüznlü bir ahəng də hökm sürür. Məlumdur ki, Şaiq Nümunə Məktəbinin milli düşüncə sahibi olan tələbələrinin bir çoxu repressiya qurbanı olmuşlar. Vətəninə, millətinə gərəkli olan millitəfəkkürlü ziyalıların çoxu pantürkist, panislamist adı ilə damğalanaraq məhv edilmiş, ya

da vətəndən uzaqlara sürgün edilmişlər. Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni təkamülündə xidmətləri olan bu ziyalıların adlarının tarix səhifələrindən silinməyəcəyi isə şübhəsizdir.

**Arzu Əhməd Hacıyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent





*Abdulla Şaiqin Nəriman Nərimanova xatirə yazısı ilə bağışladığı şəkil. 1901-ci il*

***"Mən yazıçılığımdan ziyadə müəllimliyimlə iftixar edirəm"***
***Abdulla Şaiq***

Abdulla Şaiq həyatının 34 ilini fasiləsiz olaraq pedaqoji işə həsr etmişdir. Ədib müəllimlik işini yazıçılıqdan üstün tutmuş və müəllim olması ilə həmişə fəxr etmişdir. O, xatirələrində yazırdı: "Mənə: "Müəllimliyə sərf etdiyin vaxtı və enerjini öz ədəbi yaradıcılığına sərf etmiş olsaydın, bu gün sənin daha kamil bədii əsərlərin olardı", – deyənlər çox olmuş. Ancaq mən bu gün yazıçılığımdan ziyadə müəllimliyimlə iftixar edirəm".

1900-cü ildə Xorasandan Tiflisə qayıdan Abdulla Şaiq burada qərar tuta bilmir. O, atasına maddi və mənəvi dəstək olması məqsədilə 1901-ci ildə Bakıya gəlir və burada müəllimlik hüququ almaq üçün imtahana hazırlaşır. Bu işdə gənc Abdullaya görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanov

böyük köməklik göstərir. Nəriman Nərimanov xalq komissarı Mixail Aqanoviçə xahiş məktubu ilə müraciət edib, Abdulla Şaiqin müəllimlik hüququ alması üçün imtahana buraxılmasına icazə istəyir. A.Şaiq İmperator III Aleksandr adına Bakı kişi gimnaziyasında Nəriman Nərimanovun iştirak etdiyi komissiya qarşısında əla qiymətlə imtahan verib orta məktəbdə Azərbaycan dili müəllimi olmaq hüququ qazanır və sentyabr ayından etibarən 6 sinifli şəhər məktəbinə ehtiyat müəllimi təyin olunur. Lakin onun bu sahədəki fəaliyyətinin ilk illəri gərgin və mürəkkəb olmuş, ilk çağlarda dərslə təmin oluna bilməmişdir. Gənc müəllim bəzi günlərini xəstə müəllimləri əvəz etməklə keçirmiş, bəzən də səyyar müəllim sifəti ilə 4–5 məktəbdə dərs deməyə məcbur olmuşdur.

Nəriman Nərimanov və Abdulla Şaiq arasında dostluq münasibətləri var idi. Nəriman bəyin nişanlanması xəbərini sevinclə qarşılayan Şaiq bu münasibətlə şeir yazır və şeirin əlyazmasını ona hədiyyə edir.

Abdulla Şaiq 1902-ci ildən Həbib bəy Mahmudbəyovun müdir olduğu Birinci rus-tatar məktəbində, 1903–1906-cı illərdə 6 sinifli Sabunçu məktəbində və Bakı üçüncü kişi gimnaziyasında müəllimlik etmişdir. 1906-cı ildən gənc pedaqoq Birinci Realnı məktəbin aşağı siniflərində və Süleyman Sani Axundovun müdir olduğu 7-ci şəhər məktəbində dərs deyir. 1911-ci ildən A.Şaiq pedaqoji işini yalnız Realnı məktəbdə mərkəzləşdirir.

Azərbaycanda məktəb və maarif işinin yüksəlişində Abdula Şaiqin əvəzsiz xidmətləri vardır. O, millətinin övladlarının yenitipli proqram və dərsliklərlə təchiz edilmiş məktəblərdə təhsil almalarını təmin etmək üçün fəal və ardıcıl mübarizəyə qoşularaq, Azərbaycan müəllimlərinin 1906 və 1907-ci illərdə Bakıda keçirilən I və II qurultaylarının təşkili və onların



qərarlarının həyata keçirilməsində xüsusi fəallıq və pedaqoji ustalıq nümayiş etdirir. A.Şaiq pedaqoji fəaliyyətini elmi-metodiki işlə – proqram və dərslik tərtibi ilə, həm də bədii yaradıcılıqla tamamlayır. Müəllimlər qurultaylarının A.Şaiqin Ana dili və əlifba dərsliklərinə qoyduğu tələblərə uyğun olaraq tərtib etdiyi həmin dərsliklərilə bir neçə nəsil təhsil və tərbiyə almışdır. Bu işi A.Şaiq təkcə pedaqoq kimi yox, həm də uşaq ədəbiyyatının klassik nümunələrini yaratmaqla görmüşdür. Ədib bir tərəfdən dərsliklər hazırlayır, digər tərəfdən dərsliklərdə və “Dəbistan”, “Rəhbər”, “Məktəb” kimi uşaq mətbuat orqanlarında çap edilmək üçün əsərlər yazır, ədəbiyyat tarixinə dair tədqiqatlar aparır, tərcümələr edirdi. A.Şaiqin ədəbi-bədii, elmi, tərcümə yaradıcılığı pedaqoji işində mərkəzləşmişdir.



*Nəriman Nərimanov, 1914*



Abdulla Şaiqin müəllimlik hüququ alması barədə şəhadətnamə (AŞM Ə.Y.38/D.K.903)



Nəriman Nərimanovun Mixail Aqanoviçə məktubu, 1901 (AŞM O.F.242/D.K.830)



## MÖHTƏRƏM NƏRİMAN NƏRİMANOV CƏNABLARINA

*Nişan qoymusan, eşitdim, xeyir olsun.*
*Dan ulduzu kimi bəxtin durulsun.*
*Yaşa, yeni yoldaşınla çox yaşa,*
*Bu dünyanı rahatliklə vur başa.*
*Fırtına, tufanlardan sonra əlbət,*
*Gözəl olur sakitlik, istirahət.*
*Yox, sən rahətlik sevməyən atəşsən,*
*Əriyəcək qəhrinlə müdhiş düşmən.*

*Abdulla Şaiq, 9 mart 1914*





Nəriman Nərimanov və Gülsüm xanım, 1913–1914 (Nəriman Nərimanovun xatirə muzeyinin fondundan)



*Şaiq Nümunə Məktəbinin 1918–1928-ci illərdə yerləşdiyi bina (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin 1-ci mərtəbəsi) (AŞM O.F.556/D.K.6626)*

## Abdulla Şaiq Nümunə Məktəbi

1918-ci ilin may ayının 28-də Azərbaycan xalqının həyatında çox mühüm bir hadisə baş verdi. Şərqdə ilk müstəqil, demokratik, parlamentli Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında İstiqlal Bəyannaməsi elan edildi. Cəmi 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti iqtisadi, siyasi, hərbi sahədə olduğu kimi təhsil sahəsində də çox mühüm işlərə imza atdı. Azərbaycan dili dövlət dili elan edildikdən sonra məktəblərin milliləşdirilməsinə başlanıldı. Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918-ci il 28 avqust



tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli, ali, ibtidai və orta tədris müəssisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər. İbtidai məktəblərdə təlimin ana dilində təşkilində ciddi problemlər yox idi. Belə ki seminariya məzunlarının və qısamüddətli kursları bitirənlərin hesabına ibtidai məktəbi müəllimlə təmin etmək mümkün idi. Əsas məsələ orta məktəblərin milliləşdirilməsi və ana dilli yeni orta məktəblərin yaradılması ilə bağlı idi. 1919-cu ilin əvvəllərində respublika ərazisində 23 dövlət orta təhsil müəssisəsi vardı ki, onlardan da 6-sı kişi, 4-ü qadın gimnaziyası, 5-i realnı məktəb, 3-ü müəllimlər seminariyası, 3-ü "Müqəddəs Nina" qız məktəbi, politexnik məktəb və kommersiya məktəbi idi. Bu məktəblərin hamısında təlim rus dilində aparılırdı.

XX əsrin əvvəllərində Azərbaycanda təlimin ana dilində aparıldığı milli məktəb yox idi. Ana dili o dövrün orta təhsil ocağı sayılan realnı məktəblərdə həftədə bir-iki dəfə keçirilir və məcburi olmayan fənn hesab olunurdu. Realnı məktəbdə ana dili müəllimi türk dilinin tədrisinə qoyulan qadağalara qarşı çıxanda rus dili müəllimi ona kəskin etiraz edərək demişdi: "Rica edirəm, türk lisanı müəlliminin bu etirazı protokola yazılsın, o, bir kərə anlasın ki, Rusiya məmləkətində yaşayır və Rusiyada yaşayan hər bir millət rus qanunlarınına tabe olmalı, boyun əyməlidir".

Azərbaycan Milli hökumətinin 28 avqust 1918-ci il tarixli qərarına əsasən bütün məktəblərdə türk dilinin

(Azərbaycan) məcburi tədrisi qanunilşdirildi, məktəblərin millilşdirilməsinə başlanıldı. Maarif və dini etiqad naziri Həmid Şahtaxtinski bütün məktəb rəhbərlərinə, o cümlədən realnı məktəbin müdirlərinə məktəblərin tədricən millilşdirilməsi ilə bağlı məktub göndərmişdi.

Azərbaycanda orta təhsilin milliləşdirilməsi qüdrətli sənətkarımız, müəllimlər müəllimi, yazıçılığından daha çox müəllimliyi ilə fəxr edən, maarif fədaisi Abdulla Şaiqin adı ilə bağlıdır. O özü bütünlüklə xalqa xidmət nümunəsi idi, əsərlərində də müəllim kimi hamıya bunu tövsiyə edirdi. 1924-cü ildə tələbələrindən birinin xatirə albomuna yazmışdır: “Yüksəlmək, həqiqi bəxtiyarlığa çatmaq özünü deyil, başqalarını yaşatmağa çalışmaqdır. Zira ki, həqiqi bəxtiyarlar cəmiyyət üçün yaşayanlardır”.

Həmin dövrdə A.Şaiq Bakı Realnı məktəbində ana dili müəllimi işləyirdi. O, milli siniflərin açılmasına mane olmağa çalışan müəllimlərin ciddi müqavimətı ilə qarşılaşsa da, uşaqların valideynləri ilə təkbətək görüşərək milli siniflərin yaradılmasına nail oldu. Onun təşəbbüsü ilə bütün dərsləri rus dilində keçirilən Bakı I realnı məktəbinin nəzdində Azərbaycan dili üzrə 3 aylıq kurs açıldı. Bu kursu qurtaran şagirdlər üçün Bakı I realnı məktəbində bütün dərslər Azərbaycan dilində keçirilən bir sinif (üçüncü sinif) təşkil olundu. O dövrdə Bakı I realnı məktəbin direktoru təcrübəli pedaqoq İvanViktoroviç Denfer idi. Onun rəhbərliyi ilə pedaqoji şurada siniflərin milliləşdirilməsi ilə bağlı qərar qəbul edildi. Siniflərin milliləşdirilməsi Abdulla Şaiqə həvalə olundu. Təlimin ana dilində aparılacağı sinfin təşkili, ayrı-ayrı fənlərdən Azərbaycan dilində dərs deyə biləcək müəllimlərin tapılması A.Şaiqə həvalə olunmuşdu. O, Camo Cəbrayılbəyli, Ağa Əli Qasımzadə, Qafur Rəşad və realnı məktəbin məzunları Sadiq Quluzadə, Abdullah Abaşidzeni və Qulam Əli Həsənzadəni dəvət etdi. Onların köməyi ilə realnı məktəbin 8 sinfi milliləşdirildi: əlifba şöbəsi-1, birinci ehtiyat şöbəsi-2, ikinci ehtiyat şöbəsi-2, birinci sinif-2, ikinci sinif-1.* Bu məktəblərin milliləşdirilməsinin ikinci ilində məktəbdə 9 Azərbaycan, 12 rus sinfi mövcud idi.** 21 sinfin içərisində tədris uğurları seçilən son üçüncü sinif idi. 1919-cu ildə tədris ilinin yekunlarına həsr olunmuş müəllimlər şurası keçirildi. Birincilik qazanan sinfin mürəbbisi*** Abdulla Şaiq müəllimlər şurasında III sinfin müvəffəqiyyəti haqqında danışdıqdan sonra dedi: “Əxlaqları haqqında (III sinfin şagirdləri nəzərdə tutulur) kimsədən bir şikayət eşitmədim. Tələbələrdən məmnun qalmayan müəllimlər varsa, söyləsinlər”. Fransız dili müəllimi Qaplanova, alman dili müəllimi Barzak da həmin şagirdlərin uğurunu təsdiq etdilər. İlk milli sinif belə yarandı.



Azərbaycan Xalq Cümhuriyyətini devirən bolşeviklər realnı məktəbin binasını da müsadirə edərək əsgər kazarmasına çevirdilər. İlk milli məktəb (sinif) binasız qaldı. Abdulla Şaiqin və həmkarlarının ciddi səyi nəticəsində milli məktəb (sinif) müvəqqəti olaraq 4-cü qız məktəbinin binasına köçürüldü. Dərslər həmin məktəbdə nahardan sonra keçirilirdi. Məktəb orada bir il fəaliyyət göstərdi. Sovet hakimiyyətinin ilk illərində həmin məktəb iki yerə ayrıldı. Məktəbin aşağı sinifləri I dərəcəli məktəbə çevrilərək 9 nömrəli, III sinifdən yuxarılar isə II dərəcəli məktəbə çevrilərək 12 nömrəli məktəb statusu aldı.

Xalq Maarif Komissarlığının göstərişi ilə 1920-ci ilin yay aylarından başlayaraq Bakıda və digər qəza mərkəzlərində qısamüddətli kurslarda müəllim kadrları hazırlanmağa başlandı. Qısa müddətdə keyfiyyətli müəllim kadrları hazırlamaq çox çətin idi. Ona görə də Azərbaycan XMK birillik pedaqoji

* Ali Pedaqoji İnstitutun salnaməsi.(Tərtib, transliterasiya, izahlar və “Ön söz”ün müəllifi prof. F.A.Rüstəmov).Bakı: Elm və təhsil, 2020, s.70
** Yenə orada, s.71
*** Mürəbbi– müəllim, yol göstərən

kurslar açmağı məqsədəuyğun hesab etdi. Birillik pedaqoji kursların məzunlarının I dərəcəli məktəbin son (IV–V), II dərəcəli məktəbin ilk iki siniflərində (VI–VII) dərs deməsi nəzərdə tutulurdu. Bakıda birillik pedaqoji kursun layihəsi F.Rzabəyli tərəfindən hazırlandı və təsdiq üçün Xalq Maarif Komissarlığına təqdim olundu. 1920-ci ilin 17 noyabrında layihə Xalq Maarif Komissarlığının Kollegiyası tərəfindən təsdiq olundu. Bakı Kişi Müəllimlər Seminariyasının binasında kurs üçün bir neçə otaq ayrıldı. Kursa cəlb edilənlərin əksəriyyəti ibtidai məktəblərdə işlədiyindən məşğələlər axşam keçirilirdi. Kursun müdiri Fətulla bəy Rzabəyli, müavinlər isə Həbib bəy Mahmudbəyli və Rəhim Cəfərov idi. Pedaqoji heyət 21 nəfərdən ibarət idi ki, onlardan da biri Talıbzadə Abdulla Şaiq idi.

Birillik kurslar Ali Pedaqoji İnstitutun təşkili üçün yaxşı bir təcrübə oldu. İnstitutun təşkili ilə bağlı təşkilat komitəsi yaradıldı.Təşkilat komitəsinin 6 nəfər üzvündən biri də Abdulla Şaiq oldu. Təşkilat komitəsinin fədakarlığı, xalqımızın böyük oğlu N.Nərimanovun dekreti ilə 1921-ci ildə 6 nəfər tələbə, 8 nəfər müəllimlə fəaliyyətə başlayan Ali Pedaqoji İnstitutun ilk müəllimlərindən biri də Abdulla Şaiq oldu. O, ədəbiyyat və dil dərslərini tədris edirdi.1922–1923-cü tədris ilində 12 saylı məktəb Fətulla bəy Rzabəyli tərəfindən Ali Pedaqoji Kişi İnstitutunun binasına köçürüldü və burada Nümunə məktəbi kimi fəaliyyət göstərməyə başladı. İlk vaxtlar A.Şaiq Ali Pedaqoji İnstitutda dərs deməklə yanaşı, həm də Nümunə məktəbinə rəhbərlik edirdi. Məktəbin tədris planında müəyyən dəyişiklik edilmiş, dinin tədrisinə qadağa qoyulmuşdu. Məktəb şagirdlərinin xüsusi geyimləri, döş nişanları, çiyinlərinə taxılmış xüsusi poqonları vardı. Nümunə məktəbinin son sinif şagirdləri Pedaqoji Texnikumunun əsas siniflərinə köçürülürdü.



Məktəbi bitirənlərə şəhadətnamə verilirdi. 1923-cü ildə ilk milli orta məktəb öz məzunları ilə vidalaşdı. Bu tədbir həm də A.Şaiqin pedaqoji fəaliyyətinin 20 illiyinə təsadüf edirdi. Azərbaycan XMK-nın qərarı ilə hər iki tədbirin birlikdə təntənə ilə keçirilməsi qərara alındı. Ə.Məmmədovun yazdığına görə, "yubiley 1923-cü ilin soyuq dekabr ayına təsadüf etmişdi. Şaiqin tələbələri gül-çiçəklə Verxni-Naqornı 19-da (indiki A.Şaiq küçəsi, 21) yerləşən mənzilinə gələrək yubilyarı alqışlamış, sonra əlləri üstünə alaraq Azərbaycan Ali Pedaqoji İnstitutunun (indiki İqtisad Universitetinin) akt salonunda toplaşan, onu təlaşla gözləyən toplantı iştirakçılarının hüzuruna gətirmişdir.* Gecənin yüksək səviyyədə keçməsinin şahidi olan M.Salehlinin yazdığına görə, gecədə nəinki Xalq Maarif Komissarlığının əməkdaşları, tanınmış ziyalılar, hətta SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin ZSFSR-dən 1-ci Sədri Nəriman Nərimanov da iştirak etmişdir. Sonralar M.Salehli həmin günü belə xatırlayırdı: "Mən birinci il idi ki, məktəbdə oxuyurdum. Yadımdadır ki, böyük müsamirə təşkil olunmuşdu. Həmin gecəyə Nəriman Nərimanov da gəlmişdi. O, məzunlara "Ay mənim saqqallı çocuqlarım" – deyərək müraciət etdi. O öz nitqində Azərbaycanın gələcəyindən, məktəb məzunlarının qarşısında duran vəzifələrdən danışdı".

Azərbaycan dilində II dərəcəli məktəbi bitirmək şərəfi ilk dəfə 27 nəfər şagirdə nəsib olub.

1. Ağazadə Soltan (Göyçay)
2. Əfəndizadə Azad (Şamaxı)
3. Əfəndizadə Əli Fuad Axısqa (Gürcüstan)
4. Əfəndizadə Adil Axısqa (Gürcüstan)
5. İbrahimzadə Şirəli (Göyçay)

* Məmmədov Ə. Abdulla Şaiq. Bakı: Gənclik, 1983

6. İbrahimzadə Sadiq (Göyçay)
7. İsmayılzadə Yəhya (Göyçay)
8. Babazadə Əhməd (Bakı)
9. Bədəlbəyli Əfrasiyab (Qarabağ)
10. Bağırzadə Məhəmmədəmin (Bakı)
11. Hacı oğlu Vəli (Bakı)
12. Hüseynzadə Əbdülrəhman (Bakı)
13. Süleymanzadə İsrafil (Bakı)
14. Şıxəlizadə Murad (Göyçay)
15. Salahlı Saleh (Bakı)
16. Talıbzadə Talıb (Tiflis)
17. Əlizadə Ağakazım (Bakı)
18. Əlizadə Məhəmmədbağır (Göyçay)
19. Aşurbəyli Davud (Bakı)
20. Quluzadə Rəsul (Bakı)
21. Kazımzadə Qasım (Bakı)
22. Musabəyli Əmir (Şəki)
23. Mustafabəyli Ədhəm (Bakı)
24. Məhəmmədzadə Nəcəf (Bakı)
25. Mirzəzadə Arslan (Bakı)
26. Mirəhmədzadə Mir Əsədullah (Göyçay)
27. Yüzbaşıqlı Rəmzi (Şamaxı)

Həmin şagirdlərin 13 nəfəri Bakıdan, 7 nəfəri Göyçaydan, 2 nəfəri Şamaxıdan, 3 nəfəri Gürcüstandan, 1 nəfəri Nuxadan, 1 nəfəri Qarabağdan idi.

İlk milli orta məktəbin buraxılışına həsr edilmiş təntənəli iclasda Nəriman Nərimanov üzünü məzunlara tutaraq demişdi: "Sizə birinci vəsiyyətim budur ki, həyatda çalışqan olun, qorxaq olmayın, həmişə xalqımızın irəli getməsinə çalışın".

Həmin sinfi bitirənlər içərisində məşhur bəstəkar, musiqişünas Əfrasiyab Bədəlbəylinin, istedadlı alim, cərrah Fuad Əfəndiyevin, akademik Səftər Quliyevin, dövlət xadimi Süleyman Vəzirovun və onlarla başqalarının adlarını çəkmək olar.



Abdulla Şaiq həmin illərdə Ali Pedaqoji İnstitutda, fəhlə fakültələrində, pedaqoji kurslarda və Xalq Maarif Komissarlığının türk (Azərbaycan) dili dərsliklərini hazırlayan komissiyanın işində iştirak etsə də, Nümunə məktəbindən ayrılmamışdır. 1927-ci ilə kimi Nümunə məktəbində ədəbiyyat, 1932-ci ilə kimi Azərbaycan Pedaqoji İnstitutunda Azərbaycan ədəbiyyatı tarixi fənnindən dərs demişdir. 1932-ci ildə pedaqoji fəaliyyətdən uzaqlaşaraq bədii yaradıcılıqla məşğul olmuşdur.

1924-cü ildə Xalq Maarif Komissarlığının Baş ictimai tərbiyə idarəsi tərəfindən məktəbə onun yaradıcısı və cəfakeşi A.Şaiqin adı verildi. İlk vaxtlar məktəbə A.Şaiq rəhbərlik edirdi. Sonra məktəbə Qafur Əfəndizadə Qantəmir müdir təyin olundu. Nümunə məktəbi Ali Pedaqoji İnstitutun tələbələrinin tədris laboratoriyası rolunu oynayırdı. Tələbələr burada sınaq dərsləri aparır, Pedaqoji İnstitutun müəllimləri dərs deyirdi.

Şaiq Nümunə məktəbinin ilk buraxılışı 1923-cü ildə olub. Məktəbin ikinci buraxılışı 1925-ci ildə, üçüncü buraxılışı 1926-cı ildə olub. 1924-cü ildə Nümunə məktəbinin quruluşu aşağıdakı kimi idi. Məktəb 4 sinifli II dərəcəli bir təhsil ocağı idi. 4 sinifdə oxuyan şagirdlərin ümumi sayı 129 nəfər idi. Bunlardan 42-si bakılı, 78-i Azərbaycanın ayrı-ayrı bölgələrindən, İrəvandan və Göyçə mahalından gələnlər idi. Kənardan gələn imkansız tələbələr Ali Pedaqoji İnstitutun pansionatında (yataqxanasında) yaşayırdı. Birinci sinifdə 40, ikinci sinifdə 36, üçüncü sinifdə 26 və dördüncü sinifdə 27 şagird oxuyurdu. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimləri Abdulla Şaiq və Hüseyn Sadiq idi. I–II siniflərdə rus dili dərslərini Səmədağa Qayıbov, III–IV siniflərdə Aleksandr

Leplinski tədris edirdi. Tarix və ictimaiyyatı Süleyman Səlim, riyaziyyatı I–II siniflərdə Ziya Azaqbəyli, III–IV siniflərdə Kərim Qazıyev, triqonometriyanı son sinifdə Məhəmməd Əfəndizadə tədris edirdi. III–IV siniflərdə psixologiya fənnini Xəlil Fikrət, I–II siniflərdə təbiət fənnini Ali Pedaqoji İnstitutun təbiət şöbəsinin son kurs tələbəsi Neman Əfəndizadə, III–IV siniflərdə isə Məhəmməd Bayramzadə, Hikmət fənnini I sinifdə Xudaverdi Kələntərli (sonralar ADPU-nun professoru), II–IV siniflərdə İsmayıl Novruzi tədris edirdi. Məktəbin bütün siniflərində kimya Xudaverdi Kələntərli, coğrafiya Qafur Rəşad Mirzəzadə, alman dili İvanViktoroviç Denfer, rəsm dərsi İvan Vasilyeviç Berinq tərəfindən tədris edilirdi. Zəruri təcrübələr Ali Pedaqoji İnstitutun laboratoriyalarında aparılırdı.

Məktəbdə şagird komitəsi fəaliyyət göstərirdi. Bu komitənin nəzdində ədəbiyyat, riyaziyyat və təbiət dərnəkləri fəaliyyət göstərirdi. Bəzi araşdırmalarda məktəbin xüsusi hesabından və smeta xərclərindən bəhs edilir. Əslində, Nümunə məktəbinin xüsusi təsərrüfat fəaliyyəti olmamışdır. Məktəbin bütün xərcləri (hətta müəllimlərin əməkhaqqısı da) Ali Pedaqoji İnstitutun təsərrüfat və maliyyə şöbəsi tərəfindən ödənilmişdir. "Nümunə məktəbinin təşkilat və idarəsi" adlı məqalədə oxuyuruq: "Nümunə məktəbinin xüsusi təsərrüfat həyatı yoxdur. Məsarif və sairə müəllimlərin maaşı həpsi institutun təsərrüfat və maliyyə şöbəsi tərəfindən təsviyə edilir".*

Nümunə məktəbində dərs deyən tələbələrin pedaqoji təcrübəsinə İsmayıl Hikmət (dil-ədəbiyyat), Məmməd Əfəndizadə (riyaziyyat), Fətulla bəy Rzabəyli (təbiət) və b. rəhbərlik edirdi.

Nümunə məktəbi 1925-ci ildə A.Şaiq adına Pedaqoji Texnikuma çevrildi. 1926-cı ildə A.Şaiq adına Pedaqoji

* Ali Pedaqoji İnstitutun salnaməsi. (Tərtib, transliterasiya, izahlar və Ön sözün müəllifi prof. F.A.Rüstəmov). Bakı: Elm və təhsil, 2020, s. 87



Texnikumunu I dərəcəli məktəblərdə dərs demək hüququ qazanan 23 tələbə bitirdi:

Əhməd Əsədzadə (Salyan)
Zərgərli Yunis (Salyan)
Xanızadə Babazər (Salyan)
Kərimzadə Bilal (Salyan)
Kərim Cəmaləddin (Göyçə eli)
Məhəmmədzadə Əli ağa (Göyçə eli)
Əbülqasım Nəzərov (Göyçə eli)
Şirinzadə Şamil (Nuxa)
Əli Əhmədzadə (İrəvan)
Əbu Talibzadə Müzəffər (Ordubad)
Aslanzadə Muxtar (Bakı)
Bağbanzadə Cavad (İran)
Şabanzadə Hacı ağa (Bakı)
Salahlı Məhəmməd Əmin (Bakı)
Sadıqzadə Məhəmməd Sadıq (Bakı)
Abdullazadə Cəfər (Naxçıvan)
Abdullazadə Abdulla (Şamaxı)
Qazızadə Marlen (İrəvan)
Quluzadə Məhəmməd ağa (Bakı)
Kazımzadə Əhməd (Bakı)
Məhəmmədzadə Rəhim (Bakı)
Məhərrəmzadə Kərim (Şamaxı)
Məhəmmədəli Kərimzadə (Bakı)

Bu tələbələr Bakının məktəblərində 7 ay pedaqoji təcrübədə olmuş, sınaq dərsləri vermişdilər. Məktəbi bitirən 23 nəfərin 4-ü Salyan, 3-ü Göyçə, 8-i Bakı, 2-si Şamaxı, 2-si İrəvan, 1-i Ordubad, 1-i Nuxa, 1-i İran, 1-i isə Naxçıvandan idi.

Həmin tələbələr ibtidai məktəblərdə dərs deməklə yanaşı, ali təhsillərini davam etdirə bilərdilər.

1926–1927-ci tədris ilində A.Şaiq adına Pedaqoji Texnikumda 123 tələbə təhsil alırdı ki, bu da həmin dövrdə Azərbaycanda fəaliyyət göstərən 15 pedaqoji texnikumda oxuyan 2260 tələbənin 5,4%-ni təşkil edirdi. 1926–27-ci dərs ilində maliyyə və kadr çatışmazlığı, Ali Pedaqoji İnstitutun Azərbaycan Dövlət Universiteti ilə birləşdirilməsi nəticəsində A.Şaiq adına Pedaqoji Texnikum öz fəaliyyətini dayandırdı və yenidən II dərəcəli məktəbə çevrildi.

1921-ci ildə Ali Pedaqoji İnstitutun ilk marşının sözlərini A.Şaiq, musiqisini Ü.Hacıbəyov yazıb. "Gənclik marşı" ilk dəfə həmin Pedaqoji İnstitutun və Nümunə məktəbinin tələbələrindən ibarət birgə xorun ifasında səslənib. "Gənclik marşı" tələbələrin – bilik, nur və şan ordusunun, qaranlıqlarla çarpışan, onu qovan, elm, ürfan ordusunun kollektiv yürüşünü müşayiət etmək üçün nəzərdə tutulmuşdu.

**"Gənclik marşı"**

Ali Pedaqoji İnstitutun tələbələrinə

*Biz bilik, şan ordusu, Azərbaycan ordusu,*
*Qaranlıqlarla çarpışan elm, ürfan ordusu.*

***

*Köhnə, çürük qüvvələri parçalayıb yıxan biz,*
*Şimşək kimi parıldayan, ildırımtək çaxan biz.*
*Daşqın, coşqun sellər kimi hər tərəfə axan biz,*
*Bizik nurlu aləm quran azad insan ordusu.*

***

*Sevgi, atəş ocağıdır Azərbaycan ölkəmiz,*
*Şərqə, Qərbə işıq saçan, atəş yakan bizik, biz.*



*İgidlikdə, hər sənətdə ad çıxarmış nəslimiz,*
*Bizik bilik arxasınca gedən ön, şan ordusu.*

***

*Üstümüzdə dalğalanır nursaçaqlı bayrağımız,*
*Elmsizlik, istibdaddır bizim böyük yağımız.*
*Yorulmadan çarpışırıq ki, parlasın ocağımız*
*Bizik qaranlığı qovan, nur saçan dan ordusu.*

A.Şaiq "Üçüncü nur qafiləsi" adlı məqaləsində yazırdı: "Böyük alimlər, şairlər, rəssamlar və müəllimlər yetişdirməyən millətlər kəndindən daha qutlu millətlərin təsir və nüfuzu altına girərək get-gedə əriməyə, məhv olmağa məhkum olur. Sağlam və canlı bir hökumət və cəmiyyət qura bilmək üçün hər millət ana dilində orta və Ali məktəblərə sarılmışdır. Zira ki, o pək gözəl anlamışdır ki, hər şeyi yaradan məktəblər və müəllimlərdir. Məktəblər və müəllimlər olmazsa, o millət içində vəzifəsini bilən alim və fəal sinif üzvləri yetişəməz. Məktəblər olmazsa, yabancı nasirlərdən qurtulmuş yaradıcı və müstəqil fikir sahibi alimlər çıxamaz. Məktəblər olmazsa, məktəbləri yaradan və ona kəndi ruh və enerjisini verən həqiqi müəllimlər, parlaq yıldızlar doğmaz. İştə məktəb həyatını quran həqiqi müəllimlər, məmləkətə lazım olan bütün sinif təşkilatını da gözəlcə qurmuş və iş bulumunu alim, fəal və şüurlu üzvlər əlinə vermiş olur ki, bu saatda hər millət, hər hökumət anlanıyor və yüksəliyor".*

20-ci illərdə formalaşan ilk maarif ordusunun sırası az sonra daha da sıxlaşdı, Azərbaycanda elmi-siyasi və pedaqoji elita formalaşdı. Ayrı-ayrı insanlar dünyaya gəldiyinə görə valideynlərə, millət isə məktəbə və müəllimə borcludur.

* Ali Pedaqoji İnstitutun salnaməsi. (Tərtib, transliterasiya, izahlar və Ön sözün müəllifi prof. F.A.Rüstəmov). Bakı: Elm və təhsil, 2020, s.126

Belə müəllimlərdən biri də bu gün adını hörmət və ehtiramla andığımız müəllimlər müəllimi Abdulla Şaiqdir.

Əgər elmi pedaqogikanın banisi Y.A.Komenski "Real aləm şəkillərdə" (92 əsərin müəllifi olsa da), L.Tolstoy "Əlifba" dərsliyini yazmaqla tarixdə qalmağı haqq etmişdilərsə, qüdrətli sənətkarımız, müəllimlər müəllimi Abdulla Şaiq yalnız Nümunə məktəbi yaratmaqla adını millətin şərəf və şöhrət kitabına yazmağı bacarmışdır.

**Fərrux Abbas oğlu Rüstəmov**
pedaqoji elmlər doktoru, professor,
Əməkdar elm xadimi



*Şaiq Nümunə Məktəbinin diplomu*
*(AŞM Ə.Y.93/D.K.1214)*



*Şaiq Nümunə Məktəbinin döş nişanı*
*(AŞM X.Ə.61/D.K.1213)*





*Şaiq Nümunə Məktəbinin məzunu akademik Məmmədəmin Salayev öz mənzilində Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru Kamal Talıbzadəyə Nümunə Məktəbi ilə bağlı sənəd və xatirə əşyalarını muzeyin əsas fonduna hədiyyə kimi təqdim edərkən, 1999, iyul*

*(AŞM OF 393/DK 1436)*




*Ali Pedaqoji İnstitutun Salnaməsi*
*Azərbaycan Ali Dövlət Türk Pedaqoji İnstitutu və onun nəzdindəki ikincidərəcəli Şaiq Nümunə Məktəbinin üç illiyi münasibətilə nəşr olunub, Bakı, 1924*

*(AŞM Q.Y.H.K 192/DK 361)*



ایلک معلملر شوراسی صولدان: رحیم جعفروف حبیب محمودبگلی: فتح‌الله رضابگلی؛ محمد افندی‌زاده:
عبدالله شائق طالب‌زاده: علی‌عباس ولی‌خانلی (کاتب)

*Ali Pedaqoji İnstitutun ilk müəllimlər şurası (soldan): Rəhim Cəfərov, Həbib bəy Mahmudbəyov, Fətəli bəy Rzabəyli, Mahmud Əfəndizadə, Abdulla Şaiq Talıbzadə, Əliabbas Vəlixanlı.*



# Şaiqin həmkarları

## Həsənbəy Zərdabi



**Həsən bəy Zərdabi** – Azərbaycanın görkəmli ziyalısı, Moskva Universitetini namizədlik diplomu ilə bitirən ilk müsəlman məzun, islam dünyasının ilk təbiətşünas alimi, Bakı Gimnaziyasının ilk müsəlman müəllimi, Azərbaycanda və bütün müsəlman Şərqində islam xeyriyyəçilik hərəkatının banisi ("Cəmiyyəti-Xeyriyyə", 1872), 1873-cü ildə öz şagirdləri ilə birlikdə Bakıda Azərbaycan dilində ilk teatr tamaşası göstərən mədəniyyət xadimi, Azərbaycan mətbuatının banisi və ilk türkdilli qəzet – "Əkinçi"nin naşiri (1875), Azərbaycan müəllimlərinin birinci qurultayının təşkilatçısı və qurultayın sədri (1906).

Həsən bəy Zərdabi 1837-ci il iyunun 28-də Göyçay qəzasının Zərdab kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, sonra Şamaxı şəhər məktəbində oxumuş, orta təhsilini isə Tiflisdə tamamlamışdır. 1861-ci ildə Moskva Universitetinə imtahansız daxil olmuş, dörd il sonra həmin universitetin təbiət-riyaziyyat fakültəsini bitirmişdir.

Bir müddət Tiflisdə qulluq edəndən sonra Həsən bəy Zərdabi Quba məhkəməsində işləmiş, daha sonra 1869-cu ildə Bakıya gələrək burada rusca orta məktəbdə təbiətdən dərs deməyə başlamışdır. Mütərəqqi fikirlərinə görə dəfələrlə təqib edildiyindən Həsən bəy müəllimlikdən əl çəkmiş, xalqı üçün geniş mədəni tədbirlər həyata keçirmək uğrunda fəaliyyətə başlamışdır.

Həsən bəy Zərdabi Azərbaycan peşəkar teatrının yaradıcılarındandır. Onun rəhbərliyi və dramaturqlardan Nəcəf bəy



Vəzirovla Əsgər ağa Adıgözəlovun fəal iştirakı ilə 1873-cü ildə M.F.Axundovun "Hacı Qara" və "Lənkəran xanının vəziri" komediyaları tamaşaya qoyulmuşdur.

Həsən bəy Zərdabi geniş ictimai fəaliyyət göstərmiş, N.Nərimanovla birlikdə 1906-cı ildə Azərbaycan müəllimlərinin Bakıda keçirilmiş birinci qurultayının işində yaxından iştirak etmişdir. O, Azərbaycan qadınlarının maariflənməsinə xüsusi əhəmiyyət vermiş, 1901-ci ildə Bakıda azərbaycanlı qızlar üçün ilk məktəbin açılmasına böyük kömək göstərmişdir.

Azərbaycanın mərkəzi şəhəri kimi Bakının sürətli inkişafı milli mətbuatın yaranması zərurətini doğurmuşdur. Ana dilində qəzetə böyük ehtiyac olduğunu dərk edən Həsənbəy Zərdabi qəzet çap etmək üçün hökumətə müraciət etmişdir. Bununla əlaqədar o, İstanbuldan hürufat gətirmiş və nəhayət, xeyli zəhmətdən, əzab-əziyyətdən sonra 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə müvəffəq olmuşdur. Bu qəzetlə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur. 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr olunmuşdur. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür.

1877-ci il sentyabrın 29-da "Əkinçi" öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının ilk qaranquşu olan bu qəzet ikiillik ömür yaşasa da, xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynadı. Maarifçi və demokratik ideyaların carçısı olan "Əkinçi" realist Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərdi. Məhz buna görə də belə tərəqqipərvər qəzet mürtəce, işğalçı bir rejimin əsarəti altında çox yaşaya bilmədi.

Həsən bəy Zərdabi 28 noyabr 1907-ci ildə vəfat etmişdir.

## Firidun bəy Köçərli



**Firidun bəy Köçərli** – görkəmli Azərbaycan maarifçisi, pedaqoq, ədəbiyyatşünas, publisist.

Firidun bəy Köçərli 1863-cü il yanvarın 26-da Şuşada dünyaya gəlmişdir. İbtidai təhsilini Mirzə Kərim Münşizadənin məktəbində almışdır. Elmə, maarifə, böyük marağı və həvəsi olduğundan atası Əhməd bəy oğlunu dövrünün ən yaxşı məktəblərində oxutmaq istəyində idi. Həmin dövrdə məşhur rus pedaqoqu A.Çernyayevski Qafqazı dolaşaraq Qori Müəllimlər Seminariyası üçün şagird axtarırdı. Firidun bəy Köçərli də onun diqqətini çəkir və o, seminariyaya cəlb edilir. Bununla Firidun bəy Köçərli öz taleyini seminariyaya bağlayır, o, 1879–1885-ci illər ərzində burada təhsil alır.

F.Köçərli seminariyanı bitirəndən sonra bir müddət İrəvan gimnaziyasında dərs deyir. 23 yaşlı Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil edir; Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilir.

"Vətən dili" dərsliyinin I hissəsinin yenidən işlənilməsində Firidun bəy Köçərlinin xidmətləri böyükdür. O, dərsliyə 300-dən artıq düzəliş etmiş, nəzəri material, hekayələr artırmış, metodika və stilistikasını dəyişdirərək zənginləşdirmişdir. Köçərlinin "Darı və buğda" əsəri "Vətən dili"nə salınmışdır.

F.Köçərli Qori Müəllimlər Seminariyasında dərs demiş, 1918-ci ildə seminariyanın Azərbaycan bölməsinin Qazaxa köçürülməsinə nail olmuş və ömrünün sonunadək ona rəhbərlik



etmişdi. O, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü olub.

Firidun bəy Köçərli 1920-ci ilin mayında Gəncədə baş verən antisovet üsyanı zamanı XI Ordunun 20-ci diviziyasının hökmü əsasında həbs edilir və verilən saxta hökmə əsasən onun barəsində güllələnmə qərarı çıxarılır.

Firidun bəy Köçərlinin həbs edilməsi haqqında xəbər o zaman Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova çatdırılır. Nəriman Nərimanov Firidun bəyin azad olunması barədə Gəncəyə teleqram göndərəndə, təəssüf ki, artıq gec idi...

## İsmayıl Hikmət



**İsmayıl Hikmət Ərtaylan** – ədəbiyyatşünas, pedaqoq.

İsmayıl Hikmət 1889-cu ildə İstanbulda Bəylərbəyi məhəlləsində dünyaya göz açıb. O, orta təhsilini Qalatasaray liseyində alıb. 1911-də İstanbulda Mülkiyyə Məktəbini yaxşı dərəcə ilə bitirib. Qalatasaray Liseyi və Robert Kollecində ədəbiyyat və fransızca dərsləri verib. 1921-in mayında müəllimlikdən ayrılaraq Xariciyyə Nazirliyi Mətbuat Müdirliyində dəftərxana işçisi kimi çalışıb. Bir qədər sonra buradakı vəzifəsi sona yetib.

Azərbaycan hökuməti Türkiyə Böyük Millət Məclisi (TBBM) Hökumətindən müəllimlər istədiyinə görə 1923-ün aprelində Maarif Nazirliyi onu Bakıya göndərib. Bakı Universiteti ilə Bakı Teatr Məktəbində Türk ədəbiyyatı tarixi müəllimi, Bakı

Pedaqoji İnstitutunda, Bakı Darülmüəllimində Qərb ədəbiyyatı tarixi və sənət tarixi müəllimi, 1924-ün sentyabrından Bakı Universiteti ədəbiyyat fakültəsinin dekanı işləyib. 1927-nin iyulunda Bakı Universiteti Ali Şurasının qərarı ilə professorluğa yüksəldilib. Professorluq dissertasiyası olan "Azərbaycan ədəbiyyatı tarixi" adlı əsəri Bakıda nəşr edilib. 1927-nin dekabrında Ankaraya qayıdıb. Türkiyəyə qayıtdıqdan sonra o, Qazi Təhsil İnstitutunda ədəbiyyat müəllimi, Milli Təhsil Nazirliyində müfəttiş, 1933–1935-ci illər arasında Kipr Türk Liseyinin, Ankara Cümhurbaşqanlığı Orkestrinin, İstanbul Gözəl Sənətlər Akademiyasının direktoru vəzifələrində çalışıb. 1939-un noyabrında İsmayıl Hikmət Əfqanıstan hökumətinin istəyi ilə müşavir qismində ölkəyə göndərilib. Şəxsi təşəbbüsü ilə Kabildə "Gecə Universiteti" açdırıb.

Əfqanıstanda ibtidai məktəbdən universitetədək bütün dərəcələrdəki təhsil qurumlarının proqramlarını hazırlayıb. 1942-nin noyabrında öz istəyi ilə yurda dönüb. 1943-ün yanvarında o, İstanbul Universitetinin ədəbiyyat fakültəsində "Türk dili və ədəbiyyatı tarixi" kafedrasının ordinar professorluğuna təyin edilərək, təqaüdə çıxdığı 1960-cı ilədək orada çalışıb.

Görkəmli alim və müəllim İsmayıl Hikmət Ərtaylan 18 dekabr 1967-ci ildə İstanbulda dünyasını dəyişib.



## Seyid Hüseyn



**(Hüseyn Mir Kazım oğlu Sadıqzadə)** – yazıçı, tənqidçi, pedaqoq.

Seyid Hüseyn 1887-ci il yanvarın 25-də Bakı şəhərində anadan olmuşdur. Beş yaşında atasını itirən Seyid babası Mirsadiq Mirhəsənin himayəsində böyüyüb tərbiyə almışdır. O, əvvəl mollaxanada, sonra dövrünün görkəmli maarif xadimlərindən olan Mahmud bəy Mahmudbəyovun müdir olduğu Rus-tatar məktəbində dörd ilə yaxın təhsil almışdır. Azərbaycan, rus, fars dillərini mükəmməl öyrənmişdir.

1904-cü ildə – babasının vəfatından sonra ailənin qayğısı Seyid Hüseynin üzərinə düşmüşdür. O, "Kaspi" mətbəəsində işə girir və 1912-ci ilə kimi orada mürəttiblik edir. 1913–1914-cü illərdə Seyid Hüseyn "İqbal"ın baş redaktoru idi. 1920-ci ildən "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmiş, Bakının orta məktəb və texnikumlarında müəllimlik etmiş, ömrünün son illərində isə "Azərnəşr"in bədii ədəbiyyat şöbəsinin redaktoru olmuşdur. O, bədii yaradıcılığa 1907-ci ildə başlamışdır.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, milli ədəbiyyatımızın zənginləşməsi üçün səy göstərmişdir. Ancaq bir çox Azərbaycan ədəbiyyatının görkəmli xadimləri kimi repressiya dalğası ondan və ailəsindən də yan keçməmişdir. 1936-cı ildə o, Yazıçılar İttifaqının üzvlüyündən çıxarılmış, əsərləri kəskin tənqid olunaraq, onlara siyasi rəng verilmiş, adına "xalq düşməni" damğası vurulmuşdur.

Çağdaş Azərbaycan nəsrinin, xüsusilə onun hekayə janrının inkişafı tarixi Seyid Hüseynin adı ilə sıx surətdə bağlıdır. Onun nəsri çağdaş Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafı dövrünün ən parlaq səhifələrindən biridir. Seyid Hüseynin 20-ci illərin sonundan 30-cu illərin birinci yarısınadək yazdığı hekayələr o zaman oxucuların dillərində əzbər olmuş, indi də öz təravətini saxlamış, müasirliyini itirməmiş, müəllifə şirin hekayə ustası kimi şöhrət qazandırmışdır. Seyid Hüseyn "Təzə həyat" və "Kaspi" qəzetlərinin mətbəələrində mürəttib olmuş, şərikli "Bəhlul", "Kəlniyət" və "Qurtuluş" jurnallarını nəşr etdirmişdir.

Seyid Hüseyn hekayə və publisistik məqalələrində mürtəce ziyalıların əleyhinə çıxmış, Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparmışdır. O, həmçinin Azərbaycan ədəbiyyatı və ədəbiyyat xadimləri haqda məqalələrin, müasir həyatdan bəhs edən hekayələrin müəllifidir.

Repressiya dövrünün qurbanlarından olan Seyid Hüseyn 1937-ci ildə həbs edilmiş, 1938-ci ilin yanvarında güllələnmişdi.

## Abbas Səhhət



**Abbas Əliabbas oğlu Mehdizadə (Abbas Səhhət)** – şair, dramaturq, tərcüməçi.

1874-cü ildə Şamaxıda ruhani ailəsində dünyaya gəlmiş, ilk təhsilini də burada almışdır. 1900-cü ildə Tehran Universitetinin tibb fakültəsini bitirən, rus, ərəb, fars, fransız dillərini mükəmməl bilən gənc



Abbas Səhhət 1901-ci ildə Şamaxıya qayıtmış və həkimliklə yanaşı, məktəblərdə Azərbaycan dilindən dərs demişdir. Məhz bu dövrdən etibarən ədəbi fəaliyyətə başlamış və artıq 1903-cü ildən məqalələri "Şərqi-Rus" qəzetində çap olunmuşdur. 1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqaləsi, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şeirləri işıq üzü görmüşdür.1912-ci ildə ədibin öz şeirlərindən ibarət "Sınıq saz" və Avropa şairlərindən etdiyi tərcümələrdən ibarət "Qərb günəşi" adlı şeirlər toplusu çap olunmuşdur. Bir qədər sonra "Əhmədin şücaəti" adlı poeması, 1916-cı ildə isə "Şair, şeir pərisi və şəhərli" adında romantik poeması nəşr olunur.

"Yeni üslublu məktəblər" ideyasının yorulmaz müdafiəçisi olan Abbas Səhhət professor Əli bəy Hüseynzadənin banisi olduğu Azərbaycan romantik ədəbiyyatı cərəyanına qoşulur. Abbas Səhhət XX əsrin əvvəllərində Bakıda nəşr olunan bütün jurnal və qəzetlərdə mütəmadi qaydada çıxış edir. Tərcüməçilik fəaliyyəti ilə də məşğul olan yazıçı Azərbaycan oxucusunu rus (M.Lermontov, A.Puşkin, İ.Krılov, S.Nadson, M.Qorki), fransız (Hüqo, Müsse, Sülli-Prüdom) şair və yazıçılarının əsərləri ilə tanış edir.

Abbas Səhhət fəal maarif və mədəniyyət xadimlərindən olmuşdur. Məktəb, kitabxana açılmasına çalışmış, M.Mahmudbəyovla birgə "Yeni məktəb" (1909), "Üçüncü il" (1909), "Türk ədəbiyyatına ilk qədəm" (1914) dərsliklərini yazmışdır. Onun ən mühüm xidmətlərindən biri M.Ə.Sabirin əsərlərini toplayıb ilk dəfə "Hophopnamə" adı ilə nəşr etdirməsidir (1912). Əsərləri xarici dillərə tərcümə olunmuşdur. Anadan olmasının 100 illik yubileyi geniş miqyasda keçirilmiş (1974), Gəncədə abidəsi qoyulmuşdur. Adına küçə, kitabxana, məktəb və s. var.

Abbas Səhhət 1918-ci ildə Gəncədə vəfat edib.

## Atababa Musaxanlı



**Musaxanlı Atababa Daşdəmir oğlu** – maarif və mədəniyyət xadimi, tənqidçi, ədəbiyyatşünas.

Abdulla Şaiqin gənc yaşlarından müəllimliyə başlayan həmkarları arasında öz tələbələri də az olmamışdı. Belə tələbələrindən biri də Atababa Musaxanlı idi. Müəllim ilə tələbə arasında lap ilk illərdən yaxınlıq başlamış, çox keçməmiş bu əlaqə ailəvi dostluğa və həmkarlığa çevrilmişdi.

Atababa Daşdəmir oğlu Musaxanlı 1905-ci il dekabrın 20-də Bakıda sənətkar ailəsində anadan olub. Burada rus-tatar məktəbində ibtidai təhsil alıb, Sovet hakimiyyəti qurulduqdan sonra isə şəhər orta məktəbini bitirib. A.Musaxanlı 1921–1924-cü illərdə Ali Pedaqoji İnstitutun dil və ədəbiyyat şöbəsində təhsilini davam etdirib. İnstitutu fərqlənmə diplomu ilə bitirən ədəbiyyatşünas Bakı Pedaqoji texnikumuna dil və ədəbiyyat müəllimi təyin olunub. A.Musaxanlı Bakı Qız Darülmüəlliminində və 18 saylı şəhər orta məktəbində uzun müddət müəllimlik edib. O, ali və orta məktəb üçün proqramlar hazırlayıb, dərsliklər yazıb. Ədəbi fəaliyyətə şeirlə başlayan, hekayə və mənsur şeirlər yazan Atababa Musaxanlının yaradıcılığında tənqid və ədəbiyyatşünaslıq başlıca yer tutub. Onun 1920–1930-cu illərdə yazdığı "Şaiq – şair və müəllim", "Ədəbiyyatımız tarixində Sabir", "Aran köçü", Mirzə Fətəlinin ictimai-tərbiyəvi mülahizələri", "Azərbaycan ədəbiyyatının inkişafı və xüsusiyyətləri" və s. məqalələri, "Kitabi-Dədə Qorqud"a, eləcə də klassik ədəbiyyata dair



tədqiqləri milli ədəbi-ictimai fikrin inkişafına faydalı olmuş, onu zənginləşdirmişdi.

Repressiya qurbanlarından olan Atababa Musaxanlı 1941-ci il avqustun 14-də həlak olub.

## Süleyman Sani Axundov



**Axundov Süleyman Sani Rzaqulu bəy oğlu** – dramaturq, nasir, maarif xadimi.

S.S.Axundov 1875-ci il oktyabr ayının 21-də Şuşa şəhərində dünyaya gəlib. Hələ körpə ikən atasız qalan Süleymanın təlim-tərbiyəsi ilə bilavasitə dayısı, görkəmli maarif xadimi Səfərəli bəy Vəlibəyov məşğul olub. Süleyman Sani 1885-ci ildə Qori müəllimlər seminariyasına daxil olmuş, burada milli, klassik rus və dünya ədəbiyyatı ilə dərindən tanışlıq onun dünyagörüşünə faydalı təsir göstərmişdir. 1894-cü ildə seminariyanı bitirən Süleyman Sani Bakıdakı III dərəcəli rus-tatar məktəbinə müəllim təyin edilmişdir. 1906-cı ildə Bakıda çağırılan müəllimlər qurultayında fəal iştirak edən Süleyman Sani ərəb əlifbasını islah etmək üçün faydalı təşəbbüs göstərmiş, həmin qurultayda ana dilində proqram tərtib etmək üçün ayrılan komissiyaya seçilmiş, 1908-ci ildə A.Şaiq, M.Mahmudbəyov və başqa qabaqcıl maarif xadimləri ilə birlikdə Azərbaycan pedaqoji fikri tarixində mütərəqqi bir hadisə olan məşhur "İkinci il" dərsliyini tərtib etmişdir.

Ədəbiyyatda həmsoyadı Mirzə Fətəli Axundovdan fərqlənmək üçün Süleyman Sani ərəbcə "ikinci" məna-

sını daşıyan "Sani" sözünü özünə ləqəb götürmüşdür. M.F. Axundovla başlanan nəsr və dramaturgiya yolunu davam etdirən N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə kimi böyük yazıçılar sırasında Süleyman Sani orijinal bir yer tutur. Süleyman Sani, həm də olduqca həssas, şagirdlərin qəlbinə yol tapa bilən ustad müəllim idi. O özünün yüksək mənəvi keyfiyyətləri, qabaqcıl fikri, ensiklopedik biliyi, ciddiliyi, səmimiliyi, tələbkarlığı ilə ictimaiyyətin dərin hörmətini qazanmışdı. Süleyman Saninin müdiri olduğu məktəbin onun adı ilə çağırılması təsadüfi deyildi.

Sovet hakimiyyəti illərində o, Azərbaycanın ilk maarif komissarı olmuşdur. 1920-ci il mayın 25-də Gəncə qiyamı yatırıldıqdan sonra həmin il iyun ayının əvvəlində belə bir qiyam Qarabağda baş verir. Azərbaycan İnqilab Komitəsi tərəfindən Qarabağa göndərilən nümayəndələr sırasında Süleyman Sani də vardı. Həmin il avqustun 9-da o, Qarabağ Vilayəti Maarif şöbəsinə müdir təyin edilir.

1922-ci ildə S.Sani M.Mahmudbəyov, S.Əbdürrəhmanzadə, F.Ağazadə, A.Şaiq, Ə.Əfəndizadə ilə birlikdə "Yeni türk əlifbası" dərsliyini yazır. Həmin ildə o, Azərbaycan ədib və şairlər ittifaqının sədrliyinə seçilir. S.S.Axundov Azərbaycan teatrının əlliilliyi münasibəti ilə Ə.Haqverdiyev, N.Vəzirov, T.Şahbazi, S.Qənizadə, Ə.Cəfərzadə ilə birlikdə "Azərbaycan-türk teatrosunun müxtəsər tarixçəsi"ni yazır. 1923-cü ildə Bakıda Azərnəşrin nəzdində məktəbdənkənar oxu kitabları tərtib edən komissiyanın işində fəal çalışır.

Süleyman Sani Axundov 1939-cu il mart ayının 29-da Bakıda vəfat etmişdir.



## Cəmo bəy Cəbrayılbəyli



**Cəmo bəy Adil bəy oğlu Cəbrayılbəyli** – pedaqoq, ictimai xadim, publisist.

C.Cəbrayılbəyli 29 yanvar 1887-ci ildə Şamaxı rayonunun Çuxuryurd kəndində anadan olmuşdur. Erkən yaşlarında atasını itirən Cəmo bəy Mir Cəfər Seyidzadənin mənəvi yardımı ilə 1896-cı ildən 1901-ci ilədək Şamaxı şəhər məktəbində təhsil almışdır. O, 1908-ci ildə imtahan verərək məktəb müəllimi adını almış, 1908–1914-cü illərdə Şamaxı, 1914-cü ildən Bakı məktəblərində müəllimlik etmişdir.

1920-ci ildə Bakıda Köhnə Marinskaya qız gimnaziyasının binasında ilk darülmüəllimat – qızlar üçün seminariya yaradılmışdı. Seminariyanın müdiri Azərbaycan xalqının fədakar qızlarından Mədinə Qiyasbəyli idi. 1926-cı ildə Maarif Komissarlığının sərəncamı ilə iki seminariya birləşdirilərək Bakı Müttəhid (birləşmiş) Pedaqoji Texnikumu kimi fəaliyyət göstərməyə başlamış və tezliklə respublikanın qabaqcıl tədris ocaqlarından birinə çevrilmişdi. Birləşmiş məktəbin direktoru Pənah Qasımov, tədris işləri üzrə direktor müavini Cəmo Cəbrayılbəyli idi. O illərdə texnikum təkcə Azərbaycan üçün deyil, Orta Asiya və Dağıstan respublikaları üçün də pedaqoji kadrlar hazırlayırdı.

Cəmo Cəbrayılbəyli Zülfüqar Hacıbəyli ilə birlikdə Şamaxıda "Nicat" maarif cəmiyyətinin şöbəsini açmaq məqsədilə 1915-ci ilin yayında Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını tamaşaya qoymuşlar.

C.Cəbrayılbəyli 1922-ci ildə orta məktəb müəllimləri hazırlayan ali pedaqoji kursları bitirmiş, "Zükur" darülmüəlliminine müəllim, sonralar isə dərs hissə müdiri təyin edilmişdir. 1931-ci ildə o, Azərbaycan Pedaqoji İnstitutunun biologiya fakültəsini bitirmiş, 1932–1937-ci illərdə Sənaye Akademiyasında, Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunda, 1938–1964-cü illərdə Azərbaycan Elmi-Tədqiqat İnstitutunda işləmişdir.

C.Cəbrayılbəyli 1942-ci ildə namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi adı almış, həmin il Azərbaycanın Əməkdar müəllimi adına layiq görülmüşdür. O, həmçinin "Şərəf nişanı" ordeni və bir çox medallarla təltif edilmişdir.

Cəmo Cəbrayılbəyli 30 iyul 1965-ci ildə vəfat etmiş, Şamaxıdakı Şahxəndan qəbiristanlığında, M.Ə.Sabirin qəbri yaxınlığında dəfn edilmişdir.

## Həbib bəy Mahmudbəyov



**Mahmudbəyov Həbib bəy Hacı İbrahimxəlil bəy oğlu** – Azərbaycanın maarif xadimi.

Həbib bəy Mahmudbəyov 1864-cü ildə Şamaxı şəhərində anadan olub. Həbib bəyin Şirvan əsilzadələrindən olan ulu babası Hacı Sadıq Nadir şahın xəzinədarı, atası Hacı İbrahimxəlil bəy Şamaxının mötəbər şəxslərindən biri imiş.



Səkkiz yaşında ikən Həbib bəy Şamaxının məhəllə məktəblərindən katib Mirzə Hüseyn adlı bir mollanın məktəbində oxuyur, sonra, təhsilini Şamaxının şəhər məktəbində davam etdirir. 1872-ci il zəlzələsində şəhər məktəbinin binası dağılır və Həbib bəy Bakıya gəlir. O, 1873–1881-ci illərdə Realnı məktəbdə təhsil alır. Bu məktəbdə altıncı sinifdə oxuduqdan sonra Həbib bəy 1883-cü ildə Sultan Məcid Qənizadə ilə birlikdə Tiflisə gedərək oradakı Aleksandrov Müəllimlər İnstitutuna daxil olur. 1887-ci ildə həmin institutu bitirən H.Mahmudbəyov yenə də Sultan Məcid Qənizadə ilə bir yerdə Bakıya dönür və elə həmin il onlar ilk özəl rus-müsəlman məktəbini açırlar. Bu, Azərbaycanda maarifin inkişafında böyük hadisə olur və maarifin gələcək inkişafının istiqamətini müəyyənləşdirir. 1891-ci ildə məktəb dövlət təminatına keçirilir və onun əsasında iki ayrı məktəb yaradılır: H.Mahmudbəyovun müdiri olduğu Birinci rus-tatar məktəbi və S.M.Qənizadənin rəhbər təyin edildiyi İkinci rus-tatar məktəbi. H.Mahmudbəyov 1896-cı ildə S.M.Qənizadə, İ.Məlikov və başqaları ilə birlikdə rus-tatar kitabxanası təşkil edir. 1917-ci il oktyabr çevrilişinədək H.Mahmudbəyov böyük ictimai maarifləndirmə fəaliyyətilə məşğul olur, Bakı Şəhər Dumasında məktəb komissiyasının üzvü kimi Azərbaycan müəllimlərinin I qurultayının hazırlanması və keçirilməsində fəal iştirak edir.

Azərbaycanda sovet işğal rejimi qurulduqdan sonra H.Mahmudbəyov respublikada xalq təhsilinin inkişafında yeni istiqamətlərin işlənib hazırlanmasının fəal iştirakçılarından olmuşdur. Təşkilat komissiyasının üzvü kimi, Pedaqoji İnstitutun təşkilində fəal iştirak etmişdir. H.Mahmudbəyov Ali Pedaqoji İnstitutun direktor müavini, sonra isə direktoru olmuş, eyni zamanda rus dili və ədəbiyyatı fənlərindən dərs demişdir.

Azərbaycanın böyük maarif xadimi Həbib bəy Mahmudbəyov 1927-ci ildə Bakıda vəfat etmişdir.

## Mirzə Ələkbər Sabir



**Mirzə Ələkbər Sabir** – şair, ictimai xadim, müəllim.

Ələkbər Zeynalabdin oğlu Tahirzadə 1862-ci il mayın 30-da Şamaxıda anadan olmuşdur. Kiçik baqqal dükanı olan Zeynalabdin Tahirzadə dindar bir kişi idi. O, Ələkbəri gələcəkdə ruhani görmək istədiyi üçün səkkiz yaşına çatanda onu mollaxanaya qoymuşdu. 12 yaşı olanda isə Sabir məşhur şair Seyid Əzimin açdığı yeni üsullu məktəbə getmişdi. Müəllimi Ələkbərə fars dilindən şeirlər tərcümə etdirir, sonra bu tərcümələri oxuyub ona məsləhətlər verir, yaradıcılıq həvəsini artırırdı.

XX əsrin əvvəllərindən başlayaraq Sabirin şeirləri mətbuat səhifələrində görünməyə başlayır: 1903-cü ildə "Şərqi-Rus" qəzetində, bir qədər sonra isə "Həyat" qəzetində şeirləri çap olunur, 1906-cı ildə şair "Molla Nəsrəddin" jurnalının ən fəal müəlliflərindən birinə çevrilir. Elə həmin vaxtdan Cəlil Məmmədquluzadə ilə Sabir arasında qırılmaz dostluq münasibətləri yaranır və hər iki sənətkar xalqın qanını soran zalım ağalara, yaltaq ruhanilərə, satqın ziyalılara sarsıdıcı zərbələr vurur. Şeirlərini gizli imzalarla yazmasına baxmayaraq, istər Şamaxıda və Bakıda, istərsə də Azərbaycanın başqa yerlərində



və İranda bir çox irticaçılar Sabirin əsərlərini pisləyir, onun yazdığını oxuyanları kafir elan edirdilər. Ruhanilər Sabirin ölümünə fitva verir, varlılar ona hədələyici məktublar göndərir, qoçular küçədə yolunu kəsib ağır sözlər deyirdilər.

1910-cu ilin əvvəllərində Sabir Bakıya işləməyə gəlir. Əvvəlcə "Zənbur" jurnalının redaksiyasında çalışır, sonra Balaxanı məktəbində böyük həvəslə dərs deməyə başlayır. Müəllimliyi ilə yanaşı, şair Balaxanı neft mədənlərində işləyən fəhlələrə, yerli inqilabçılara yaxınlaşaraq onların açdıqları "Nur" kitabxanasının fəal üzvü olur.

1911-ci il iyulun 12-də, həyatının və yaradıcılığının ən parlaq bir vaxtında Sabir ağciyər xəstəliyindən vəfat edir və dünyaya göz açdığı Şamaxıda, Yeddi günbəz qəbiristanlığında dəfn olunur.

Sabirin xatirəsinə hörmət əlaməti olaraq vəfatından bir il sonra, 1912-ci ildə həyat yoldaşı və dostları Abbas Səhhət və M.Mahmudbəyovun səyləri nəticəsində "Hophopnamə" adı ilə şeirləri çap olunur, iki il sonra isə xalqın yardımı ilə "Hophopnamə"nin ikinci, daha mükəmməl nəşri işıq üzü görür.

## Nəriman Nərimanov



**Nəriman Nərimanov** – ictimai-siyasi xadim, yazıçı, publisist, həkim.

Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov 14 aprel 1870-ci ildə Tiflis şəhərində anadan olmuşdur. O, 1890-cı ildə Qori seminariyasını, 1908-ci ildə Novorossiysk (Odessa) Universitetinin tibb fakültəsini bitirmişdir.

N.Nərimanov 1905-ci ildə Sosial-Demokrat "Hümmət" təşkilatının rəhbərliyinə daxil olmuş, Rusiya Sosial-demokrat fəhlə partiyasının məramnaməsini Azərbaycan dilinə çevirmişdir. 1909-cu ildə həbs olunaraq Həştərxan şəhərinə sürgün edilmişdir. 1913-cü ildə Bakıya qayıdan Nərimanov fəhlələr arasında təbliğatla məşğul olmuşdur. Artıq 1917-ci ildə N.Nərimanov "Hümmət" Təşkilatı Mərkəzi Komitəsinin sədri və RSDFP Bakı Komitəsinin üzvü, "Hümmət" qəzetinin baş redaktoru idi.

1918-ci ilin martında Nərimanov Bakı Sovetində Şəhər təsərrüfatı üzrə xalq komissarı təyin olunur. Həmin ilin iyun ayında ağır xəstəliklə əlaqədar olaraq Həştərxan şəhərinə müalicəyə göndərilir. Sağaldıqdan sonra həmin şəhərdə bir sıra partiya orqanlarında çalışır. 1919-cu ildə Moskvaya çağırılan N.Nərimanov RSFSR Xalq Xarici İşlər Komissarlığında Şərq məsələləri üzrə Xalq komissarının müavini vəzifəsinə təyin edilir. 28 aprel 1920-ci ildəAzərbaycan Sovet Respublikası elan edildikdən sonra N.Nərimanov Azərbaycan SSR Müvəqqəti İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin sədri vəzifələrini tutur.1922-ci ildə o, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri seçilir.



Azərbaycanın Müsəlman Şərqində nail olduğu bir çox ilklər, o cümlədən ilk konstitusiya N.Nərimanovun adıyla bağlıdır. Onun hakimiyyəti dövründə Azərbaycan xalqının adət və ənənələrinə dəyər verilmiş, bütün dini və ənənəvi bayramlar rəsmi olaraq qeyri-iş günü hesab olunmuşdur. Nəriman Nərimanov siyasətçidən əlavə maarifpərvər və dramaturq kimi Azərbaycan tarixində mühüm rol oynamış, ilk qiraətxananı açmışdır. N.Nərimanov "Bahadır və Sona" əsəri ilə Azərbaycan milli romanının və "Nadir şah" dramı ilə ilk tarixi faciənin banisi hesab olunur.

N.Nərimanov 1925-ci ildə müəmmalı şəkildə vəfat etmiş və Moskvada Kremlin divarları yaxınlığında dəfn edilmişdir.

## Fərhad Ağazadə



**Fərhad Ağazadə** (təxəllüsü Şərqli) – pedaqoq, dilçi, əlifba islahatçısı, mətbuat tarixçisi, yazıçı-publisist.

Fərhad Məşədi Rəhim oğlu Ağazadə 1880-ci il avqustun 12-də Şuşa şəhərində anadan olmuşdur. Uşaqlıqdan ağlı, zəkası və istedadı ilə seçilən Fərhad Ağazadə Şuşa şəhər məktəbini bitirdikdən sonra 1898-ci ildə Zaqafqaziya Qori Müəllimlər Seminariyasına qəbul olmuş və 1900-cü ildə oranı bitirmişdir. 1900–1905-ci illərdə Xaldan (1900), Şuşa (1901–1902), Gorus (1902–1905), Gəncə (1905) məktəblərində müəllim işləmiş, 1905-ci ildə pedaqoji fəaliyyətini Bakıda davam etdirmiş, Birinci rus-müsəlman məktəbində müəllim və müdir (1905–

1909), "Səadət" məktəbində isə müdir müavini kimi fəaliyyət göstərmişdir.

F.Ağazadə Qafqaz müsəlman müəllimlərinin Bakıda keçirilən birinci (1906), ikinci (1907) qurultaylarının təşkilatçılarından və fəal iştirakçılarından olmuş, qurultayın idarə heyətinin tapşırığı ilə beş nəfər müəllimlə (M.Mahmudbəyov, S.Əbdülrəhmanbəyov, S.Axundov, A.Talıbzadə və A.Əfəndizadə) birlikdə "İkinci il" dərsliyini tərtib və nəşr etdirmişdir (1908). O həm də "Ədəbiyyat məcmuəsi" (1914) dərsliyinin müəllifidir. Mirzə Fətəli Axundzadə, Mirzə Rza Daniş və Məhəmməd ağa Şahtaxtlıdan sonra əlifba islahatı uğrunda mübarizənin müstəqil mərhələsi Fərhad Ağazadənin adı ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xalq Maarifi Nazirliyi nəzdindəki Əlifba komissiyasının işində iştirak etmiş Fərhad Ağazadənin dövri mətbuatda mühüm ictimai-siyasi məsələləri çox sərrast şəkildə, vətəndaş mövqeyindən işıqlandıran yazıları çap olunmuşdur. 1922-ci ildə təşkil olunmuş "Yeni türk əlifbası komitəsi"nə üzv seçilən Ağazadə layihələr tərtib etmiş, "Kommunist" və "Yeni yol" qəzetlərində, "Maarif işçisi", "Yeni məktəb" jurnallarında məqalələr dərc etdirərək latın qrafikasının təbliği və tədrisi işində böyük xidmət göstərmişdir. "Nə üçün ərəb hürufatı türk dilinə yaramır?" (1922) əsəri əlifbanı dəyişmək uğrunda gedən mübarizənin tarixi haqqında zəngin məlumat verən dəyərli tədqiqatdır.

F.Ağazadə "Əkinçi" qəzeti (1925), "Türk qrameri" (1926), "Firidun bəy Köçərlinin bioqrafiyası" və s. əsərlərin müəllifidir. F.Ağazadə Azərbaycan Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin ən fəal yazarlarından biri olmuşdur. Qəzetin çox nadir səhifələrində onun imzasına rast gəlinmir.

28 aprel işğalından sonra Azərbaycanda İttifaq hökuməti bir sıra tədbirlər həyata keçirməyə başladı. F.Ağazadə Yeni türk əlifbası Azərbaycan Komitəsinin üzvü seçildi. O, türk əlifba



komitəsinin işində həm elmi təşkilatda, həm də yeni əlifbaya aid nəzəri məsələlərin hazırlanmasında çox yaxından iştirak edirdi. Onun "Ərəb əlifbası türk dilinə niyə yaramır?", "Yeni türk əlifbalarının unifikasiyası üzrə materiallar", "Azərbaycanda yeni türk əlifbasının inkişafı və həyata keçirilməsi tarixi", "Yeni türk əlifbasının tarixi" kimi əsərləri xüsusi əhəmiyyətə malikdir. Bundan başqa, F.Ağazadə dilçiliyə aid "Türk-tatar dillərində səslərin nisbi münasibətini bilmək bizə nədən ötrü lazımdır?", "Yazı qaydalarında mümkün ixtisarlar məsələsinə dair" və s. məqalələrin müəllifidir.

1929-cu ilin iyun ayının 26-da F.Ağazadə ÜMYTƏK-in genişləndirilmiş rəyasət heyətinin iclaslarında (1–5 iyul 1929) iştirak etmək üçün Mahaçqalaya ezam olunur və geri qayıdarkən yolda onun səhhəti pisləşir. Bundan sonra o, qida borusunun daralmasından əziyyət çəkməyə başlayır. Bir müddət Bakıda müalicə olunsa da, səhhətində irəliləyiş hiss olunmur.

Tanınmış pedaqoq, dilçi, jurnalist, yazıçı-publisist, nüfuzlu ictimai xadim Fərhad Ağazadə 1931-ci il yanvar ayının 4-də vəfat etmişdir.

## Qafur Rəşad Mirzəzadə



**Qafur Rəşad Mirzəzadə** – pedaqoq, coğrafiyaçı, publisist.

Qafur Ələkbər oğlu Mirzəzadə 6 may 1884-cü ildə Şamaxı rayonunda anadan olmuşdur. Qafur Rəşad 1922-ci ildə Bakı Ali Pedaqoji İnstitutunu, 1927-ci ildə Bakı Politexnik İstitutunun iqtisadiyyat fakültəsini bitirmişdir. O, 1901-ci ildə Bakıda III

Aleksandr kişi gimnaziyasındakı xüsusi komissiya qarşısında imtahan verib, Azərbaycan dili müəllimi vəsiqəsi almışdır. 1902–1907-ci illərdə Qafur Rəşad Şamaxı qəzasının Lahıc kənd ibtidai məktəbində, 1907–1909-cu illərdə Bakıda "Nəşri-maarif" cəmiyyətinin müəllim hazırlığı kursunda, 1909–1917-ci illərdə Rus-müsəlman məktəbində müəllim kimi çalışmışdır.

Qafur Rəşad 1917-ci ildə Bakı şəhəri 2-ci Realnı məktəbinin milli sinfində dərs deməyə dəvət olunmuşdur. O, həm də Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli fənləri tədris etmək üçün 2-ci Realnı məktəbə təyinat almışdır. Qafur Rəşad sonralar Azərbaycan Dövlət Universitetində, Zaqafqaziya Pambıqçılıq İnstitutunda, Sənaye Akademiyasında, Azərbaycan Dövlət Elmi-tədqiqat İnstitutunda çalışmışdır.

Milli məktəblərin dərsliklərlə təmin olunması sahəsində Qafur Rəşadın xidmətləri böyükdür. Coğrafiya tədrisi metodikasının əsasını qoymuş Qafur Rəşad ilk coğrafiya dərsliklərinin yaradıcısıdır. O, "Qafqaz coğrafiyası" (1910), "İbtidai coğrafiya" (1922), "Ümumi coğrafiya" (1923), "Coğrafiya terminləri lüğəti" (1923), "SSRİ-nin iqtisadi coğrafiyası" (1941), "Xəritə üzərində əməli iş" (1943) və s. adlar altında 18 dərslik və vəsait yazıb nəşr etdirmişdi. "Rəhbəri-sərf" (M.Axundovla birgə, 1910), "Rəhbəri-hesab" (Ə.Əfəndizadə ilə birgə, 1910) dərslikləri uzun illər məktəblərdə tədris olunmuşdu. Bununla yanaşı, milli uşaq ədəbiyyatının inkişafında da Qafur Rəşadın xidmətləri böyükdür. O, Azərbaycanda "Məktəb" adlı sayca ikinci uşaq jurnalının və uşaqlara məxsus ədəbiyyat nəşr edən eyniadlı birinci mətbəənin təsisçisidir (Əbdürrəhman Tofiq Əfəndizadə ilə birgə).

Cümhuriyyət dövründə nəşr olunmuş "Məktəb" jurnalı uşaqların milli müstəqillik və dövlətçilik ruhunda tərbiyəsində



müsbət rol oynamışdır. Qafur Rəşad pedaqoq-yazıçıları jurnalın ətrafına toplamış, orijinal şeir və hekayələrdən, müxtəlif dillərdən edilən tərcümələrdən, elmi-kütləvi məqalələrdən ibarət zəngin uşaq ədəbiyyatı xəzinəsi yaratmış, yeni yazıçı nəslinin yetişməsi işində böyük xidmət göstərmişdir.

AXC dönəmində bir sıra yeni dərsliklər də hazırlandı ki, bu işdə görkəmli maarifçilərdən Səməd bəy Acalov, Mahmudbəy Mahmudbəyov, Fərhad Ağazadə, Cəmo bəy Cəbrayılbəyli, Ağa bəy İsrafilbəyov, Abdulla Şaiq, Hüseyn Cavid, Abdulla bəy Əfəndizadə, Qafur Rəşad Mirzəzadə, Axund Yusif Talıbzadə, Firidun bəy Köçərli və başqalarının xidmətləri vardı.

Qafur Rəşad XX əsrin əvvəllərində Azərbaycanın mədəni və ictimai həyatında fəal iştirak etmiş, dövri mətbuatda müxtəlif sosial problemlərə dair publisist məqalələrlə çıxış etmişdir. Qafur Rəşadın 1908-ci ildə nəşr edilən "Ayineyi-millət" əsərində siyasi süstlüyün, mütiliyin tənqidi, milli dirçəlişə çağırış ideyası əks olunur, maarifçilik əsarətdən qurtuluş vasitəsi hesab olunurdu.

Qafur Rəşad 26 noyabr 1943-cü ildə vəfat etmişdir.

## Qantəmir



**Qafur Əfəndizadə Qantəmir** – görkəmli maarif xadimi, pedaqoq, yazıçı.

Qafur Sədrəddin oğlu Əfəndizadə 1888-ci ildə Azərbaycanın Göyçay şəhəri yaxınlığında Potu kəndində doğulub. İbtidai təhsilini mədrəsədə, orta təhsilini dövrün mütərəqqifikirli, maarifpərvər ziyalılarından İbrahim Həqqinin yeni üsulda açdığı rus-müsəlman məktəbində alıb. Qafur Əfəndizadə 1914-cü ildə İstanbul Universitetinin tarix-filologiya fakültəsini, 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsini bitirmişdir.

Qantəmir Ağdaş, Göyçay rayonlarında müəllimlik etmiş, bir müddət Göyçayda "İqbal" məktəbinin müdiri olmuşdu. Məhz həmin vaxtlar "Təzə həyat", "Tərəqqi" və s. qəzetlərdə elmi-pedaqoji məqalələrlə mütəmadi çıxış edən Qafur Əfəndizadənin Mirzə Ələkbər Sabir və Abbas Səhhətlə şəxsən tanışlığı və görüşləri ona ciddi təsir bağışlamışdı. O, 1916-cı ildə "Nəşri-maarif" cəmiyyətinin dəvəti ilə Qubaya gedib yeni üsullu məktəbin açılmasında iştirak edir, həmin məktəbdə əvvəlcə müəllim, sonralar müdir kimi fəaliyyət göstərir. Qantəmir bir neçə il Bakı Ali Pedaqoji İnstitutu nəzdində fəaliyyət göstərən Şaiq Nümunə Məktəbinə rəhbərlik etmişdir.

Qantəmir "Molla Nəsrəddin" ədəbi məktəbinin ənənələri əsasında hekayələr qələmə almaqla Azərbaycan sovet satirik nəsrinin təşəkkülünə müəyyən təsir göstərmişdir. O, bədii yaradıcılığa 1920-ci illərin ortalarından başlamış, qələmini



əsasən satira janrında sınamışdır. Qantəmir "Ağıl dəryası", "Şarlatanlar", "Kolxozıstan" kitablarının müəllifidir. Onun "Buğda quyusu", "Hacı Qambay", "Mirzə Aves", "Vəsiyyət", "Zeynəb Tükəzbanova", "Nisə xala" və başqa hekayələrində yeni həyat tərənnüm olunur, ictimai tərəqqiyə mane olan köhnəlik və azadlıq düşmənləri kəskin satira atəşinə tutulur. Qantəmir xalq maarifi sahəsində işləmiş, Göyçayda müəllim hazırlamaq üçün qısamüddətli pedaqoji kurslar təşkil etmişdir. Müəllim, yazıçı olan Qantəmir diş həkimi kimi də həmvətənlərinə xidmət göstərib. Bütün fəaliyyəti müddətində əsl vətəndaş yanğısı ilə xalqın maariflənməsinə çalışan Qantəmir, həm də millətin mənəvi və fiziki sağlamlığı yolunda öz xidmətlərini əsirgəməyib.

Qantəmir 1939-cu ildə həbs olunaraq, Orta Asiyaya sürgün edilmişdir. Sağlığında bir neçə kitabı işıq üzü görən Qantəmir ölkəni bürümüş repressiyalardan çəkdiyi mənəvi əzablar nəticəsində 1944-cü ildə, 56 yaşında dünyasını dəyişmişdir.

## Rəşid bəy Əfəndiyev



**Rəşid bəy Əfəndiyev** – pedaqoq, maarifçi, yazıçı.

Azərbaycan maarifçilik ənənəsinin görkəmli davamçısı, dövrünün qabaqcıl ziyalılarından olan Rəşid bəy Əfəndiyev 1863-cü ildə Şəki-də (Nuxada) ruhani ailəsində ana-dan olmuşdur. Kiçik yaşlarında mollaxanada təhsil alan Rəşid bəy 1873–1878-ci illərdə Nuxa qəza

məktəbində təhsilini rus dilində davam etdirmişdir. 1878-ci ildə Rəşid bəy Zaqafqaziya Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsinə daxil olmuşdur. Azərbaycanın maarifpərvər ziyalılarının yetişməsində böyük rol oynamış, Zaqafqaziya Qori Müəllimlər Seminariyasının ilk məzunlarından olan və Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunu bitirən Rəşid bəy Əfəndiyev bütün ömrünü pedaqoji işə həsr etmişdir.

Rəşid bəy Əfəndiyev 1888–1890-cı illərdə Nuxa bölgəsi ətrafında, Xaçmaz kəndində yeni məktəb yaradaraq orada ana dilini və rus dilini tədris edir. 1892-ci ildə onu Tiflis şəhərindəki müsəlman məktəbinə müəllim vəzifəsinə göndərirlər. Rəşid bəy müəllimliklə yanaşı, həm də Qafqaz Müsəlmanları Ruhani İdarəsində katib müavini, müftinin "Ömər məktəbi"ndə müəllim kimi fəaliyyət göstərir.

Rəşid bəy Əfəndiyev M.F.Axundzadədən sonra ilk dramaturqlardan hesab edilir. Əsərinin müvəffəqiyyətindən ruhlanan müəllif sonralar da ardıcıl olaraq bədii yaradıcılıqla məşğul olmuşdur. On il Qutqaşendə müəllimlik etdiyi, 8 il Tiflis Dini İşlər İdarəsində katib müavini vəzifəsində çalışdığı və nəhayət, 16 il Qori seminariyasında müəllim olduğu zamanlarda heç vaxt yazıçılıqdan uzaqlaşmamış, xüsusilə təlim-tərbiyəyə aid səhnə əsərləri yazmağa səy etmişdir. Rəşid bəy Azərbaycanın məşhur və çalışqan müəllimlərindən idi. Ömrünü məktəb, tərbiyə işinə, dərs kitablarının, uşaqların marağını oxşayan pyeslərin yaranmasına sərf edirdi. Onun "Uşaq bağçası" adlı əlifba kitabı və "Bəsirətül-ətfal" adlı qiraət kitabı Azərbaycanda şöhrət qazanmış ilk dərs kitablarındandır. O, dəfələrlə İstanbula gedir, hazırladığı dərs kitablarını çox böyük əziyyətlər hesabına çap etdirirdi.

Bununla yanaşı, o, səhnə əsərləri yazır, bunların, ilk növbədə, məktəb səhnələrində qoyulmasını təşkil edir, hətta şəxsən özü aktyor kimi tamaşalarda iştirak edirdi. Rəşid bəyin "Qan ocağı"ndan başqa, "Saqqalın kəraməti", "Qonşu-qonşu olsa, kor qız ərə gedər", "Pul dəlisi", "Bir saç telin qiyməti", "Tiflis səfirləri", "Diş ağrısı", "Təbiətdə əhvali-məişət" adlı dram əsərləri vardır.



Rəşid bəy elmi, maarifi, məktəbi təbliğ edən bir sıra mənzumələr yazmış, Puşkin, Lermontov, Krılov, Şiller kimi rus və Avropa klassiklərindən dərs kitablarına münasib parçalar seçib tərcümə etmişdir. Eləcə də, dilimizə farscadan Firdovsinin "Rüstəm və Söhrab" əhvalatını tərcümə etmişdir.

Görkəmli maarif xadimi seminariyadakı səmərəli xidmətlərinə görə Qafqaz Təhsil Dairəsi tərəfindən medalla təltif olunmuş, 1916–1917-ci illərdə isə İrəvan Quberniyası Xalq Məktəblərinin inspektoru vəzifəsinə təyin edilmişdi. O, burada qəza və üsuli-cədid məktəblərində təlim-tərbiyə işlərinə, tədrisin keyfiyyətinə nəzarət etməklə yanaşı, eyni zamanda qısamüddətli ixtisasartırma kursları təşkil etmişdi.

1917-ci ildə Tiflis Mərkəzi İdarəsinin rəisi Həmid bəy Şahtaxtinski Rəşid bəyə xüsusi məktubla müraciət edərək Naxçıvanda və Ordubadda müəllimlik kurslarının təşkil edilməsinə yardımçı olmasını xahiş edir. Rəşid bəy 1918-ci ildə Qazax seminariyasına direktor təyin olunur. Həmin ildə o, Bakı şəhərinə dəvət alaraq, xalq maarifi sahəsində tədbirlərin həyata keçirilməsi işinə cəlb edilir. Rəşid bəy Bakı Kişi Seminariyasının direktoru vəzifəsində işləməklə yanaşı, Maarif Nazirliyi yanında əlifba komissiyasının tərkibində latın qrafikasına keçmək üçün təqdim olunmuş layihələrin müzakirəsində fəal iştirak edir.

Rəşid bəy Əfəndiyev 1942-ci ildə dünyasını dəyişmişdir.

## Şəfiqə Əfəndizadə



**Şəfiqə Əfəndizadə** – ilk maarifpərvər Azərbaycan qadınlarından biri, pedaqoq, publisist, yazıçı, Cənubi Qafqazın ilk qadın jurnalisti.

Şəfiqə Əfəndizadə 1882-ci ildə Axalsik rayonunun Azqur kəndində tanınmış pedaqoq Məmmədəmin Şeyxzadənin ailəsində anadan olmuşdur. O, ilk təhsilini atasından almışdır. Hələ 1896-cı ildə 14 yaşında ikən o, Nuxa şəhərində şəxsi qadın məktəbində dərs demişdir. 1901-ci ildə Tiflisdə Zaqafqaziya ruhani idarəsində müəllimlik attestatı almış və həmin ildən məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə, Azərbaycan qadın təhsili tarixində ilk dəfə olaraq, Bakı şəhərində yenicə yaradılmış rus-müsəlman qadın məktəbində ana dilindən dərs deməyə başlamışdır. Həmin məktəbdə Şəfiqə Əfəndizadə 1910-cu ilə kimi fəaliyyət göstərmişdir. 1910-cu ildən 1920-ci ilədək o, şəhər rus-tatar qadın məktəbinin müəllimi olmuşdur. 1915-ci ildən o, həmçinin qadın pedaqoji məktəbindəki pedaqoji kurslarda da dərs demişdir.

Şəfiqə Əfəndizadə publisist kimi fəaliyyətinə ilk dəfə 1903-cü ildə "Şərqi-rus" qəzetində başlamışdır. Sonralar o, "Dəbistan", "Məktəb", "Füqara füyuzatı", "Dirilik" jurnalları və "Açıq söz" qəzeti ilə əməkdaşlıq etmiş və tərbiyə mövzusuna həsr edilmiş məqalələrini çap etdirmişdir. Eyni zamanda mətbuatda yazıçı kimi də çıxış etmiş, adları çəkilən nəşriyyatlarda bədii əsərlərini çap etdirmişdir. 1914-cü ildə onun yazdığı "İki yetim" povesti isə ayrıca kitab şəklində



"Kaspiy" tipoqrafiyasında nəşr olunmuşdur. 1916-cı ildə o, "Açıq söz" qəzetində Cəlil Məmmədquluzadənin "Ölülər" pyesinə ilk rəyi dərc etdirmişdir.

1923-cü ildə "Şərq qadını" jurnalı fəaliyyət göstərməyə başlayan andan Şəfiqə Əfəndizadə jurnalla fəal əməkdaşlıq etməyə başlamış, redaksiya heyətinin üzvü seçilmiş, jurnalın məsul katibi və bədii ədəbiyyat şöbəsinin müdiri olmuşdur.

Şəfiqə Əfəndizadə 1923-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdir. 1906-cı ildə o, Azərbaycan müəllimlərinin I qurultayının iştirakçısı olmuşdur. 1917-ci ildə Zaqafqaziya müsəlmanlarının I qurultayında iştirak edərək söylədiyi nitqində Şərq qadınlarının hüquqsuzluğundan danışmış, yeni məktəblərin, teatrların açılmasını tələb etmişdir.

Şəfiqə Əfəndizadə 1920-ci ildə Əli Bayramov klubunun təşkilində fəal iştirak etmiş və orada yaradılmış savadsızlığın aradan qaldırılması kurslarında dərs demişdir. 1920-ci ildən sonrakı dövrlərdə dəfələrlə Zaqafqaziyada, Qafqazda, Moskvada keçirilmiş qadınlar konfransında və qurultaylarında nümayəndə kimi iştirak etmişdir.

"Şərq qadını" onun haqqında belə yazmışdı: "Şəfiqə xanım bütün Zaqafqaziyada ilk Azərbaycan dili müəlliməsi və bununla yanaşı, ilk Azərbaycan qadın jurnalisti və yazıçısı olmuşdur" (1924-cü il, №1) Şəfiqə Əfəndizadənin şagirdləri içərisində respublikamızın görkəmli dövlət xadimi olan Azərbaycan SSR-nin maarif üzrə Xalq komissarı Ayna Sultanova və Azərbaycan Xalq şairi Mirvarid Dilbazi və başqalarını qeyd etmək olar.

Şəfiqə Əfəndizadə 1959-cu ildə Bakı şəhərində vəfat etmişdir. Hazırda Bakı şəhəri Yasamal rayonunun 13 nömrəli orta məktəbi Şəfiqə Əfəndizadənin adını daşıyır.

## Səməd bəy Acalov



**Səməd bəy Hacıəlizadə (Acalov)** – pedaqoq, maarif və tibb xadimi, tibb elmləri namizədi.

Səməd bəy Məmməd oğlu Hacıəlizadə 25 aprel 1876-cı ildə Tiflisdə anadan olmuşdur. O, ilk təhsilini ikisinifli müsəlman məktəbində almışdır. S.Acalov 1895-ci ildə Qori seminariyasını və 1926-cı ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. S.Acalov Azərbaycan dilində ilk riyaziyyat dərsliklərinin – "Rəhbəri-cəbr" və "Cəbr məsələləri məcmuəsi" dərsliklərinin müəllifidir. O həm də hesab, həndəsə, coğrafiya, təbiyyata dair bir sıra dərslikləri Azərbaycan dilinə tərcümə etmişdir.

S.Acalov 30 ilə yaxın həkim kimi fəaliyyət göstərmiş, bruselyoz xəstəliyinin klinikası və müalicəsi sahəsində tədqiqat aparmışdır. O, 1954-cü ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

Görkəmli alim şifahi xalq ədəbiyyatının toplanması və nəşri ilə də məşğul olmuşdur.

Səməd bəy Acalov 10 yanvar 1969-cu ildə vəfat etmişdir.



## Xəlil Fikrət Kanad



**Xəlil Fikrət Kanad** – Türkiyə yazıçısı və pedaqoqu.

Xəlil Fikrət Kanad 1892-ci ildə Yunanıstanda, o zaman türklərin sıx yaşadığı Manastrın Serfiçə qəsəbəsində Osman bəyin ailəsində anadan olmuşdur. Çox erkən – altıaylığında atası vəfat etmiş, ailənin bütün ağırlığı anasının üzərinə düşmüşdü. X.Fikrət doğma kəndlərində ibtidai təhsil almış, 10 yaşında Manastrda yeni açılan Sənət məktəbinə göndərilmişdi. Sənət məktəblərində tədris olunan fənlər o zamankı rüşdiyyələrdə – orta məktəblərdə öyrədilən fənlərlə, əsasən, eyni idi. Sənət məktəblərində əlavə olaraq dərzilik, pinəçilik, mürəttiblik öyrədilirdi. Türkiyədə orta məktəblərin son imtahanlarında uğur qazananlardan yaşca böyük olanlar Fransaya, kiçik olanlar isə Almaniyaya göndərilirdi. Almaniyadakı təhsil mühiti Xəlil Fikrətin görkəmli təhsil işçisi və bir alim kimi formalaşmağında mühüm rol oynamışdır. O, 1910–1912-ci illərdə Almaniya liseylərinin birində alman dilini mükəmməl öyrənmiş, əvvəlcə Berlin Universitetinin fəlsəfə, sonra Leyspiq Universitetinin pedaqoji fakültəsində təhsil almışdır. O, Türkiyədə pedaqogika sahəsi üzrə elmi dərəcə alan ilk alimdir.

Xəlil Fikrət 1923-cü ildə Azərbaycan Xalq Maarif Komissarlığının dəvətilə Bakıya gəlmiş, komissarlığın məktəbəqədər təhsil bölümünün rəhbəri təyin edilmişdir. Komissarlığın nəşriyyat şöbəsinə Xəlil Fikrətlə Bakıya gələn Mühiddin Birgün rəhbərlik edirdi. Xəlil bəy 1923–1926-cı

illərdə Bakı Dövlət Universitetində pedaqogika və psixologiya fənlərini tədris etmişdir. Bakıda işləyərkən onun ən böyük xidməti azərbaycanlı tələbələr üçün ilk dəfə olaraq ana dilində "Tədris və tərbiyə tarixi" adlı 2 cildlik dərslik yazması olmuşdur. Birinci cild 1924 və 1926-cı illərdə, ikinci cild isə, 1926-cı ildə Azərnəşr tərəfindən çap edilmişdir. Xəlil Fikrət, həmçinin Bakıda işləyərkən "Coğrafiyanın tədris üsulu" adlı kitab yazmışdır. Bakıda nəşrinə nail ola bilmədiyi həmin kitabı o, 1927-ci ildə bəzi əlavələrlə Türkiyədə nəşr etdirmişdir.

1926-cı ildə Xəlil Fikrət Odenvald məktəbinin təcrübəsini öyrənmək üçün Almaniyaya gedir. Təhsil uğurlarına görə həmin məktəb nəinki Almaniyada, həm də Avropada məşhur idi. Böyük istək və arzularla yaşayan Xəlil Fikrət öyrəndiyi təcrübəni tətbiq etmək üçün Bakıya qayıtmaq istəsə də, sovet hökuməti ona Azərbaycana gəlməyə viza vermir. O, 1927-ci ildə Almaniyadan Türkiyəyə dönmək məcburiyyətində qalır.

Xəlil Fikrət öz dövründə Azərbaycanda və Türkiyədə ən çox yazan və məqalələri nəşr olunan pedaqoq alimdir. O, on beşə qədər kitab və kitabça, bir sıra dərs vəsaitlərinin müəllifidir. Xəlil Fikrətin Bakıda "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Məktəb", "Maarif işçisi", "Yeni məktəb" və Türkiyə də "Tərbiyə", "Karınca", "Hayat" kimi mətbuat orqanlarında onlarla məqaləsi dərc olunmuşdur.

X.F.Kanad 1974-cü ildə Ankarada vəfat etmişdir.



## Mahmud bəy Mahmudbəyov



**Mahmud bəy Mahmudbəyov** – maarif və mətbuat xadimi, publisist.

Mahmud bəy Polad bəy oğlu Mahmudbəyov 1863-cü ildə Şamaxı şəhərində bəy ailəsində anadan olmuşdur. İbtidai təhsilini məhəllə məktəbində almış, 1874-cü ildə doğulduğu şəhərdəki Məclis məktəbində təhsilini davam etdirmişdir. 1879-cu ildə o, Qori müəllimlər seminariyasının hazırlıq sinfinə daxil olmuş, 1883-cü ildə oranı bitirmişdir. Mahmud bəy seminariyanı bitirdikdən sonra bir neçə il Bərdə, Tərtər, Şamaxı şəhərlərində müəllimlik etmiş, 1890-cı ildə Bakıya köçmüş, 1897-ci ilə qədər Sabunçu ikisinifli məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir. 1897-ci ildə Bakı şəhəri 2-ci Rus-müsəlman məktəbində müəllimlik etmiş. Mahmud bəy 1898-ci ildən 3-cü Rus-müsəlman məktəbində müdir olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin mədəni-maarif həyatında yaxından iştirak etmiş, 1919-cu il yanvarın 16-da maarif naziri Nəsib bəy Yusifbəylinin əmri ilə Bakı quberniyası xalq məktəblərinin 4-cü rayonu üzrə inspektor vəzifəsinə təyin olunmuş Mahmud bəy Mahmudbəyov nazirliyin təşkil etdiyi əlifba komissiyasının işində fəal iştirak etmişdir.

Təhsilin milliləşdirilməsi, demokratikləşməsi, xalq həyatına yaxınlaşması, milli mənlik şüurunun oyanması uğrunda mübarizə görkəmli pedaqoqun fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. XX əsrin əvvəllərində milli-mənəvi həyatda milliləşmə prosesi başlanarkən M.Mahmudbəyov Qafqaz müsəlman müəllimlərinin 1-ci və 2-ci qurultaylarında tədris-

pedaqoji ədəbiyyatın yaradılmasına rəhbərlik etmişdir. O, "Birinci il Müsəvvər türk əlifbası" (1907), "İkinci il" (1908; S.Əbdül-Rəhmanbəyzadə və S.S.Axundovla birgə) "Yeni məktəb" (1909; Abbas Səhhətlə birgə), "Türk ədəbiyyatına ilk qədəm" (1914; Abbas Səhhətlə birgə) dərsliklərini yaratmış, milli məktəb tarixində yeni mərhələnin təməlini qoyanlardan biri olmuşdur.

Mahmud bəy Mahmudbəyov məktəbdə və mətbuatda yazı qaydalarını nizama salmaq və vahid orfoqrafiya prinsipi yaratmaq məqsədilə "İmlanuz" (1911) əsərini yazmışdır. O, milli bədii və pedaqoji ədəbiyyatın sağlam inkişafına xüsusi diqqət yetirmiş, ədəbiyyatdan, üsuli-təlim və tərbiyədən bəhs edən "Rəhbər"(1906–1907) adlı jurnal nəşr etmiş, "Maarif" (1922) uşaq jurnalının redaktorlarından biri olmuşdur.

Mahmud bəy Mahmudbəyovun fəaliyyətində xalq ədəbiyyatının toplanması, nəşri və təbliği məsələləri aparıcı yer tutmuşdur. O, ədəbiyyat tarixi materiallarının toplanıb tədqiqi məsələsini irəli sürmüş, ("Ədəbiyyatımıza dair", 1906), xalq ədəbiyyatı nümunələrini toplayıb nəşr etdirmiş ("Zaqafqaziya türklərinin poeziyasından", "Molla Qasım nağılı", "Abbas və Gülgəz"), "Hophopnamə"nin birinci və ikinci çapının (1912–1914) fəal təşkilatçılarından olmuşdur.

Mahmud bəy Mahmudbəyov 1923-cü ildə dünyasını dəyişmişdir.



## Sultan Məcid Qənizadə



**Sultan Məcid Qənizadə** – maarif xadimi, yazıçı, tərcüməçi, filoloq.

Sultan Məcid Qənizadə 1866-cı ilin aprel ayında Şamaxıda tacir Hacı Murtuzəli kişinin ailəsində dünyaya gəlmişdir. Sultan Məcidin ulu babası Ağa Məsih Şirvani Şamaxının tanınmış şairlərindən olmuşdur. Ədibin bəzi məqalələrində "Məsihzadə" imzası ilə yazması da bu varisliyə işarədir. İlk təhsilini Seyid Əzim Şirvaninin "Məclis" məktəbində və Şamaxı şəhər məktəbində almış Sultan Məcid 1883-cü ildə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuş, burada oxuduğu illərdə gürcü sosial-demokrat dərnəkləri ilə əlaqə saxlamışdır. O, 1887-ci ildə institutu bitirib Bakıya gəlmiş, Həbib bəy Mahmudbəyovla birlikdə yenitipli ilk rus-müsəlman (Azərbaycan) məktəbi açmışdır. 1905-ci ildə Qori seminariyası müsəlman (Azərbaycan) şöbəsinin müfəttişi, 1908-ci ildə Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblərinin 2-ci rayonu üzrə müfəttiş, 1917-ci ildə isə vilayət xalq məktəblərinin direktoru təyin olunmuşdur. Sultan Məcid 1917-ci ildə bütün müsəlmanların birliyini təbliğ edən İttihad partiyasının təşkilatçılarından olmuşdur. O, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının üzvü seçilmiş, ilk milli dövlətin quruculuq işlərində və Parlament iclaslarında fəal iştirak etmiş, 1919-cu ilin avqustunda Parlamentin sədr müavini seçilmişdir. S.M.Qənizadə 1920–1925-ci illərdə Azərbaycan SSR Xalq Maarif Komissarlığında dərslik və

sinifdənkənar oxu materialı hazırlayan şöbənin müdiri, 1925–1929-cu illərdə Bakı şəhər xalq maarifı idarəsində inspektor, pedaqoji təcrübə məşğələlərinin rəhbəri olmuş, hərbi məktəbdə və sənaye institutunda dərs demişdir.

Azərbaycanda ana dilində məktəblər açılması, dərsliklər yazılması, milli mətbuat və teatrın inkişafında Qənizadənin xidmətləri var. 4 hissədən ibarət "Samouçitel tatarskoqo yazıka" ("İstilahi Azərbaycan" (h. 1-2, 1890), "Lüğəti-rusi və türki" (h. 3, 1891), "Rus dilinin dilmancı" (h. 4, 1894)), "Samouçitel russkoqo yazıka" (1896), "Kəlidi ədəbiyyat" (1900, Ə. Cəfərzadə ilə birlikdə), "Lüğəti-türki və rusi" (1904) və s. əsərlərin müəllifidir. Qənizadə bədii yaradıcılıqla da müntəzəm məşğul olmuşdur. Çar senzurası tərəfindən qadağan olunan "Qönçə xanım" (1891) faciəsi hələlik tapılmamışdır. "Məktubati-Şeyda bəy Şirvani" (1898–1900) dilogiyası ("Müəllimlər iftixarı" və "Gəlinlər həmayili"), "Allah xofu" (1906), "Qurban bayramı" (1907) və s. hekayələrində xalqın ağır həyatı təsvir olunur, ictimai ədalətsizlik, cəhalət və mövhumat tənqid edilir. Qənizadənin "Axşam səbri xeyir olar", "Dursunəli və Ballıbadı", "Xor-xor", "Yadımdadır" və s. vodevilləri Azərbaycan teatr truppalarının repertuarında mühüm yer tutmuşdur. "Tülkü və Çaq-çaq bəy" (1893) mənzuməsi Azərbaycan uşaq ədəbiyyatının ilk nümunələrindəndir. S.M.Qənizadə "Həyat", "İrşad", "Dəbistan", "Rəhbər", sonralar "Maarif və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi qəzet və jurnallarda publisistik və pedaqoji məqalələr dərc etdirmişdir. O, 1918–19-cu illərdə "İttihad" partiyasının üzvü olmuşdur. Sovet hakimiyyəti illərində Sultan Məcid xalq maarifi sahəsində fəaliyyətini davam etdirmiş, respublika Xalq Maarif Komissarlığının müfəttişi, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin məsul katibi vəzifələrində çalışmış,



M.Ə.Sabir, N.Nərimanov, H.Ərəblinski haqqında xatirələrini yazmışdır. Sultan Məcid rus ədəbiyyatından (L.N.Tolstoyun "Əvvəlinci şərabçı", V.A.Djaçenkonun "Qurbana qurban" pyesləri, A.F.Poqosskinin "Allah divanı", "Nəbəkar qonşu" hekayələri və s.) tərcümələr etmişdir.

Məlumdur ki, Hüseyn Ərəblinski 1898-ci ildə, ilk dəfə məhz Sultan Məcid Qənizadənin rejissorluğu ilə hazırlanmış "Vəziri xani-Lənkəran" komediyasının tamaşasında Mehtər Kərim rolunu oynamışdır. Sultan Məcid həm rejissor, həm də dramaturq kimi fəaliyyət göstərmişdir. 1894-cü ildə o, Lev Tolstoyun "Əvvəlinci şərabçı" pyesini tərcümə etmiş, həmin ilin may ayında Bakıda tamaşaya qoymuşdur ki, bu da Azərbaycan səhnəsi tarixinə rus dramaturgiyasının ilk tamaşası kimi daxil olmuşdur. Rus ediblərindən etdiyi tərcümələrlə yanaşı, Sultan Məcid xalq nağılları əsasında uşaqlar üçün mənzum hekayələr yazmışdır.

Sultan Məcid Qənizadə böyük jurnalist idi. Qori müəllimləri seminariyasında işlədiyi müddətdən mətbuatda müntəzəm çıxış edən Sultan Məcid ən çox "Dəbistan" jurnalında çap olunurdu. O, Nəriman Nərimanovla yaxından dostluq etmiş və əqidə yoldaşı Həbib bəy Mahmudbəyovla birlikdə maarifpərvər bir mətbuat orqanı açmaq fikrində olmuşdur. 1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının yaranışını alqışlayan və buna çox sevinən ziyalılarımızdan biri məhz Sultan Məcid Qənizadə olmuşdu.

Sultan Məcid Qənizadə 1937-ci ildə, 72 yaşında həbs edilərək "xalq düşməni" kimi güllələnmişdir.

## Hacı Səlim Səyyah



**Hacı Səlim Səyyah** – maarif xadimi, pedaqoq, şair.

Hacı Səlim Qasım oğlu Qasımzadə 1869-cu ildə Vilnüsdə ziyalı ailəsində anadan olmuşdur. İlk təhsilini o, 1883–1885-ci illərdə Vilnüsdə rus dilində almışdır. Hacı Səlim Səyyah 1885–1887-ci illərdə İstanbulda türk və fars dillərində ibtidai, 1887–1900-cü illərdə Misirdə "Cameyi-əzhər"də ərəb dilində orta təhsil almışdır.

Hacı Səlim Səyyah 1906–1907-ci illərdə Bakıda "Nəşri-maarif" cəmiyyətinin təşkil etdiyi ikiillik pedaqoji kurslarda dinləyici olmuş, ibtidai məktəb müəllimi hüququ qazanmışdır. İstanbulda təhsil aldığı illərdə o, mühacir komissiyasında işləmiş, Robert Lens adlı bir səyyahın yanında xidmətə başlamış, Türkiyə, Rusiya, Misir, Hindistan və Bolqarıstan, Ərəbistan, Afrika ölkələrinə səyahət etmişdir. Hacı Səlim Bombey şəhərində ingilislərin təşkil etdiyi "Ölüm qəhvəsi" cəmiyyətinə yazılmış, mason lojasının üzvü olmuşdur. Səyahətinin ilk çağlarında Ərəbistanda muzdlu hərbi xidmətə qəbul olunmuş, dağıstanlı Məhəmməd paşanın komandası altında ərəb üsyanının yatırılmasında iştirak etmişdir.

Hacı Səlim Səyyah dörd il Qahirənin "Əl-Əhzəd" Universitetində oxumuş, Suriyada "Sehr-ül-hilayə" adlı kitabı çıxmışdır. 1900-cü ildə Bakıya qayıdan şair "Nəşri-maarif" xeyriyyə cəmiyyətində 1 nömrəli məktəbin direktoru olmuşdur. 1913-cü ildə vəsait olmaması üzündən məktəblər şəhər idarəsinin ixtiyarına keçərkən, Hacı Səlim 9-cu Rus-müsəlman məktəbinə müəllim təyin edilmişdir.

1915-ci ildə "Məktəb" adlı mətbəə açan Səyyah 1915–1917-ci illərdə 20-dək şeir və nəsr kitablarını çap etdirmişdir.



Hacı Səlim 1917-ci ildə Anadolu hərbçilərindən bəhs edən ilk kitabını, "Qardaş köməyi" toplusunda isə "Hamı ağlayır, mən də ağlayıram" şeirini dərc etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə şəhər 3-cü türk məktəbində ana dili, nəğmə, idman müəllimi işləmişdir.

Hacı Səlim zəngin ədəbi irs yaratmışdır. Pedaqoq-şair "Korlar məktəbi" (1915), "Küçə uşaqları" (1916), "Bahar" (1916), "Xəzan" (1916), "Buzsındıran" (1917), "Eşq" (1917), "Suri-İsrafil" (1917), "Şeyx və intiligent" (1917), "Ənuşiravanın nəsayihi", "Həyyə-əla-xeyrül-əməl", "Siratəl-müstəqim", "Məkkə xatiratım", "Mey, məşuqə və qumar, yaxud bir əyyaşın macərası", "Hesab əyləncələri" və s. əsərlərin müəllifidir.

Hacı Səlim Səyyah 1943-cü ildə Bakıda dünyasını dəyişmişdir.

## Hüseyn Cavid



**Hüseyn Cavid** – dramaturq, şair.

Hüseyn Abdulla oğlu Rasizadə 24 oktyabr 1882-ci ildə Naxçıvanda anadan olmuşdur. Ruhani ailəsində dünyaya gələn Cavid ibtidai təhsilini Naxçıvanda mollaxanada, orta təhsilini 1894–1898-ci illərdə M.T.Sidqinin "Məktəbi-tərbiyə" adlı yeniüsullu məktəbində almışdır. "Gülçin" və "Salik" imzaları ilə klassik üslubda qələmə aldığı ilk şeirlərini o burada yazmışdır. Hüseyn Cavid 1899–1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin Talibiyyə mədrəsəsində

təhsilini davam etdirmişdir. 1906–1909-cu illərdə o, İstanbul Universitetinin ədəbiyyat şöbəsində təhsil almışdır.

Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan romantik ədəbiyyatının banilərindən biri olmuşdur. H.Cavid lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. "Keçmiş günlər" adlı ilk şeir kitabı 1913-cü ildə, "Bahar şəbnəmləri" adlı ikinci şeir kitabı 1918-ci ildə çap olunmuşdur. "Öksüz Ənvər", "Çoban türküsü", "Kiçik sərsəri", "Dün və bu gün", "Qadın", "Görmədim", "Vərəmli qız" və s. şeirlərində mülkədar-burjua quruluşunun ədalətsizliyi, əməkçi insanların faciəli həyatı təsvir edilir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı manerası, forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid Teatrı" kimi səciyyələndirilmişdir. Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır. Hüseyn Cavid "Ana" (1910) adlı ilk mənzum pyesin, "Maral" (1912), "Şeyx Sənan" (1914), "Şeyda" (1917), "İblis" (1918), "Peyğəmbər" (1922), "Topal Teymur" (1925), "Səyavuş" (1933), "Xəyyam" (1935) kimi məşhur dram əsərlərinin müəllifidir.

Hüseyn Cavid, həmçinin pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, Naxçıvanda, Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Dramaturq, həmçinin dövrün görkəmli maarif xadimləri ilə birgə çalışaraq bir çox dərsliklərə müəlliflik etmişdir.



Stalin rejimi Hüseyn Cavidi repressiyaya məruz qoymuş, 1937-ci il iyun ayının 4-də H.Cavidi öz evindən, yazı masasından, şeirindən, ədəbiyyatdan və həyatından birdəfəlik qoparıb Sibirə sürgün etmişdir. Görkəmli dramaturq 1941-ci il dekabr ayının 5-də İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko kəndindəki əlillər xəstəxanasında uzun sürən xəstəlik nəticəsində dünyasını dəyişmişdir.

Hüseyn Cavid 1956-cı ildə bəraət alsa da, ona əsl bəraət 1981-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən verilmişdir. Heydər Əliyev Hüseyn Cavidin 100 illik yubileyinin qeyd edilməsi haqqında qərar qəbul etmiş və bu qərara əsasən, ədibin Sibirdəki məzarı tapılmış, nəşi vətənə gətirilmişdir.

## Fətulla Rzabəyli



**Fətulla Rzabəyli** – maarif xadimi, pedaqoq, professor, Əməkdar elm xadimi.

Fətulla Əziz oğlu Rzabəyli 1885-ci ildə Bakı şəhərində neftçi ailəsində anadan olub. İbtidai təhsilini rus-tatar məktəbində, orta təhsilini I kişi gimnaziyasında alıb. Gimnaziyanı qızıl medalla bitirdikdən sonra 1908–1911-ci illərdə Novorossiysk Universitetinin (Odessa) fizika-riyaziyyat fakültəsinin təbiyyat şöbəsində təhsil alıb. Fətulla Rzabəyli 1912-ci ildə Odessa Tədris Dairəsində birillik pedaqoji kurs qurtararaq orta məktəblərdə təbiyyat müəllimi olmaq hüququ qazanır. Elə həmin gündən ömrünün sonuna kimi orta və ali məktəblərdə müəllim kimi çalışır, sıravi müəllimlikdən professor, kafedra müdiri və institut direktoru

vəzifələrinədək şərəfli bir yol keçir. Bir müddət Krasnodarda müəllim işlədikdən sonra, 1916-cı ildə Bakıya qayıdan Fətulla Rzabəyli Bakı şəhərindəki IV kişi gimnaziyasında pedaqoji fəaliyyətini davam etdirir. Az sonra Salyan şəhər realnı məktəbinə müdir təyin olunur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xalq Maarif Nazirliyinin orta məktəblər şöbəsinin müdirinin dəvəti ilə Bakıya gələn Fətulla Rzabəyli ölkədə həyata keçirilən təhsil islahatlarında fəal iştirak edib, məktəblərin milliləşdirilməsi ilə bağlı yaradılan xüsusi komissiyanın üzvü olub.

Fətulla bəy Rzabəylinin Azərbaycan ali pedaqoji təhsilin təşkilində və müəllim kadrları hazırlığında mühüm xidmətləri olub. Onun təşkil etdiyi pedaqoji kurslar Ali Pedaqoji İnstitutun yaradılmasında bünövrə-baza rolunu oynadı. 1920-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı ali pedaqoji təhsil müəssisəsinin təşkili ilə bağlı xüsusi təşkilat komissiyası yaratdı. Təşkilat komissiyasına pedaqoji kadr hazırlığındakı təcrübəsini nəzərə alaraq Fətulla bəy Rzabəyli sədr, Həbib bəy Mahmudbəyov və Rəhim Cəfərov üzv təyin edildi. Əməli kömək göstərmək məqsədilə komitənin tərkibinə Abdulla Şaiq Talıbzadə, Məmməd bəy Əfəndiyev, Sadıq Hüseynov da cəlb olundu.

Qadın təhsil və tərbiyəsinə xüsusi önəm verən Fətulla bəy Rzabəyli 1920-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığında işləyərkən bir neçə qadın kursu təşkil etmiş, özü də bir müddət orada mühazirə oxumuşdu.

Elmi-pedaqoji fəaliyyətdən, təhsil təşkilatçılığından ayrılmadan Fətulla bəy Rzabəyli həm də ali tibb təhsili alıb. 1928-ci ildə ADU-nun tibb fakültəsini bitirib, 1938–1942-ci illərdə həkim kimi fəaliyyət göstərib. 1942-ci ildə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Biologiya kafedrasının müdiri təyin olunub.

Prof. Fətulla bəy Rzabəyli 10 oktyabr 1968-ci ildə 83 yaşında Bakıda vəfat edib və Fəxri xiyabanda dəfn olunub.



## Məmməd Əfəndiyev



**Məmməd Əfəndiyev** – pedaqoq, riyaziyyatçı, professor, Əməkdar elm xadimi.

Məmməd Rəşid oğlu Əfəndiyev 5 oktyabr 1987-ci ildə Nuxada (Şəkidə) Azərbaycanın görkəmli maarifçisi Rəşid bəy Əfəndiyevin ailəsində anadan olub. 1908–1913-cü illərdə Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsində təhsil alıb. Ali təhsilini başa vurduqdan sonra qısa bir müddətdə Tiflisdə müəllimlik edib, sonra Azərbaycana qayıdaraq Nuxa gimnaziyasında pedaqoji fəaliyyətə başlayıb. ADR dövründə sovet hakimiyyətinin ilk illərində o, həmin gimnaziyanın milliləşdirilməsində yaxından iştirak edib, gimnaziyanın aşağı siniflərində bütün fənlərin, yuxarı siniflərdə isə riyaziyyat fənninin ana dilində tədrisinə nail olub. Həmin dövrdə yuxarı siniflərdə ayrı-ayrı ümumtəhsil fənlərindən dərs deyə biləcək milli kadrlar tapmaq çox çətin idi. Fizika və riyaziyyat üzrə cəmi üç nəfər alitəhsilli müəllim (Məmməd Əfəndiyev, Bəhram Mirzəyev, Rəhim Məlikov) var idi.

Azərbaycanın digər şəhərlərində olduğu kimi Nuxada da xeyli anadilli ibtidai məktəblər (I dərəcəli məktəblər) açılmışdı. Burada həm də bir kişi, bir qadın seminariyası və bir ibtidai nümunə məktəbi fəaliyyət göstərirdi. Müəllim kadrları hazırlığında ciddi çətinliklər var idi. İbtidai məktəblərdə dərs deyən müəllimlərin çoxunun pedaqoji savadı və metodik hazırlığı yox idi. Həmin müəllimləri pedaqoji cəhətdən hazırlamaq məqsədilə Məmməd Əfəndiyev Nuxada 3 aylıq müəllimlər kursunun açılmasının təşəbbüskarı oldu və həmin kursun idarə edilməsini öz öhdəsinə götürdü.

XX əsrin 20-ci illərinə kimi Azərbaycanda milli orta və ali məktəblər olmadığından bu dildə riyaziyyat kitabları (ibtidai məktəblər üçün nəzərdə tutulan "Hesab" dərslikləri istisnalıq təşkil edir) da olmamışdır. Ali məktəbdə riyaziyyatdan milli dildə mühazirə oxuyan Məmməd Əfəndiyev ilk dəfə olaraq riyazi terminlərindən istifadə və şərhində beynəlxalq terminologiyaya üstünlük verib. Riyazi ifadələrin Yaxın Şərqdə yayılmış yazılış formaları əvəzinə latınca yazılışını ilk dəfə M.Əfəndiyev işlədib. O, hesab, cəbr, həndəsə, triqonometriya fənləri üzrə formalaşdırdığı terminləri toplayaraq 1925-ci ildə kitab şəklində nəşr etdirib. Məhz onun və həmkarlarının elmi və metodiki yaradıcılığı nəticəsində Azərbaycanda riyazi terminologiya formalaşmağa başlayıb.

Məmməd Əfəndiyev 1 iyun 1977-ci ildə 89 yaşında Bakı şəhərində vəfat edib.



*Abdulla Şaiq, Qafur Əfəndizadə Qantəmir və Qafur Rəşad Mirzəzadə Şaiq Nümunə Məktəbi şagirdləri arasında. 1924-cü il*

*(AŞM O.F.127/D.K. 6752)*





*Abdulla Şaiq müəllim dostları və Şaiq Nümunə Məktəbinin məzunları arasında. 1958-ci il*

*(AŞM O.F.48/D.K.485)*

## Azərbaycan Xalq Cümhuriyyəti dönəmində təhsil

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ölkənin ictimai-siyasi, mədəni həyatını kökündən dəyişdirdi. İstiqlaliyyətini qazanmış gənc Azərbaycan dövləti özünün siyasətinə və iqtisadiyyatına müvafiq nəsil tərbiyə etməli idi. AXC-nin demokratik, humanist, milli məzmun kəsb edən maarif siyasəti maarifçilərin həyata keçirə bilmədiyi ideyaların gerçəkləşməsi üçün geniş imkanlar yaratdı. AXC hökumətinin Gəncə şəhərində verdiyi 28 avqust 1918-ci il tarixli ilk dekreti məhz məktəblərin milliləşdirilməsi haqqında idi. Birinci dəfə olaraq ana dili bərabərhüquqlu dil kimi elan edildi və azərbaycanlılar öz ana dilində oxumağın nəinki mümkün olduğunu, hətta zəruri olduğunu başa

düşdülər. Gənc müəllim Abdulla Şaiqin əsrin əvvəllərindən bəri məsləkdaşları ilə bərabər uğrunda mübarizə apardığı anadilli məktəbin 1918-ci ildə fəaliyyətə başlaması məktəb tariximizdə mühüm hadisə oldu.

Ölkədə təhsil quruculuğu özündə dünyəviliyi, tarixiliyi, milliliyi, varisliyi ehtiva edən məzmun və istiqamət baxımından başqa bir xarakter aldı. Təhsilin milli zəmin əsasında qurulması, milli dəyərlərin ümumbəşəri dəyərlər sistemində təbliğ edilməsi, müəllim yaradıcılığına təlimdə mütərəqqi metod və üsullara geniş imkan verilməsi, demokratik və humanist prinsiplərin ümumtədris işində, idarəçilikdə tətbiq edilməsi, şagirdlərin və valideynlərin təlim-tərbiyə işinin təşkilində iştirak etməsi məktəbin əsas fəaliyyət konsepsiyasını təşkil edirdi.

Təhsil tariximizə Şaiq Nümunə Məktəbi adı ilə daxil olmuş təhsil ocağı çox çətinliklə quruldu. Məktəb uşaqların məktəblərə cəlb edilməsi, proqram və dərsliklərin olmaması, uşaqların ana dilini bilməməsi, müəllim kadrların elmi-pedaqoji və metodiki səviyyəsinin aşağı olması, maddi-texniki bazanın çatışmaması, mürtəcefikirli müəllimlərin ana dilində yeni siniflərin açılması əleyhinə çıxması, onların azərbaycanlıları rus məktəblərinə cəlb etməyə çalışması kimi problemlərlə üzləşdi. Arxiv sənədləri göstərir ki, sadalanan bu və digər problemlərin həlli Azərbaycan Xalq Cümhuriyyəti Maarif Nazirliyinin daim diqqət mərkəzində olmuşdur. Belə ki, bu dönəmdə Türkiyədən (Osmanlı dövləti) dərsliklər gətirilmiş və müəllimlər dəvət edilmiş, müəllimlərin əməkhaqları artırılmış, ana dilini bilməyən uşaqlar üçün əlavə kurslar təşkil edilmişdi.

Sovet rejiminin yeni yaradılmış Xalq Maarif Komissarlığı elə ilk gündən ana dilində yeni sovet məktəbləri açmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirməyə başladı. Hər şeydən əvvəl açılacaq yeni və mövcud məktəblərin strukturu,



təlimin məzmunu və təşkili qaydaları ümumi şəkildə də olsa, müəyyənləşdirildi. Mövcud məktəblərdə bir sıra islahatların aparılması qərara alındı. Şaiq Nümunə Məktəbi də bu “islahatlardan” kənarda qalmadı. Elə sovet hakimiyyətinin ilk illərində məktəbdə təlim-tərbiyə işinin məzmunu dəyişməyə başladı. Tarix dərsliklərində tarixi faktlar, hadisələr dövrün tələblərinə uyğun işıqlandırıldı, ədəbiyyat dərslərinin məfkurə istiqaməti başqa səmt aldı. Məktəb iki yerə ayrıldı: aşağı şöbələr və aşağı siniflər birincidərəcəli doqquzuncu məktəb, üçüncü sinifdən etibarən isə ikincidərəcəli on ikinci məktəb adlandırıldı. On ikinci məktəb o zaman Fətulla Rzabəyli tərəfindən təməli qoyulmuş Ali Pedaqoji İnstitutun binasına köçürülərək institutun Nümunə məktəbinə çevrildi (İndiki İstiqlaliyyət küçəsi, Azərbaycan Dövlət İqtisad Universitetinin binası). Nümunə məktəbinin axırıncı sinif şagirdləri Pedaqoji Texnikumun əsas siniflərinə keçirildi. Lakin sovet hakimiyyəti illərində də məktəbin üzləşdiyi problemlər öz həllini tapa bilmədi. Türkiyədən gəlmiş müəllimlər öz vətənlərinə göndərildi, müəllim kadrlar, dərsliklər, metodiki vəsaitlər kifayət qədər olmadı. Hətta vəziyyət o yerə gəlib çatdı ki, Maarif Komissarlığı özünün 48 saylı 15.12.1923 tarixli qərarı ilə türk pedaqoji kadrların çatışmaması üzündən uyezdlərdə və rayonlarda Nümunə məktəblərinin təşkilinin dayandırılmasını məqsədəuyğun hesab etdi və nəhayət, 16 iyun 1926-cı ildə Nazirlər Kabinetinin qərarını yekdilliklə təsdiq etdi. Beləliklə, 760 nəfər şagirdin təhsil aldığı Şaiq Nümunə Məktəbinin fəaliyyətinə son qoyuldu.

Şaiq Nümunə Məktəbi az zaman ərzində fəaliyyət göstərməsinə baxmayaraq milli maarifin inkişafına təsir etmişdir. İllərdən bəri mövcud olan köhnə üsulla işləyən rus-azərbaycan məktəbləri yenidən qurulmuş, yalnız şəhərlərdə

deyil, hətta kənd rayonlarında da (Şəkidə, Salyanda) anadilli, yeni üsulla işləyən məktəblər yaradılmışdır. Ana dilində plan, proqram, dərslik və dərs vəsaitlərinin yaradılması üçün baza hazırlanmışdır. Təlim-tərbiyə işinin təşkilində demokratik və humanist dəyərlərin öyrədilməsi, ailə və məktəbin əlbir işi istiqamətində müəyyən ənənələr formalaşdı. Ən vacibi isə elmi-pedaqoji, metodiki biliklərə malik müəllimlər yetişdirilmişdir. Mövcudluğunun iki ilə yaxın bir hissəsini Azərbaycan Xalq Cümhuriyyəti dövründə, qalan altı ilə yaxın hissəsini isə sovet zamanında fəaliyyət göstərmiş Nümunə Məktəbi pedaqoji intibahın görkəmli nümayəndəsi A.Şaiq və onun həmkarlarının milli məktəb yaradılması ideyası uğrunda apardıqları mübarizənin təzahürü idi.

Məktəbin qurucusu Abdulla Şaiq yazırdı: "Milli vicdan milli məktəblərdə doğar. Məktəb və müəllimləri olmayan bir millət müəyyən bir sima və məfkurəsi olmayan bir cocuğa bənzər ki, öz xeyir və şərini düşünə, dost və düşmənini fərq edə bilməz. Cocuqlara özünü tanıdan, milli hisslərini, ruhlarını yüksəldən, onların dağ çeşmələri qədər saf və təmiz ürəklərində böyük bir məfkurə doğuran, gələcəkdə sevgili vətəni üçün ən dəyərli övlad yetişdirən və sarsılmaz bir qüvvət hazırlayan məktəblərdir".

**Məlahət Mürşüdlü**
Pedaqoji elmlər üzrə fəlsəfə doktoru



# Şaiqin tələbələri

## Adil Əfəndiyev



**Adil Əfəndiyev (Adil Nəcdət)** – jurnalist, tərcüməçi, Əməkdar mədəniyyət işçisi.

Adil Ələddin oğlu Əfəndiyev 30 oktyabr 1907-ci ildə Gürcüstan Respublikasının Axaltsixe rayonunun Asğuri kəndində anadan olmuşdur. O, 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə hələ tələbə ikən başlamış A.Əfəndiyev 1924-cü ildə "Kəndli qəzetəsi"nin katibi, 1925–1939-cu illərdə Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr"də orfoqraf, tərcüməçi, redaktor, şöbə müdiri vəzifələrində çalışmışdır. O, 1939–1953-cü illərdə Azərbaycan Radio Verilişləri Komitəsində baş redaktor, sədrin birinci müavini və sədr vəzifələrində də işləmişdir. 1954–1964-cü illərdə Azərbaycan Dövlət Nəşriyyatının müdiri, 1964–1972-ci illərdəAzərbaycan SSR Jurnalistlər İttifaqının ilk sədri olmuşdur. 1972–1973-cü illərdə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda tərcümə bölməsinin müdiri seçilən Adil Nəcdət Nizami Yubiley Komitəsinin məsul katibi və sədr müavini, terminoloji komitənin, toponimika komissiyasının, Azərbaycan Sovet Ensiklopediyası baş redaksiyasının üzvlərindən biri idi.

A.Əfəndiyev bir çox bədii, siyasi əsərlərin, o cümlədən K.Marks, F.Engels, V.İ.Lenin, Ö.Xəyyam, İ.S.Turgenyev, L.Tolstoy, M.Tven, C.Oldric, A.S.Puşkin və başqalarının əsərlərinin, tarix və coğrafiya dərsliklərinin Azərbaycan dilinə tərcüməçisi və tərcümələrinin redaktoru olmuşdur. A.S.Puşkin nəsrininAzərbaycan dilinə ilk tərcüməçisi olmuşdur. ("Belkinin hekayələri", 1929-cu il).



1920–1930-cu illərdə "Adil Nəcdət" təxəllüsü altında mətbuatda şeirlər dərc etdirmişdir. O, 1925-ci ildən "Qızılqələmlər" İttifaqının katiblərindən biri, 1927-ci ildən isə Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin üzvü olmuşdur. 1940–1946-cı illərdə nəşr edilən rusca-azərbaycanca dördcildlik və 1956–1959-cu illərdə nəşr edilən ikicildlik lüğətlərin tərtibçisi və redaktoru olmuş Adil Nəcdət, həmçinin 1930-cu ildə nəşr olunmuş "Azərbaycan türk xalq ləhcələri lüğətinin" yaranmasında iştirak etmişdir.

Adil Nəcdət Bakı Sovetinin 6 çağırış deputatı seçilmişdir. "Şərəf Nişanı" ordeni, 4 medal, Azərbaycan SSR Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olunmuşdur. A.Əfəndiyev Azərbaycan SSR Xalq maarif əlaçısı, Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi fəxri adlarına layiq görülmüşdür.

Adil Nəcdət 1973-cü ildə Bakı şəhərində vəfat etmişdir. Fəxri xiyabanda dəfn edilmişdir.

## Azad Əfəndizadə



**Azad Əfəndizadə** – Azərbaycan EA-nın akademiki, Əməkdar elm xadimi.

Azad Əli oğlu Əfəndizadə 1907-ci il martın 20-də Şamaxı şəhərində anadan olmuşdur. O, 1931-ci ildə Leninqrad Politexnik İnstitutunu bitirmişdir. Adil Əfəndizadə 1945-ci ildə texnika elmləri namizədi, 1952-ci ildə texnika

elmləri doktoru elmi dərəcələrini, 1953-cü ildə professor elmi adını almış, 1969-cu ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

A.Əfəndizadə 1941–1944-cü illərdə Azərbaycan EA Kirovabad Elmi-Tədqiqat Bazasında direktor, 1952–1960-cı illərdə Elmi-Tədqiqat Energetika İnstitutunun direktor müavini və direktoru olmuşdur. Alim 1960-cı ildən həmin institutun idarəolunan elektrik intiqalları laboratoriyasına rəhbərlik etmişdir.

A.Əfəndizadə Azərbaycan dilində texniki terminologiya sahəsində də fəaliyyət göstərmiş, avtomatik idarəetmə üzrə SSRİ Milli Komitəsinin Azərbaycan yerli şöbəsinin sədri, Beynəlxalq Avtomatika Terminologiya və Standartlar Komitəsinin üzvü, Sovet-Bolqar Dostluq Cəmiyyəti Azərbaycan şöbəsinin sədr müavini, Avtomatik İdarəetmə üzrə Ümumdünya Federasiyasının I (Moskva, 1960), III (London, 1966), IV (Varşava, 1969), V (Paris,1972), VI (Boston, 1975), VII (Helsinki, 1978) konqreslərinin məruzəçilərindən olmuşdur.

A.Əfəndizadənin əsas elmi istiqaməti elektrik intiqalı sistemlərinin avtomatik idarə edilməsi, tezliyə görə idarə olunan asinxron elektrik intiqalının dinamikası və sabitcərəyanlı, eninə impulslu modulyasiyalı (EİM) çeviricilərin idarə olunması və bu problemlərlə əlaqədar olan elmi nəticələrin xalq təsərrüfatında tətbiq edilməsi ilə bağlıdır. A.Əfəndizadənin rəhbərliyi altında Azərbaycan texniki terminologiyası üzrə çox böyük və səmərəli iş aparılmış, elektrik intiqalı, elektromexanika və avtomatik idarəolunma sahəsində altıdilli terminlər lüğəti hazırlanıb çap olunmuşdur.

A.Əfəndizadə 250-dən çox elmi işin və 5 monoqrafiyanın müəllifidir. Əməkdar elm xadimi fəxri adını almış, "Qırmızı



Əmək Bayrağı" ordeni, Azərbaycan SSR Nazirlər Sovetinin gümüş medalı ilə təltif olunmuşdur.

Akademik Azad Əfəndizadə 1998-ci ildə Bakıda vəfat etmişdir.

## Bahadur Vəlibəyov



**Bahadur bəy Vəlibəyov** – ictimai və dövlət xadimi.

Bahadur Qasım oğlu Vəlibəyov 1894-cü il də Şuşa qəzasının Çəmənli kəndində anadan olmuşdur. O, 1912-ci ildə Bakıda gimnaziyanı bitirdikdən sonra Kiyev Universitetinin hüquq fakültəsinə daxil olmuş və orada inqilabi fəaliyyətə başlamışdır. Bahadur bəy Vəlibəyov 1913-cü ildə inqilabi hərəkata qoşulduğu üçün universitetdən xaric edilmiş, sonradan Sosial-demokrat Partiyasının tələbinə əsasən hüquq fakültəsinə bərpa olunmuşdu.

Bahadur bəy Vəlibəyov 1918-ci ildən Rusiya Kommunist Partiyasının sıralarında olmuş, Minsk quberniyasının milis komissarı, Minsk Vilayət Soveti İcraiyyə Komitəsinin üzvü, Smolensk Qızıl qvardiya qərargahının hərbi-təsərrüfat idarəsinin komissarı işləmişdir. O, Tambov quberniyasında qolçomaq qiyamçılara qarşı vuruşmuş, 1919-cu ildə Kommunist partiyasının Qafqaz Ölkə Komitəsinin tapşırığı ilə Batum, Gəncə, və Qarabağda partiya işi aparmışdır. Bahadur bəy 1920–1937-ci illərdə Azərbaycan Kommunist Partiyasının

Naxçıvan Ölkə Komitəsinin katibi, Azərbaycan SSR Maarif komissarının müavini, ədliyyə komissarı, Naxçıvan MSSR MİK sədri, Vilayət Partiya Komitəsinin birinci katibi, Borçalı Qəza Komitəsinin katibi, Azərbaycan SSR Baş Prokuroru, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının sədr müavini kimi səlahiyyətli vəzifələrdə çalışmışdır.

Bahadur Vəlibəyov 21 iyul 1937-ci ildə Vətənə xəyanətdə günahlandırılaraq həbs olunmuşdur. 16 fevral 1940-cı ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qapalı iclasında Bahadur bəy Vəlibəyov ən ağır cəzaya – ölüm hökmünə məhkum edilmiş və hökm dərhal icra edilmişdir.

## Böyükağa Talıblı



**Böyükağa Talıblı** – ictimai-siyasi xadim, nasir, publisist.

Böyükağa Mir Qasım oğlu Talıblı 1897-ci il martın 22-də Salyan rayonunda qulluqçu ailəsində anadan olmuşdur. O, ilk təhsilini rus ibtidai məktəbində almış, 1909–1915-ci illərdə Bakı Realnı məktəbində təhsilini davam etdirmişdir. B.Talıblı 1916-cı ildə Salyan Realnı məktəbində müəllim kimi fəaliyyət göstərmişdir.

Böyükağa Talıblı 1917-ci ildə Petroqrad Texnologiya İnstitutuna daxil olmuş, lakin maddi vəziyyətinin ağırlığı üzündən məktəbdən çıxıb ictimai-siyasi fəaliyyətə başlamışdır. O, Petroqrad vilayət komissarlığında Müsəlman İşləri üzrə Təbliğat və Təşviqat şöbəsinin müdiri, bir il sonra



orada azərbaycanca buraxılan "Hürriyyət" qəzeti redaksiyasının əməkdaşı olmuş, Xalq Komissarlığında Milli İşlər üzrə müsəlman şöbəsinə müdir təyin edilmişdir.

1920-ci ilin mayında Azərbaycana fəhlə-kəndli müfəttişliyi komissarının müavini vəzifəsinə göndərilən B.Talıblı daha sonra burada Xalq Təsərrüfatı Şurasının sədri seçilmişdir. O, "Kommunist", "Azərbaycan füqərası", "Yeni fikir" qəzetlərinin redaktoru olmuşdur. Böyükağa Talıblı Zaqafqaziya Azərbaycan Xalq Ədliyyə komissarı, Mərkəzi Statistika İdarəsinin rəisi, Sovet Quruluşu və Hüquq İnstitutunun direktoru, Azərbaycan Sovet Respublikası prokuroru, Bakı Plan İdarəsinin sədr müavini kimi məsul vəzifələrdə işləyib.

Böyükağa Talıblı ədəbi fəaliyyətə 1911-ci ildə, Bakı Realnı məktəbinin üçüncü sinif şagirdi ikən yazdığı, bir il sonra Orucov qardaşlarının mətbəəsində kitabça halında çap etdirdiyi "Yaxşı məsləhət hər şeydən yaxşıdır" hekayəsi ilə başlayıb. Bundan sonra o, dövri mətbuatda publisistik məqalələri və hekayələrilə çıxış edib, 1916-cı ildə "Keyf içində" pyesini yazıb. B.Talıblı Azərbaycan Ədəbiyyat Cəmiyyətinin sədri kimi milli mədəniyyətin inkişafına dəstək olub. Yaradıcılığında bədii tərcüməyə xüsusi yer ayıran publisist 1923-cü ildə Tiflisdə N.Nərimanov adına klubun nəzdində "Ədəbiyyat dərnəyi"nin təşkilatçısı olub. Bu ədəbi dərnək sonralar Tiflis Azərbaycan Proletar Yazıçıları bölməsinin əsasını təşkil edib.

B.Talıblı Azərbaycan Kommunist Partiyası Bakı komitəsinin və Azərbaycan Həmkarlar İttifaqı Şurası Rəyasət heyətinin, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilib. 1937-ci il yanvar ayının 8-də B.Talıblının həbsinə qərar verilib.

B.Talıblı 1937-ci il 10 yanvar tarixində Azərbaycan SSR Cinayət məcəlləsinin 72-ci maddəsilə həbs edilmiş və onun

Azərbaycan DİK idarəsinin həbs evində saxlanması qərara alınmışdı. Azərbaycan SSR Cinayət Məcəlləsinin 64, 69, 70, 73-cü maddələri ilə təqsirli bilinən Böyükağa Talıblı 1937-ci il 12 oktyabrda güllələnməyə məhkum edilib. Hökm 1938-ci ildə icra olunub.

## Cəfər Cabbarlı



**Cəfər Cabbarlı** – dramaturq, şair, nasir, teatrşünas, Əməkdar incəsənət xadimi.

Cəfər Qafar oğlu Cabbarlı 1899-cu il martın 20-də Xızıda yoxsul bir kəndli ailəsində anadan olmuşdur. Cəfərin ailəsi 1903-cü ildə Bakıya köçərək şəhərin "Dağlı məhəlləsi" adlanan yuxarı hissəsində yaşamışdır. Üç yaşında ikən atasını itirən Cəfər paltar yumaq, çörək bişirməklə ailəsini dolandıran anasının himayəsində böyümüşdür. Cəfər 1905-ci ildə "Starıy Poçtovı-25"də Hacı Məmmədhüseyn Bədəlovun şəxsi mülkündə açılan üçsinifli 7-ci rus-tatar məktəbinin birinci sinfinə daxil olur. 1914-cü ildə o, Bakıda Alekseyev adına 3-cü ali-ibtidai məktəbə daxil olur. 1915-ci il aprelin 2-də məktəbi bitirən gənc Cabbarlı 1917–1920-ci illərdə Bakı Politexnik Məktəbinin elektro-mexanika şöbəsində təhsilini davam etdirir.

Cəfərin ilk müəllimləri görkəmli pedaqoq-yazıçı Süleyman Sani Axundov, Abdulla Şaiq, Rəhim bəy Şıxlinski, Əliməmməd Mustafayev olmuşlar. Hələ təhsil illərində Abdulla Şaiq və



Süleyman Sani Axundov kimi yazıçı və müəllimlərin təsiri ilə Cabbarlıda ədəbiyyata həvəs daha da qüvvətlənir və o, Azərbaycan və rus şairlərini mütaliə etməklə bərabər özü də yazmağa başlayır.

1923-cü ilin sentyabrından Cabbarlı səhnə aləmi və teatr tarixi ilə yaxından tanış olmaq məqsədilə Bakı Türk Teatr Məktəbində mühazirələrə qulaq asmağa başlayır. Eyni zamanda 1924-cü ildə Azəraycan Dövlət Universitetinin Şərq fakültəsində də təhsilini davam etdirir.

1915–1920-ci illər Cəfər Cabbarlının təkcə tələbəlik illəri deyil, ədəbiyyata, sənətə gəldiyi dövrdür. O, bir-birinin ardınca "Vəfalı Səriyyə, yaxud göz yaşları içində gülüş", "Solğun çiçəklər", "Nəsrəddin şah", "Trablis müharibəsi" və ya "Ulduz", "Ədirnə fəthi", "Bakı müharibəsi", "Aydın" kimi dram əsərlərini qələmə alır, lirik və satirik şeirlər və hekayələrlə müxtəlif mətbuat orqanlarında çıxış edir.

Azərbaycan teatr sənətnin inkişafında C.Cabbarlının böyük xidmətləri olmuşdur. 1929-cu ildən Azərbaycan Dövlət Dram Teatrında bədii hissə müdiri işləmiş C.Cabbarlı pyeslər yazmaqla bərabər, həm də səhnə üçün Şekspirin "Hamlet" və "Otello", Şillerin "Qaçaqlar", Bomarşenin "Fiqaronun toyu", Slavinin "Müdaxilə" əsərlərini tərcümə etmişdi. O, kino sənəti ilə də yaxından maraqlanmış, "Hacı Qara", "Sevil", "Almaz", "1905-ci ildə", "Ölülər" kinossenarilərini yazmış, ilk üç filmin rejissoru olmuşdur. Bu xidmətlərinə görə 1932-ci ildə Cəfər Cabbarlıya Azərbaycan SSR Əməkdar incəsənət xadimi adı verilmişdir.

Cəfər Cabbarlı 1934-cü il 31 dekabrda ağır xəstəlikdən vəfat etmişdir.

## Əfrasiyab Bədəlbəyli



**Əfrasiyab Bədəlbəyli** – bəstəkar, dirijor, müsiqişünas, librettoçu, publisist, Xalq artisti, Əməkdar incəsənət xadimi.

Əfrasiyab Bədəlbəy oğlu Bədəlbəyli 1907-ci il aprelin 19-da Bakı şəhərində anadan olmuşdur. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin şərq fakültəsinin linqvistika şöbəsini bitirən Əfrasiyab Bədəlbəyli musiqiyə xüsusi maraq göstərmiş və Musiqi Texnikumunda təhsil almışdır. Sonralar – 1934–38-ci illərdə Ə.Bədəlbəyli Leninqrad Dövlət Konservatoriyasının nəzdindəki musiqi texnikumunun bəstəkarlıq fakültəsində təhsilini davam etdirmiş, professor Boris Zeydmanın sinfini bitirmişdir.

Musiqi yaradıcılığına 20-ci illərdə başlamış Ə.Bədəlbəyli dram tamaşalarına musiqi yazmaqla ilk bəstəkarlıq addımlarını atmışdır. O, həmçinin M.F.Axundovun, H.Cavidin, S.Vurğunun, C.Cabbarlının pyeslərinə musiqi bəstələmişdir.

Əfrasiyab Bədəlbəyli ilk Azərbaycan baleti – "Qız qalası" baletinin müəllifidir. 1940-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında tamaşaya qoyulmuş "Qız qalası" baleti yalnız Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərqdə ilk baletdir. Bəstəkarın qələminə, habelə "Tərlan" baleti, müəllimi professor Boris Zeydmanla birgə yazdığı "Xalq qəzəbi", Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinə həsr olunmuş "Nizami", "Söyüdlər ağlamaz" operaları mənsubdur.

1927-ci ildə dirijorluq sənətinə başlayan Əfrasiyab Bədəlbəyli Azərbaycanın ilk dirijorlarından biridir. Onun dirijorluq etdiyi ilk əsər Üzeyir Hacıbəyovun "Əsli və Kərəm" operası olmuşdur. Əfrasiyab Bədəlbəyli Çaykovski adına Moskva Dövlət Konservatoriyasının dirijorluq fakültəsində təkmilləşmiş, bir neçə il Leninqrad Opera və Balet Teatrında dirijorluq təcrübəsi keçmişdir. Dirijorluq sənətinin sirlərinə dərindən bələd olan Əfrasiyab Bədəlbəyli ömrünün sonuna kimi Azərbaycan Dövlət Opera və Balet Teatrında dirijor vəzifəsində çalışmış, dünya musiqisi klassiklərinin, Azərbaycan bəstəkarlarının, həmçinin özünün səhnə əsərlərini özünəməxsus bir istedadla təfsir etmişdir.



Əfrasiyab Bədəlbəyli, eyni zamanda, istedadlı publisist, librettoçu və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. O, Süleyman Ələsgərovun "Bahadur və Sona" operasının, Əşrəf Abbasovun "Qaraca qız", Boris Zeydmanın "Qızıl açar" və "Gülən adam" baletlərinin, eləcə də öz səhnə əsərlərinin librettolarını yazmışdır. Əfrasiyab Bədəlbəyli, həmçinin P.Çaykovskinin "İolanta", C.Rossininin "Sevilya bərbəri", Z.Paliaşvilinin "Daisi", R.Qliyerin "Şahsənəm" operalarının librettolarını Azərbaycan dilinə tərcümə etmişdir.

Əfrasiyab Bədəlbəylinin bir musiqişünas kimi fəaliyyəti də önəmlidir. Onun "Musiqi haqqında söhbət", "Qurban Pirimov" monoqrafiyaları, Azərbaycan dilində indiyə qədər yeganə sayılan "Musiqi terminləri lüğəti" milli musiqişünaslığımızın əhəmiyyətli əsərlərindəndir. Maraqlı və aktual mövzulara həsr olunmuş elmi-publisistik məqalələrlə dövri mətbuatda çıxış edən Əfrasiyab Bədəlbəyli "Ədəbiyyat və incəsənət" qəzetinin və "Elm və həyat" jurnalının redaksiya heyətinin, Azərbaycan Sovet Ensiklopediyası baş redaksiyasının üzvü olmuşdur.

İctimai musiqi xadimi kimi geniş fəaliyyət göstərən Əfrasiyab Bədəlbəyli müxtəlif illərdə Azərbaycan Dövlət Radio Komitəsinin, habelə Azərbaycan Dövlət Filarmoniyasının

bədii rəhbəri olmuşdur. O, Azərbaycan Bəstəkarlar İttifaqının yarandığı ilk gündən – 1934-cü ildən bu yaradıcılıq təşkilatının üzvlüyünə qəbul olunmuş, bütün qurultayların idarə heyətinin üzvü seçilmiş, uzun illər Musiqişünaslıq bölməsinin rəhbəri olmuşdur.

Tanınmış bəstəkar 1940-cı ildə Əməkdar incəsənət xadimi, 1960-cı ildə Azərbaycanın Xalq artisti adları ilə təltif olunmuşdur.

Ə.Bədəlbəyli 1976-cı il yanvarın 7-də vəfat etmişdir.

## Əlibəndə Rzayev

**Əlibəndə Rzayev** – neft mühəndisi.

Abdulla Şaiqin sevimli tələbələrindən biri Əlibəndə Rzayev olmuşdur. Əlibəndə Rzayev haqqında informasiyanı yazıçı Süleyman Vəliyevin Abdulla Şaiqin Mənzil-Muzeyinin arxivində saxlanan xatirə yazısından əldə etdik. Xatirədən məlum olur ki, ziyalı, mədəni insan, istedadlı neft mühəndisi Ə.Rzayev S.Vəliyevin atasının əmisi nəvəsi olmuşdur. Qala Qazma İdarəsinin direktoru vəzifəsini tutan Ə.Rzayev neft sahəsində bəzi ixtiraların müəllifi, bir sıra neft quyularının vaxtından əvvəl istismara verilməsində xidmətləri olan istedadlı neftçi idi. O, həm də təşəbbüskar, kreativ təsərrüfatçı kimi tanınırdı. Maştağa kəndində saldığı bağda müxtəlif meyvə ağacları, özünün düzəltdiyi motorla işləyən su kəməri, bağdakı göz oxşayan səliqə-sahman hər kəsin, o cümlədən Abdulla Şaiqin dilindən düşmürdü. Dəyərli bir insan, istedadlı mütəxəssis, kreativ təsərrüfatçı kimi tanınan bu şəxs haqqında o zamanlar "Yeni yol" qəzetində çalışan Süleyman Vəliyev məqalə çap etdirmişdi.



Lakin mənfur sovet rejimi vətəninə, millətinə xeyir verə biləcək, gərəkli insanları sevmirdi və onları pantürkist, millətçi damğası ilə damğalayıb sürgünə göndərir, bəzən də onlar haqqında yerindəcə ölüm fərmanı verirdi. Qohumu Süleyman Vəliyev kimi Əlibəndə Rzayev də eyni aqibətlə qarşılaşdı. 1937-ci ilin yayında hələ bağında ağ və qara şanı yetişməmiş beş oğul atası Əlibəndə Rzayev siyasi dustaq kimi həbs olundu. Onu Sibirə sürgün etdilər və haqqında həqiqətə uyğun olmayan müxtəlif şayiələr yaydılar.

## Fuad Əfəndiyev



**Fuad Əfəndiyev** – Əməkdar həkim, Əməkdar elm xadimi, Azərbaycan EA-nın müxbir üzvü.

Fuad Ələddin oğlu Əfəndiyev 1909-cu il fevralın 23-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, orta təhsilini Bakıda almışdır. 1927–1932-ci illərdə indiki Azərbaycan Dövlət Tibb Universitetində təhsil alan Fuad Əfəndiyev 1934-cü ildə tibb elmləri namizədi, 1943-cü ildə tibb elmləri doktoru elmi dərəcələrini almışdır. O, 1944-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Tibb Universitetində 2-ci fakültə cərrahlığı kafedrasının müdiri vəzifəsində işləmişdir. Hematologiya və qanköçürmə sahəsində də tədqiqat işləri aparmış F.Əfəndiyevin təşəbbüsü ilə 1957-ci ildə 4 saylı klinikada köks cərrahlığı şöbəsi yaradılmışdır. Tanınmış həkim

1961-ci ildə əsası qoyulan Azərbaycan Eksperimental və Klinik Tibb İnstitutunun təşkilatçısı və ilk direktoru olmuşdur.

Fuad Əfəndiyev 1942-ci ildə Əməkdar həkim, 1956-cı ildə Əməkdar elm xadimi adlarına layiq görülmüş, 1959-cu ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. Fuad Əfəndiyevin tədqiqatları tibbin, əsasən, köks cərrahlığı, hematologiya, qanköçürmə, qanın laxtalanması və s. məsələlərinə həsr edilmişdir. F.Əfəndiyev plevra boşluğunda qanın infeksiyalaşmasını asanlıqla təyin etməyə imkan verən orijinal üsul təklif etmiş ("Əfəndiyev sınağı"), ağciyər əməliyyatlarını asanlaşdırmaq üçün xüsusi alət və aparatlar yaratmış, hemotoraks və hemartrozların ekspres üsulla müalicəsinin mümkün olduğunu göstərmişdir.

F.Əfəndiyev N.N.Burdenko adına mükafata layiq görülmüş, "Qırmızı Əmək Bayrağı" ordeni, "Qırmızı Ulduz" ordeni və medallarla təltif edilmişdir. 4 saylı Bakı Şəhər Klinik Xəstəxanası Fuad Əfəndiyevin adını daşıyır. Fuad Əfəndiyevin elmi və pedaqoji fəaliyyəti 100-ə yaxın elmi məqalədə, 3 monoqrafiyada öz əksini tapmışdır.

Fuad Əfəndiyev 1963-cü ildə Bakı şəhərində vəfat etmişdir.



## Feyzulla Qasımzadə



**Feyzulla Qasımzadə** – Azərbaycan EA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycanın Əməkdar elm xadimi və Əməkdar müəllimi.

Feyzulla Səməd oğlu Qasımzadə 1898-ci il fevralın 19-da Bakının Mərdəkan kəndində dünyaya gəlib. Onun uşaqlıqdan görmə qabiliyyəti çox zəif olub. Lakin valideynlərindən irsən keçən zəhmətsevərlik, fenomenal yaddaş və fitri istedad sayəsində o, mahir pedaqoq və XX əsrin ən nəhəng alimlərindən birinə çevrilmişdir.

Feyzulla Qasımzadə ilk təhsilini 8 yaşında doğulduğu kənddəki mollaxanada almışdır. Burada üç il oxuduqdan sonra 1909-cu ilin sentyabrından təhsilini Bakıdakı rus-tatar dövlət məktəbində davam etdirmişdir. 1912-ci ildə həmin məktəbi uğurla bitirərək müsabiqə yolu ilə Bakıdakı ali ibtidai məktəbin II sinfinə qəbul edilən Feyzulla 1916-cı ilin mayında sözügedən məktəbi də müvəffəqiyyətlə bitirir və qeydçi işləyə-işləyə axşam gimnaziyasına daxil olur. Gənc Feyzulla 1917-ci ilin yanvarından Göyçay qəzasının Qaziyan kənd orta məktəbinə müdir və müəllim, həmin ilin sentyabrından isə Mərdəkan kənd orta məktəbinə müdir və müəllim təyin edilir.

Feyzulla Qasımzadə 1919–1925-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat şöbəsində təhsil alır. O, 1922-ci ildə məşhur şərqşünas P.Jüzenin rəhbərliyi ilə rus dilində "Quranın estetikası" adlı maraqlı və orijinal diplom işi yazır. 1925–1929-cu illərdə isə Azərbaycan Dövlət

Universitetinin yeni açılmış şərqşünaslıq fakültəsində ikinci ali təhsil alır. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olur və 1931-ci ildə oranı uğurla başa vurur. O bu illərdə həm müəllim, həm də alim kimi fəaliyyətini davam etdirir. 1930–1938-ci illərdə Xalq Maarif Komissarlığında metodist-təlimatçı işləyir və bir-birindən orijinal əsərlər yaradır.

İstedadlı alim 1939-cu ildə "Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı" adlı namizədlik, 1955-ci ildə isə "XIX əsr Azərbaycan ədəbiyyatında realist-demokratik cərəyanın inkişaf tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə edir.

Alimin gecəli-gündüzlü zəhməti nəticəsində 600-dən çox elmi, 400-dən artıq qəzet və jurnal məqaləsi, 34 kitabı (monoqrafiya, dərslik, dərs vəsaiti, müntəxəbat və s.) işıq üzü görmüşdür.

Feyzulla Qasımzadə XIX əsr Azərbaycan ədəbiyyatı tarixini ilk dəfə bir kurs kimi yaratmış və tədqiq etmişdir. Onun "XIX əsr Azərbaycan ədəbiyyatı" dərsliyi 50 il ərzində 20 dəfə nəşr olunmuşdur.

1962-ci ildə Parisdə "Mirzə Fətəli Axundovun əsərləri" fransız dilində UNESCO-nun xətti ilə çap olunarkən kitabın giriş sözünü yazmaq məsuliyyəti məhz Feyzulla Qasımzadəyə həvalə olunmuşdur.

Azərbaycan xalqının neçə-neçə nəsli məhz akademik Feyzulla Qasımzadənin dərsliklərindən faydalanmış, milli ədəbiyyatımızı tanımış və sevmişdir.

Böyük alim 30 elmlər doktoru və 120 elmlər namizədi yetişdirmişdir. Bundan savayı on minlərlə gəncimiz vətənpərvərliyi, yurd, torpaq müqəddəsliyini məhz Mirzə Feyzullanın dərslərindən və əsərlərindən öyrənmişdir. Feyzulla



müəllimin mühazirələrini birbaşa və ya dolayısı yolla dinləmiş minlərlə şagird, tələbə sırasında Heydər Hüseynov, Mikayıl Müşfiq, Abdulla Qarayev, Məmmədağa Şirəliyev, İlyas Əfəndiyev, Mehdi Hüseyn, Şıxəli Qurbanov, Sabit Orucov, Süleyman Vəzirov, Teymur Yaqubov, Əhəd Yaqubov, Ələşrəf Əlizadə, Süleyman Rüstəm, Səid Rüstəmov, Məmmədcəfər Cəfərov, Ağaməmməd Abdullayev, Manaf Süleymanov, Mirzə İbrahimov, Əli Sultanlı, İsmayıl Hüseynov, Cəfər Xəndan, Mirzağa Quluzadə, Abbas Zamanov, Kamal Talıbzadə və xalqımızın digər məşhur simaları da var.

Feyzulla Qasımzadə uzun illər iki universitetdə (ADU və APİ) ədəbiyyat kafedralarına müvəffəqiyyətlə başçılıq etmişdir. Belə ki, o, 1941–1950-ci illərdə Azərbaycan Dövlət Universitetində "Azərbaycan ədəbiyyatı kafedrası"na, 1950–1970-ci illərdə isə Pedaqoji İnstitutda "Azərbaycan ədəbiyyat tarixi" kafedrasına uğurla rəhbərlik etmişdir. Müasir dövrdə fəaliyyət göstərən "Dünya ədəbiyyatı" və "Ədəbiyyat və onun tədrisi metodikası" kafedraları məhz həmin kafedranın əsasında yaradılıb.

60 il pedaqoji və elmi sahədə misilsiz xidmətlər göstərən, üç dəfə "Qırmızı Əmək Bayrağı" ordenli (1953, 1967, 1976) akademik Feyzulla Qasımzadə 1943-cü ildə Əməkdar elm xadimi, 1958-ci ildə Əməkdar müəllim və Qabaqcıl maarif xadimi fəxri adlarına layiq görülmüş, "Qafqazın müdafiəsinə görə" (1941–1945-ci illər) medalları ilə təltif olunmuşdur.

Kommunizm şəraitində hər hansı bir təltifin, mükafatın, orden və medalın yalnız Kommunist partiyasının üzvlərinə verildiyi bir dövrdə bitərəf mövqeyini dəyişdirməyən Feyzulla Qasımzadə 1962-ci ildə AMEA-nın müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü (akademik) seçilmişdir.

Görkəmli alim 1976-cı ildə dünyasını dəyişmişdir.

## Hacıməmməd Qafqazlı



**Hacıməmməd Qafqazlı** – aktyor, Azərbaycan Respublikasının Əməkdar artisti.

Hacıməmməd Mirzə Ələkbər oğlu Qulubəyzadə 1898-ci il martın 24-də Lənkəran şəhərində anadan olmuşdur. Atası şair-həkim Mirzə Ələkbər Səburi Lənkəranda yaradılmış "Fövcül-füsəha" ədəbi məclisinin fəal üzvlərindən biri, həmçinin Tehranda görkəmli şair Abbas Səhhətlə birgə təhsil almış həkim idi. O, oğlu Hacıməmmədi də savadlı və elmli görmək istəyirdi. Buna görə də hələ oğlu balaca ikən ailəsi ilə birgə Bakıya köçür.

Hacıməmməd 6-7 yaşlarında mollaxanada oxumağa başlayır. Əvvəlcə "Huvəlfəttahül-əlim" çərəkəsini, sonra "Qurani şərifi", ondan sonra isə "Üsuli-cədid" və "Gülüstani-Sədi"ni oxuyur.

1907-ci ildə Bakıda rus-tatar məktəbi açılanda atası Hacıməmmədi mollaxanadan çıxardıb 7-ci rus-tatar məktəbinə qoyur. Onun ilk müəllimləri Süleyman bəy Axundov (Süleyman Sani) – məktəb müdiri, Mirzə Abdulla Talıbzadə (Abdulla Şaiq), Əliməmməd bəy Mustafayev, Ağaəlibəy Qasımov, Bədəl bəy Bədəlbəyov, Həbib bəy Mahmudov və başqaları olmuşdur.

Ailə vəziyyətilə əlaqədar 14 yaşından Orucov qardaşlarının mətbəəsində mürəttibliyə başlayan Hacıməmmədin əsl mürəkkəb həyat yolu bundan sonra başlayır. Mətbəədə gündəlik "İqbal", həftəlik "Bəsirət" qəzeti, "Kəlniyyət", "Dirilik", "Babayi-əmir" jurnallarının nəşrində iştirakı, jurnalist və



tənqidçi Hacı İbrahim Qasımovla, şair Əliabbas Müznіblə, yazıçı Seyid Hüseynlə, doktor Nəriman Nərimanovla tanışlığı gənc fəhlə Hacıməmmədi sənətə, ədəbiyyata bağlamışdı.

1917-ci ildə Özbəkistanda "Turan" tərəqqipərvərlər cəmiyyəti təşkil edilmişdi. Cəmiyyətin sədri şair Abdulla Övlani 1917-ci ildə mətbəə avadanlığı almaq üçün Bakıya gəlir. O, Hacıməmmədi də mütərrib sifətilə Daşkəndə aparır. Hacıməmməd "Turan" qəzeti çıxarmaqla bərabər, cəmiyyətin nəzdində dram dərnəyi də yaradır. Dərnəyin hazırladığı "Köhnə Türkiyə" inqilabi pyesinin tamaşasında Hacıməmmədə Şeyxülislam rolu tapşırılır. Hamı onu "Kafkazlı bəradərim" deyə çağırdığına görə afişa yazılanda ləqəbini Qafqazlı yazdılar. Elə o vaxtdan da Hacıməmməd Qafqazlı təxəllüsünü qazandı.

1920-ci ildə Hacıməmməd Qafqazlı Maştağada ilk dəfə fəhlə-kəndli klubu və onun nəzdində dram dərnəyi təşkil edir. Burada Azərbaycan klassiklərinin əsərlərini tamaşaya qoyur və rejissorluğunu da özü edir. Görkəmli aktyor Abbas Mirzə Şərifzadə Hacıməmmədin istedadını və səhnəyə həvəsini görüb onu teatra dəvət edir. 1922-ci ildən ömrünün sonuna kimi həyatını Azərbaycan Dövlət Akademik Dram Teatrı ilə bağlayır. Hacıməmməd Qafqazlının bir sənətkar kimi yetişməsində və təkmilləşməsində Hüseyn Cavid, Cəfər Cabbarlı, Abdulla Şaiqin səhnə əsərlərinin misilsiz rolu olmuşdur.

H.Cavidin "Uçurum", "Şeyx Sənan", C.Cabbarlının "Solğun çiçəklər", "Almaz", "1905-ci ildə", M.F.Axundzadənin "Hacı Qara", C.Məmmədquluzadənin "Ölülər", S.Vurğunun "Vaqif", "Xanlar", S.Rüstəmin "Qaçaq Nəbi", İ.Səfərlinin "Yol ayrıcında", S.Rəhmanın "Toy" tamaşalarında, eyni zamanda xarici dramaturqların, o cümlədən Şekspirin "Hamlet", Şillerin "Qaçaqlar", Qoqolun "Müfəttiş" və Vinnikovun "Hind gözəli" pyeslərində müxtəlif rollarda uğurla çıxış etmişdir.

H.Qafqazlı təkcə səhnədəki işi ilə kifayətlənmir, tez-tez radio və televiziyada çıxış edir, kinoda çəkilirdi: "Fətəli xan",

"Bir məhəlləli iki oğlan", "Arşın mal alan", "O olmasın, bu olsun" (Məşədi İbad), "Qorxma, mən səninləyəm" və s. Son ekran işi Mosfilmin çəkdiyi "Tehran – 43" filmində Axund obrazı oldu.

Teatr texnikumunun ilk məzunlarından biri olan H.Qafqazlı 1943-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür. Aktyor 1982-ci il sentyabrın 21-də vəfat etmişdir.

## İlyas Əfəndiyev



**İlyas Əfəndiyev** – yazıçı, dramaturq, Xalq yazıçısı, Əməkdar incəsənət xadimi.

İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il may ayının 28-də Füzuli rayonunda anadan olmuşdur. Yazıçı hələ uşaq yaşlarından zəhmətə alışmış, mütaliəyə böyük maraq göstərmiş, məktəbə getməzdən əvvəl yazıb-oxumağı öyrənmişdir. 1921-ci ildə birinci sinfə gedən İlyas 1930-cu ildə pedaqojitəmayüllü ikincidərəcəli orta məktəbi əla qiymətlərlə bitirmişdir. Məktəbin direktoru Cəmil bəy Vəzirov, müəllimləri Abdulla Şaiq, Mehdi Mehdizadə, Cümşüd Zülfüqarlı, Bəylər Ağayev və b. idi.

Orta məktəbi bitirdikdən sonra bir müddət Böyük Bəhmənli kəndində dil və ədəbiyyatdan dərs deyən İ.Əfəndiyev 1935–1938-ci illərdə Qaryagin şəhər orta məktəbində coğrafiya müəllimi işləmiş, eyni zamanda gənclərin təlim-tərbiyəsində, savadsızlığın aradan qaldırılmasında, məktəbyaşlı uşaqların təhsilə cəlb olunmasında fəallıq göstərmişdir. O, 1941–1945-ci illərdə Azərbaycan Radio komitəsində ədəbi verilişlər şöbəsinin, 1945-ci ildən Bakı kinostudiyasında ssenari şöbəsinin, daha sonra isə Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri vəzifələrində çalışmışdır.



Bədii yaradıcılıq sahəsində ilk uğurlu addımlarını 30-cu illərin axırlarında atmağa başlamış İ.Əfəndiyevin "Kənddən məktublar" adlı ilk kitabı 1939-cu ildə, "Aydınlıq gecələr" adlı ikinci kitabı 1945-ci ildə çap olunmuşdur.

1960-cı ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adını almış İlyas Əfəndiyevin yaradıcılığında 60–80-ci illər ən məhsuldar dövr hesab olunur. Bu illərdə ədib "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1976-78), "Geriyə baxma, qoca"(1980), "Üçatılan" (1981) kimi povest və romanlarını dərc etdirir, eyni zamanda maraqlı dram əsərlərini qələmə alır, publisist və ədəbiyyatşünas kimi məhsuldar yaradıcılıq yolu keçir. Bu illərin məhsulu olan "Sən həmişə mənimləsən" (1964) pyesi ilə Azərbaycan səhnəsində lirik-psixoloji dramın əsasını qoyur. Bu yolu uğurla davam etdirən dramaturq "Mənim günahım" (1967), "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Qəribə oğlan" (1973), "Bağlardan gələn səs" (1976) və s. pyeslərini yazır. Ölməz sənət nümunələri kimi Azərbaycan dramaturgiyası xəzinəsini zənginləşdirən, yüksək vətəndaşlıq pafosu, incə lirizm və dərin psixoloji tapıntılarla aşılanan bu pyeslər teatr sənətimizdə yeni bir mərhələ açdı, "İlyas Əfəndiyev teatrı" yaratdı.

Görkəmli yazıçı ədəbiyyat sahəsində göstərdiyi xidmətlərə görə 1994-cü ildə Şöhrət ordeni ilə təltif olunmuşdur.

İlyas Əfəndiyev 1996-cı ildə Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

## Lətif Hüseynzadə



**Lətif Hüseynzadə** – ədəbiyyatşünas, maarif xadimi, Əməkdar müəllim.

Lətif Talıb oğlu Hüseynzadə 1903-cü il aprelin 24-də Naxçıvan şəhərində anadan olmuşdur. Burada "Xeyriyyə" və "Rüşdiyyə" adlanan dini mədrəsələri bitirdikdən sonra, 1922–1925-ci illərdə Lətif Hüseynzadə Naxçıvan Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir.

Lətif Hüseynzadə 1925–1930-cu illərdə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil almışdır. O, əmək fəaliyyətinə 1930–1936-cı illərdə çalışdığı İrəvan Türk Müəllimlər Seminariyasında Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlamışdır. Lətif Hüseynzadə 1940–1954-cü illərdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunda müəllim, kafedra müdiri, direktor; 1950–1951-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Naxçıvan filialında elmi işçi, daha sonra direktor; 1954–1957-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda dil-ədəbiyyat metodikası şöbəsinin müdiri kimi fəaliyyət göstərmişdir.

Lətif Hüseynzadə pedaqoji fəaliyyətə başladığı 30-cu illərdən həm də elmi-tədqiqatla ardıcıl məşğul olmuş, dövri mətbuatda məqalələr dərc etdirmişdir. O, 1950-ci ildə "Əliqulu Qəmküsarın həyatı və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, alimlik dərəcəsi almışdır. Alim, həmçinin XV əsr Qaraqoyunlu hökmdarı Cahanşahın "Həqiqi" təxəllüsü ilə Azərbaycan və fars dillərində yazdığı



divanını aşkara çıxarıb, tədqiq və tərtib edərək çapa vermişdir. Qazi Bürhanəddin, Nəimi, İmadəddin Nəsimi, Heyran xanım, Qönçəbəyim kimi sənətkarların poetik irsinin ilk tədqiqatçılarından biri olan Lətif Hüseynzadə yüzlərlə elmi məqalənin və 10 elmi-kütləvi monoqrafik əsərin müəllifidir.

Lətif Hüseynzadə 11 iyul 2008-ci ildə Bakıda vəfat etmişdir.

## Mahmud Əliyev



**Mahmud Əliyev** – Əməkdar həkim, səhiyyə təşkilatçısı.

Mahmud İsmayıl oğlu Əliyev 22 noyabr 1908-ci ildə Şamaxıda anadan olmuşdur. O, 1926-cı ildə Bakıda orta məktəbi, 1931-ci ildə isə Azərbaycan Tibb İnstitutunun müalicə fakültəsini bitirmiş, gənc həkim kimi hökumət tərəfindən ələçılar sırasında Azərbaycan rayonlarına işə göndərilmişdir.

Mahmud Əliyev 1931–1936-cı illərdə Kəlbəcər və Cəbrayıl rayonlarında poliklinika müdiri, rayon xəstəxanasının baş həkimi, rayon səhiyyə şöbəsinin müdiri və s. vəzifələrdə çalışmış və özünü bacarıqlı həkim, səhiyyə təşkilatçısı kimi göstərmişdir. O, Cəbrayıl rayonunda dörd il işlədiyi müddətdə Rayon İcraiyyə Komitəsi Rəyasət Heyətinin üzvü olmuşdur. Mahmud Əliyev 1937–1943-cü illərdə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı Tibb Təhsili idarəsinin rəisi, Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru, Mərkəzi Komitənin elm və məktəblər şöbəsinin müdiri olmuşdur. O, 1944-cü ildən ömrünün sonuna kimi Azərbaycan Respublikasının xarici işlər

naziri, 1950–1953-cü illərdə Azərbaycan Respublikasının səhiyyə naziri, 1953–1958-ci illərdə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləmişdir.

Mahmud Əliyev xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı" ordeni, iki dəfə "Şərəf nişanı" ordeni və müxtəlif medallarla təltif edilmişdir. Ona eyni zamanda Fövqəladə və Səlahiyyətli səfir dərəcəsi və Azərbaycanın Əməkdar həkimi fəxri adı verilmişdir. Bakı poliklinikalarından biri Mahmud Əliyevin adını daşıyır.

Mahmud Əliyev 1958-ci il sentyabrın 24-də Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn edilmişdir.

## Mehdi Hüseyn



**Mehdi Hüseyn** – yazıçı, nasir, dramaturq, tənqidçi, ictimai xadim, Xalq yazıçısı.

Mehdi Əli oğlu Hüseynov 22 mart 1909-cu ildə Qazax mahalının Şıxlı kəndində anadan olmuşdur. 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin pedaqoji fakültəsinin tarix şöbəsini bitirən Mehdi Hüseyn ardınca Moskva Dövlət Kinematoqrafiya İnstitutu yanında akademiya tipli kinossenariçilər kursunu 1938-ci ildə başa vurmuşdur.

Mehdi Hüseyn Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin məsul katibi, 1930–1934-cü illərdə Azərbaycan Sovet Yazıçıları İttifaqı Təşkilat Komitəsinin məsul katibi,1958–1965-ci illərdə SSRİ Yazıçıları İttifaqı İdarə Heyətinin katibi olmuşdur.



Mehdi Hüseyn yaradıcılığa müxbir yazıları ilə başlamışdır. İlk tənqidi məqaləsi "Bizdə futurizm cərəyanı" 1926-cı ildə, ilk hekayəsi "Qoyun qırxımı" 1927-ci ildə dərc edilmişdir. Onun 1949-cu ildə çap etdirdiyi "Abşeron" romanında Bakı neftçilərinin bədii obrazı əks olunmuşdur. Yazıçının "Bahar suları" (1930), "Xavər" (1930) kitablarındakı hekayələrdə Azərbaycan kəndində yeni həyat quruculuğunun səciyyəvi epizodları dövrün koloritləri ilə birgə təqdim olunmuşdur. M.Hüseynin "Qara daşlar", "Yeraltı çaylar dənizə axır" romanları ictimai və mənəvi-əxlaqi problemlərə həsr olunub.

Mehdi Hüseyn dramaturq kimi də fəaliyyət göstərmişdir. O, dram yaradıcılığına "Şöhrət" (1939) pyesi ilə başlamışdır. Dramaturqun "Nizami" (1942) və "Cavanşir" (1957) tarixi dramlarında Azərbaycan xalqının vətənpərvəliyi, qəhrəmanlıq ənənələri əks olunmuşdur. "Alov" (1961), "İntizar" (1944, İ.Əfəndiyevlə birgə), "Şamil" (1940–1941) və "Qardaşlar" (1948) pyesləri, habelə xatirələri, yol qeydləri – "Bir ay və bir gün" (1963), gündəlikləri var. M.Hüseyn "Şair" (1939), "Fətəli xan" (1947, Ə.Məmmədxanlı ilə birgə), "Səhər" (1958), "Qara daşlar" (1958) kinossenarilərinin müəllifidir. O, tənqid və publisistika sahələrində də fəaliyyət göstərmişdir.

Mehdi Hüseyn 10 mart 1965-ci ildə Bakıda vəfat etmişdir.

## Məmməd Arif



**Məmməd Arif Dadaşzadə** – tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, pedaqoq, nasir, Azərbaycan EA-nın həqiqi üzvü, Əməkdar elm xadimi.

Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə 1904-cü il iyun ayının 10-da Bakı şəhərində anadan olmuşdur. Bakıdakı Rus-tatar məktəbini bitirən Məmməd Arif 1920–1930-cu illərdə I dərəcəli 5-ci sovet məktəbində müəllim işləmişdir. Eyni zamanda o, Xalq Maarifi İnstitutunda təhsil almış və 1925-ci ildə bu institutu bitirmişdir. 1925–1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin şərq fakültəsində oxumuş, Universiteti bitirdikdən sonra 1930–1931-ci illərdə Moskvada Sovet Şərq Xalqları Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır.

M.Arif 1932–1941-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim, Rus ədəbiyyatı kafedrasının dosenti olmuşdur. O, uzun illər Azərbaycan Dövlət Universitetində çalışmış, 1941–1950-ci illərdə universitetin Rus ədəbiyyatı kafedrasının müdiri olmuş, 1955-ci ildə professor elmi adını almışdır. 1930–1940-cı illərdə Azərbaycan Respublikası maarif nazirinin müavini vəzifəsini tutmuş alim 1941–1947-ci illərdə "Vətən uğrunda" jurnalının baş redaktoru işləmişdir.

M.Arif 1944-cü ildə "Azərbaycan sovet ədəbiyyatının inkişafı yolları" mövzusunda namizədlik, 1954-cü ildə isə "Cəfər Cabbarlının yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.



Nizami adına Ədəbiyyat və Dil İnstitutunun təşəkkülündə, strukturunun, fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində M.Arifin xüsusi xidmətləri vardır. O bu elm ocağında 1938-ci ildən çalışmağa başlamışdır. 1939-cu il sentyabr ayının 25-də M.Arif Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsinə təyin edilmiş və 1950-ci il iyulun 27-dək həmin vəzifədə çalışmışdır.

M.Arif 1955-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, 1958-ci ildə həqiqi üzvü (akademiki) seçilmişdir. Görkəmli alim və bacarıqlı təşkilatçı olan Məmməd Arif Dadaşzadə 1959-cu ildə Elmlər Akademiyasının İctimai Elmlər Bölməsinin akademik-katibi təyin edilmiş, 1960-cı ildən ömrünün sonunadək isə Respublika Elmlər Akademiyasının vitse-prezidenti kimi fəaliyyət göstərmişdir.

M.Arif SSRİ Elmlər Akademiyasının "Müasir dövrdə dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları" problemi üzrə Elmi şurasının, Moskvada işıq üzü görən iki nəşrin – "Qısa ədəbiyyat ensiklopediyası"nın (1962–1978) redaksiya heyətinin, 6 cildlik "Çoxmillətli sovet ədəbiyyatı tarixi"nin (1970–1974) baş redaksiya heyətinin üzvü idi. Məmməd Arif 1957-ci ildən etibarən Akademiyanın Rəyasət Heyəti yanında Terminologiya Komitəsinin sədri vəzifəsində çalışmış, uzun illər boyu Azərbaycan Respublikası Elmlər Akademiyasının "Xəbərləri"nin baş redaktoru, həmçinin Zaqafqaziya xalqlarının Mədəni Əlaqələri üzrə Koordinasiya Şurasının rəhbəri olmuşdur. O, eyni zamanda uzun illər Azərbaycan Yazıçılar İttifaqının İdarə heyətinin üzvü olmuş, Tənqid bölməsinə rəhbərlik etmişdir.

M.Arif ədəbiyyata ötən əsrin 20-ci illərinin əvvəllərində yazdığı şeir, hekayə və məqalələrlə qədəm qoymuşdur. Həmin

dönəmdə ədibin "Yurdsuz çocuqlar", "Son bahar təranələri", "Brodskinin boyaları", "Təyyarə və mən", "İki nəşədən biri", "Həvəs" şeirləri, "Son izdivac", "Arakəsmə", "Mal həkimi", "Tar çalınır" hekayələri müxtəlif qəzet və jurnallarda işıq üzü görmüş, maraqla qarşılanmışdır. İlk publisist məqaləsi 1923-cü ildə "Xızılı Məhəmməd Bağır" imzası ilə "Kommunist" qəzetində çap olunan M.Arif eyni zamanda "Bədgümanam", "Belə getsə, düzələr", "Elan", "Hövsələ", "Mərsiyə xəbərləri" felyetonlarını da "Məğmun Xızılı" imzası ilə "Molla Nəsrəddin" jurnalında dərc etdirmişdir. 1925-ci ildən başlayaraq ədəbiyyatşünas əsərlərini Məmməd Arif təxəllüsü ilə imzalayır.

Azərbaycan ədəbiyyatşünaslığı və ədəbi tənqidinin təşəkkülü və inkişafında Məmməd Arif Dadaşzadənin müstəsna xidmətləri vardır. Azərbaycan, rus və dünya xalqları klassik ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, müasir ədəbi proses, ədəbi-mədəni əlaqələr onun əsas tədqiqat obyekti olmuşdur.

Geniş dünyagörüşünə malik alimin tədqiqat diapazonu milli məhdudiyyət tanımamışdır. O öz məqalələrində N.Gəncəvi, M.Gəncəvi, Füzuli, Natəvan, S.Ə.Şirvani ilə yanaşı, Nəvai, Şekspir, N.Qoqol, İ.Qonçarov, T.Şevçenko, A.N.Ostrovski, M.Saltıkov-Şedrin, İ.Franko, R.Taqor və digər görkəmli şair və yazıçıların əsərlərini ciddi surətdə təhlil etmişdir. M.Arif Azərbaycanda dünya ədəbiyyatının fəal təbliğatçısı və tədqiqatçısı olmuşdur. Onun "Vladimir Mayakovski" (1940), "Qorki faşizm əleyhinə" (1941), "Nə üçün faşizmin Henrix Heyneni görməyə gözü yoxdur" (1942), "Krılov və Azərbaycan ədəbiyyatı" (1944), "Vissarion Belinski" (1948), "Böyük rus tənqidçisi Belinski" (1948), "Dahi rus şairi A.S.Puşkin" (1949), "İqor polku haqqında dastan" (1958), "Lev Nikolayeviç Tolstoy" (1960), "Anton Pavloviç Çexov" (1960), "Mixail Vasilyeviç Lomonosov və rus ədəbiyyatı" (1961) və s. tədqiqatları ayrıca kitabça şəklində çap olunmuşdur. M.Arif Evripid, Servantes,



N.Qoqol, L.Tolstoy, A.Çexov, M.Qorki, İ.Bexer, E.Remark və digər məşhur yazıçıların əsərlərini doğma dilimizə tərcümə etmişdir. Onun mütərcim kimi ilk böyük işi – Remarkın "Qərb cəbhəsində təbəddülat yoxdur" romanı 1929-cu ildə "İnqilab və mədəniyyət" jurnalında (№ 10-12) dərc olunub.

Məmməd Arif Dadaşzadə görkəmli ictimai və dövlət xadimi idi. O, uzun müddət SSRİ-İran cəmiyyəti sədrinin müavini olmuş, iki dəfə Bakı Sovetinə deputat seçilmişdir. M.Arif 1963–1967-ci illərdə Azərbaycan SSR Ali Sovetinin deputatı və sədri olmuşdur.

1960-cı ildə ona "Əməkdar elm xadimi" fəxri adı verilmişdir. 1974-cü ildə M.Arifin əməyinin məhsulu olan "Azərbaycan ədəbiyyatı tarixi" monoqrafiyası (rus dilində) Azərbaycan SSR dövlət mükafatına layiq görülmüşdür.

Məmməd Arif Dadaşzadə 27 dekabr 1975-ci ildə Bakıda vəfat etmişdir.

## Mikayıl Müşfiq



**Mikayıl Müşfiq** – şair.

Mikayıl Əbdülqadir oğlu İsmayılzadə 1908-ci il iyunun 5-də Bakının Xızı kəndində ziyalı ailəsində dünyaya gəlmişdir. Hələ ayyarımlıq olarkən anasını, 6 yaşında isə atasını itirən Mikayıl bacı və qardaşları ilə birlikdə yetim qalmış, yaxın qohumlarının himayəsində böyümüşdür. Onun atası Əbdülqadir İsmayılzadə "Səadət" məktəbində müəllim işləməklə yanaşı, "Vüsaqi" təxəllüsü ilə şeirlər yazırdı.

Mikayıl Müşfiq ibtidai təhsilini rus-tatar məktəbində almış, 1920–1927-ci illərdə əvvəlcə Bakı Darülmüəllimində, daha sonra 12 saylı II dərəcəli məktəbdə oxumuşdur.1927–1931-ci illərdə təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində davam etdirmişdir. Əmək fəaliyyətinə pedaqoq kimi başlamış gənc şair 7 il Bakının orta məktəblərində müəllimlik etmişdir. Son iş yeri olan 18 nömrəli Bakı şəhər orta məktəbi hal-hazırda M.Müşfiqin adını daşıyır.

Poetik yaradıcılığa 1926-cı ildə "Gənc İşçi" qəzetində çap etdirdiyi "Bir gün" şeirilə başlayan gənc şair ard-arda on kitabını çap etdirir. M.Müşfiqin 1930-cu ildə "Küləklər", 1932-ci ildə "Vuruşmalar", "Günün səsləri", "Pambıq", "Bir may", "Buruqlar arasında", 1934-cü ildə "Şəngül, Şüngül, Məngül", "Şeirlər", 1935-ci ildə "Qaya", "Kəndli və ilan" kitabları çap olunur. M.Müşfiq həbs edilməmişdən əvvəl 11-ci kitabını – "Çağlayan" şeirlər toplusunu tərtib edib nəşriyyata təqdim etmişdi. Buraya şair son illərdəki şeirləri ilə birlikdə bundan əvvəl yazmış olduğu ən yaxşı poetik əsərlərini də daxil etmişdi. "Çağlayan", bir növ onun onillik poetik fəaliyyətinin yekun kitabı olacaqdı.

M.Müşfiq, eyni zamanda bədii tərcümə ilə də ciddi şəkildə məşğul olmuşdur. A.S.Puşkinin "Qaraçılar" (Ş.Abbasovla birlikdə) və M.Y.Lermontovun "Demon" poemalarını (R.Rza ilə birlikdə), Xəyyamın bir çox rübailərini, T.Şevçenkonun, S.Y.Marşakın və başqa şairlərin irsindən nümunələri dilimizə Mikayıl Müşfiq çevirmişdir.

Mikayıl Müşfiq 1937-ci ildə xalq düşməni kimi həbs edilmişdir. 1938-ci il yanvarın 6-da qısaca çəkən məhkəmə iclasında şairin haqqında çıxarılmış ölüm hökmü elə həmin gün icra olunmuşdur.



## Mikayıl Rzaquluzadə



**Mikayıl Rzaquluzadə** – şair, nasir, tərcüməçi, tənqidçi.

Mikayıl Manaf oğlu Rzaquluzadə 1905-ci il martın 17-də Bakı şəhərində anadan olmuşdur. O, ibtidai təhsilini 1912–1913-cü illərdə yeni üsullu Mədrəseyi-nur məktəbində və mollaxanada almışdır. Yeniüsullu 5 saylı rus-müsəlman məktəbində təhsil alan Mikayıl Rzaquluzadə, həm də xüsusi müəllim yanında hazırlaşaraq Bakı Ticarət Məktəbinə daxil olmuşdur. 1918-ci ildə milliləşib Şaiq Nümunə Məktəbinə çevrilən Bakı I realnı məktəbinin son sinfində oxuyan Mikayıl Rzaquluzadə ekstern imtahan verib Ali Pedaqoji İnstitutun tarix fakültəsinə daxil olmuşdur.

M.Rzaquluzadə təhsil almaqla yanaşı, həm də müxtəlif vəzifələrdə çalışmışdır. O, 1920–1921-ci illərdə Azərbaycan Hərbiyyə-Bəhriyyə Komissarlığında rabitəçi, 1922–1923-cü illərdə Bakı Vilayət Hərbi Komissarlığında jurnalist, daha sonra Sabir adına Kitabxanada kitabxanaçı, Bakı Mərkəzi Kitabxanasında kollektor müdiri, Pedaqoji İnstitutun Kitabxanasının müdir müavini, müdiri vəzifələrində işləmişdir.

İnstitutu bitirdikdən sonra, 1927–1931-ci illərdə M.Rzaquluzadə Gəncə Pedaqoji Texnikumunda, həm də fəhlə fakültəsində ədəbiyyat və pedaqogika-psixologiya müəllimi işləmişdir. Bu dövrdə Gəncə Müəllimlər Evində ədəbiyyat dərnəyinin rəhbəri, "Qızıl Gəncə" jurnalı redaksiya heyətinin və Azərbaycan Proletar Yazıçıları İttifaqı Gəncə şöbəsinin büro üzvü və s. ictimai işlərdə çalışmışdır.

M.Rzaquluzadə 1931–1934-cü illərdə Moskvada İkinci Dövlət Universiteti yanında olan Pedaqoji Psixologiya-Pedologiya Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır. O, eyni zamanda SSRİ Xalq Komissarları Şurası yanında qanun və qərarlar nəşriyyatının Azərbaycan şöbəsində tərcüməçi və stenoqrafiya kurslarında ədəbiyyat müəllimi işləmişdir. M.Rzaquluzadə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda uşaq ədəbiyyatı sahəsində elmi işçi, Azərnəşrdə tərcüməçi və redaktor olmuş, qısa fasilələrlə "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında məsul katib, Azərbaycanfilm kinostudiyasında, Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətində baş redaktor, Azərbaycan jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində çalışmışdır.

M.Rzaquluzadə ədəbi fəaliyyətə 1923-cü ildə "Abdulla Şaiq" kitabçasında çıxan "Müəllim" şeiri ilə başlamışdır. İlk məqaləsi isə 1926-cı ildə "Maarif işçisi" jurnalında "Çocuq ədəbiyyatında üsul məsələsi" adı ilə dərc olunmuşdur. M.Rzaquluzadə müxtəlif mövzularda yazıb-yaratsa da, 1945-ci ildən başlayaraq, əsasən, uşaqlar və gənclər üçün əsərlər yazmışdır. Nasir tərcümə yaradıcılığına da geniş yer vermiş, dünya xalqlarının ədəbiyyatından tərcümələr etmişdir.

M.Rzaquluzadə "Gənclik" nəşriyyatının, "Göyərçin", "İnqilab və mədəniyyət" (sonralar "Azərbaycan") jurnallarının, "Azərbaycan dilinin izahlı lüğəti"nin redaksiya heyətinin, Azərbaycan Yazıçılar İttifaqı qəbul komissiyasının üzvü olmuşdur. Ədəbiyyat sahəsində xidmətlərinə görə iki medal, üç dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə, Çuvaş MSSR Mədəniyyət Nazirliyinin və digər təşkilatların fəxri tərifnamələri ilə təltif edilmişdir.

Mikayıl Rzaquluzadə 1984-cü il noyabrın 10-da Bakıda vəfat etmişdir.



## Mirvarid Dilbazi



**Mirvarid Dilbazi** – Azərbaycanın ilk qadın Xalq şairəsi, Əməkdar mədəniyyət işçisi.

Mirvarid Paşa qızı Dilbazi 1912-ci il avqustun 19-da Qazax rayonunun Xanlıqlar (indiki Musaköy) kəndində anadan olmuşdur. O, Azərbaycan Pedaqoji İnstitutunun Dil və Ədəbiyyat-İctimaiyyət fakültəsində təhsil almışdır. İnstitutu bitirdikdən sonra gənc şairə Quba Partiya Məktəbinə ədəbiyyat müəllimi təyin olunmuşdur. İki ildən sonra Bakıya qayıdan Mirvarid xanım 1934–1938-ci illərdə Azərbaycan EA-nın Əlyazmaları fondunda şöbə müdiri, 1938–1940-cı illərdə Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi vəzifələrində çalışmışdır.

"Qadınların hürriyyəti" adlı ilk şeiri 1927-ci ildə "Oktyabr alovları" adlı məcmuədə dərc edilmişdir. Bu dərgidə şairənin keçən əsrin 20-ci illərinin sonlarında yazılmış, Azərbaycan qadınlarının yeni həyat yollarını tərənnüm edən "Zəhra", "Qurtuluş", "Qadın" kimi şeirləri dərc olunmuşdur. Böyük Vətən müharibəsi illərində Mirvarid Dilbazi yaradıcılığında vətəni müdafiə mövzusu əsas yer tutmuşdur. Bu illərdə şairənin yeddi kitabı çap olunmuşdur ki, bunların altısı Böyük vətən müharibəsinə həsr edilmişdir. O, "Məhsəti" (1945), "Əlcəzairli qız" (1961), "Partizan Aliyə" (1972) poemalarının müəllifidir. Mirvarid Dilbazinin 70–80-ci illərdə "Bənövşələr üşüyəndə" (1970), "Ana qanadı" (1972), "Dağ çiçəyi", "Seçilmiş şeirlər" (1979) şeir kitabları və nəhayət, 3 cilddə "Seçilmiş əsərləri"(1982–84) çap olunmuş, ona Azərbaycanın Xalq şairəsi fəxri adını qazandırmışdır.

M.Dilbazi N.Gəncəvi, X.Şirvani, Ə,Nəvai, A.Puşkin, T.Şevçenko, N.Tixonov, S.Marşak, S.Mixalkov və başqa şairlərin əsərlərini, Evripidin "İppolit" faciəsini dilimizə tərcümə etmişdir. Şairənin öz əsərləri də xarici dillərə tərcümə olunmuşdur.

Mirvarid Dilbazi 2001-ci il iyulun 12-də vəfat etmişdir.

## Niyazi



**Niyazi Tağızadə Hacıbəyov** – ictimai xadim, dirijor, bəstəkar.

Niyazi Zülfüqar oğlu Tağızadə - Hacıbəyov 1912-ci il avqustun 20-də Tiflisdə ziyalı ailəsində dünyaya gəlib. Atası Zülfüqar Hacıbəyov Azərbaycanda musiqili teatrın banilərindən biridir. Niyazinin musiqi sənətini seçməyində istedadı ilə yanaşı, Üzeyir bəyin də əvəzsiz rolu olub.

Gənc Niyazi öncə Cənubi Qafqaz hərbi-hazırlıq məktəbində təhsil almış və həmin vaxtda Y.Şefferlinq, sonra isə professor S.Bretantskidən skripka çalmağı öyrənməyə başlamışdı. Lakin 1926-cı ildə Niyazi Ü.Hacıbəylinin məsləhəti ilə Moskvaya gedir və orada Qnesinlər adına musiqi-pedaqoji texnikumunda, görkəmli musiqiçi və müəllim Mixail Fabianoviç Qnesinin (1883–1957) sinfində musiqi təhsilinə başlayır.

Niyazinin M.F.Qnesinin rəhbərliyi altında məşğul olduğu illər gərgin əmək və bəstəkarlıq sənəti xüsusiyyətlərinin öyrənilməsi dövrü idi. 1929–1931-ci illər ərzində Niyazi Leninqrad (Sankt-Peterburq) mərkəzi musiqi texnikumunda Q.Popovun və P.Ryazanovun rəhbərliyi altında bəstəkarlıq məşğələlərini davam etdirdi. Həmin dövrdə Niyazi gənc



Azərbaycan bəstəkarı Asəf Zeynallı ilə birlikdə Leninqradda (Sankt-Peterburqda) Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsertlərin təşkil edilməsi və keçirilməsi sahəsində mühüm işlər gördü. Lakin Leninqradın iqlimi Niyazinin səhhətinə pis təsir etdiyi üçün orada təhsilini davam edə bilmir.

1933-cü ilin ortalarında Niyazi Bakıya qayıtdı. Burada o, müəyyən müddət ərzində Azərbaycan Dövlət Konservatoriyasının aspiranturasında professorlar L.Rudolfun və S.Ştrasserin rəhbərliyi altında məşğul oldu. Niyazi bəstəkarlıq fəaliyyətinə məhz həmin dövrdə başlamışdır. O, öz qüvvəsini müxtəlif janrlarda sınamış, tezliklə ilk əsərləri olan "Od içində" fortepiano poemasını, Talış mövzularında fortepiano pyesləri silsiləsini və Azərbaycan simfonik musiqisinin ilk nümunələrindən biri olan "Zaqatala süitası"nı yaratmışdır.

1935-ci ildə ilk dəfə olaraq Azərbaycan xalq musiqisinin klassik nümunələrini – "Rast" və "Şur"u nota köçürür. Niyazi Zülfüqar Hacıbəyovun "Aşıq Qərib", Üzeyir Hacıbəylinin "Arşin mal alan" və s. əsərlərinin yeni redaksiyalarını hazırlamış, Azərbaycan xalq mahnılarını ("Xumar oldum", "Qaragilə", "Ay bəri bax", "Küçələrə su səpmişəm" və s.) simfonik orkestr üçün işləmişdir, 1944-cü ildə ikihissəli "Qəhrəmanlıq" simfoniyası üzərində işini bitirmişdir.

Azərbaycan musiqisində ilk simfonik əsərlərin müəlliflərindən olan Niyazi milli simfonizmin təşəkkülü və inkişafında əhəmiyyətli rol oynamışdır. Niyazinin 1942-ci ildə yazdığı "Xosrov və Şirin" operası çoxplanlı musiqi dramaturgiyası, psixoloji gərginliyi, xor səhnələri və opera epizodlarının ifadəliliyi ilə fərqlənir. Onun 1949-cu ildə yazdığı "Rast" simfonik muğamı dramaturji bitkinliyi, güclü emosional təsiri, zəngin melodikası, xüsusilə harmonik dilinin əlvanlığı və ifadəliliyi ilə geniş şöhrət qazanmışdır. "Rast" müəllifin idarəsi ilə bir çox xarici ölkələrdə səslənmiş, Çexiyada "Suprafon", ABŞ-da "Rikordi" musiqi şirkətləri tərəfindən qrammofon valına yazılmışdır. 1951–1952-ci illərdə Azərbaycan Dövlət

Akademik Opera və Balet Teatrının dirijoru işləmiş Niyazi 1951-ci və 1952-ci illərdə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Azərbaycan milli dirijorluq məktəbinin formalaşması və inkişafı Niyazinin adı ilə bağlıdır. Niyazi Azərbaycan dirijorluq məktəbinin banisidir. Onun yozumunda milli bəstəkarların bir çox əsərləri, o cümlədən Ü.Hacıbəylinin "Koroğlu" operası dünya musiqisinin qızıl fonduna daxil olmuşdur. Niyazi M.Maqomayevin "Nərgiz", Q.Qarayev və C.Hacıyevin "Vətən", F.Əmirovun "Sevil", P.Çaykovskinin "Qaratoxmaq qadın", A.Borodinin "Knyaz İqor", J.Bizenin "Karmen", C.Puççininin "Bohema", B.Smetananın "Satılmış gəlin" operalarını, S.Hacıbəyovun "Gülşən", Q.Qarayevin "7 gözəl", "İldırımlı yollarla" baletlərini tamaşaya hazırlamışdır.

1959-cu ildə SSRİ Xalq artisti adına layiq görülən Niyazi 1961-ci ildə S.M.Kirov adına Leninqrad Opera və Balet Teatrının baş dirijoru təyin olunmuşdur. SSRİ-nin ən məşhur teatrlarından birinə rəhbərlik etmək o dövrdə onun bir musiqiçi kimi böyük nüfuzundan xəbər verirdi. O burada A.Məlikovun "Məhəbbət əfsanəsi" baletinin ilk tamaşasını hazırlamışdır. Niyazi, həmçinin P.Çaykovskinin "Yatmış gözəl" və S.Prokofyevin "Daş çiçək" baletlərinin yeni quruluşuna dirijorluq etmiş, həmin baletlərlə Parisin "Qrand-Opera", Londonun "Kovent-Qarden" teatrlarında qastrol tamaşaları vermiş və böyük uğur qazanmışdır.

Müqavilə əsasında xarici ölkələrdə işləmək təklifi alan dirijor ona bir azərbaycanlı kimi doğma olan Türkiyəni seçmişdir. Niyazi P.Çaykovskinin "Yevgeni Onegin" və "Qaratoxmaq qadın", C.Verdinin "Aida" operalarına Ankara Opera və Balet Teatrında, türk bəstəkarı Ə.Sayqunun "Koroğlu" operasına İstanbul Opera Teatrında ilk quruluş vermiş, onun ilk tamaşasına və "Yunus İmrə" oratoriyasına dirijorluq etmişdir.

İfaçılıq sənəti müxtəlif ölkələrin tanınmış sənətkarları tərəfindən yüksək qiymətləndirilən Niyazi 1961–1965-ci illərdə Azərbaycana qayıdaraq Dövlət Akademik Opera və Balet Teatrının bədii rəhbəri və baş dirijoru təyin edilmişdir. Niyazinin "Konsert valsı" və s. simfonik əsərləri, fortepiano ilə orkestr üçün konserti klassik musiqi əsərləri hesab olunur. "Təbrizim", "Dağlar qızı", "Vətən haqqında mahnı", "Arzu" mahnıları Niyaziyə məxsusdur. Niyazi, Ə. Haqverdiyevin "Dağılan tifaq", C.Cabbarlının "Almas", S.Vurğunun "Vaqif", A.Korneyçukun "Polad qartal" tamaşalarına, həmçinin "Almas", "Kəndlilər", "Fətəli xan" və s. kinofilmlərinə musiqi yazmışdır.



Niyazi 1951-ci ilin əvvəllərində səmərəli ifaçılıq fəaliyyətinə görə SSRİ Dövlət mükafatına, Avropa və Asiyanın bir sıra ölkələrində dirijor kimi uğurlu çıxışlarına görə 1959-cu ildə SSRİ Xalq artisti adına, 1967-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan SSR Dövlət mükafatı laureatı adına layiq görülüb. Niyazi məşhur hind yazıçısı R.Taqorun "Çitranqoda" fəlsəfi dramı üzrə "Çitra" baletini yazmışdır. Bu balet bir çox şəhərlərdə böyük uğurla nümayiş etdirilmişdir. Baletdə Niyazi hind xalq musiqisinin ritm və intonasiyalarından, orkestrovkada hind musiqi alətlərinin səslənməsini xatırladan tembrlərdən istifadə etmişdir. 1974-cü ildə Niyaziyə "Çitra" baletinin musiqisinə görə Cəvahirləl Nehru adına beynəlxalq mükafat verildi. Hindistanın musiqi ictimaiyyəti arasında "Çitra" baleti "hind və sovet xalqlarının dostluğunun poetik rəmzi" adlandırılırdı.

Niyazi Azərbaycan musiqisinin ifaçılıq problemlərinə dair bir çox məqalələrin müəllifidir. O, həmçinin Azərbaycan Sovet Ensiklopediyasının redaksiya şurasının üzvü olmuşdur. Niyazi 1979-cu ildə Azərbaycan Dövlət Filarmoniyasının direktoru təyin olunmuş, 1982-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Niyazi 1984-cü il avqustun 2-də Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

## Rəmzi Yüzbaşov



**Rəmzi Yüzbaşov** – coğrafiya elmləri namizədi.

Rəmzi Möhsün oğlu Yüzbaşov 5 may 1906-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. Kiçik yaşlarında valideynlərini itirdiyindən xalasının himayəsində böyümüşdür. R.Yüzbaşov 1913-cü ildə rus-tatar məktəbinə daxil olmuş, 1917-ci ildə oranı bitirmişdir. Həmin il o, Şamaxı realnı məktəbinə qəbul olmuşdur. R.Yüzbaşov 1919-cu ildə Bakıda Birinci realnı məktəbində təşkil edilmiş milli (3-cü) sinfə daxil olmuş və 1924-cü ildə ikincidərəcəli məktəbi bitirmişdir.

R.Yüzbaşov 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin şərq fakültəsinə daxil olmuş, 1931-ci ildə Ali Pedaqoji İnstitutu (1930-cu ildə universitet ayrı-ayrı institutlara ayrılmışdı) bitirdikdən sonra, qısa müddət Gədəbəydə məktəb müdiri vəzifəsində çalışmışdır. O, 1931–1933-cü illərdə Azərbaycan SSR Maarif Komissarlığında təlimatçı, 1933–1938-ci illərdə Bakıda Xalq Maarif Komissarlığında inspektor vəzifələrində işləmişdir. Eyni zamanda 1935–1936-cı illərdə Azərbaycan Şura Ensiklopediyası idarəsində elmi işçi vəzifəsində də çalışan R.Yüzbaşov 1938-ci ildə Akademiyanın Azərbaycan filialının fiziki-coğrafiya ixtisası üzrə aspiranturasına daxil olmuş, oranı 1941-ci ildə bitirmişdir. Dissertasiya müdafiəsinə az bir zaman qalmış Böyük Vətən müharibəsi başlamış və R.Yüzbaşov Böyük Vətən müharibəsində iştirak etmişdir. Bu dövrdə o bir dəfə kontuziya almış, bir dəfə də yaralanaraq əsir düşmüşdü.



R.Yüzbaşov 1945–1948-ci illərdə EA-nın Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində elmi hissə üzrə direktor müavini və elmi işçi vəzifələrində çalışmışdır. Müharibə zamanı əsir düşdüyü üçün işə alınmayan alim 1948–1951-ci illərdə işsiz olub.

R.Yüzbaşov 1951–1953-cü illərdə EA nəşriyyatında redaktor, 1953–1958-ci illərdə Nizami adına Ədəbiyyat və Dil İnstitutunda elmi işçi vəzifələrində çalışmışdır. 1958-ci ildən EA Coğrafiya İnstitutunda çalışan Rəmzi Yüzbaşov 1962-ci ildə coğrafiya elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmiş, 1973-cü ildən həmin institutun Coğrafi adlar (toponimika) şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

R.Yüzbaşov Azərbaycan dilinin təmizliyi, onun dövlət dili səviyyəsinə yüksəldilməsi, hökumət idarələrində işlədilməsi uğrunda daim çalışmışdır. O, qorxmadan dəfələrlə bu məsələlər üzrə respublikanın və SSRİ-nin dövlət və partiya başçılarına, əlaqədar hökumət idarələrinə, yerli və ittifaqəhəmiyyətli qəzet, jurnal redaksiyalarına, radio və televiziya redaksiyalarına, görkəmli ziyalılara müraciət etmişdir. Bu fəaliyyətinə görə o çox məhrumiyyətlərə məruz qalmış və uzun müddət DTK tərəfindən təqib olunmuşdur.

Rəmzi Yüzbaşov 1918-ci ildə ermənilərin Şamaxı şəhəri əhalisinə tutduğu divanın, törətdikləri qırğının və zorakılıqların canlı şahidi olmuşdu. İstənilən üsullarla türklərə hər zaman zərər, zərbə vurmaq istəyən, tarixi saxtalaşdıran erməni şovinistlərinin məkrli hərəkətlərinə qarşı Rəmzi Yüzbaşov daim mübarizə aparmış və ali orqanlara göndərdiyi məktublarla onlara tutarlı cavablar vermişdir. Hələ Sovet dövründə o, ermənilərin Azərbaycan ərazisində azərbaycanlılara qarşı törətdiyi qırğını "soyqırımı" adlandırmış və onun rəsmən belə qəbul olunmasına dair məqalə və oçerklər yazmışdır.

Rəmzi Yüzbaşov 31 oktyabr 1990-cı ildə dünyasını dəyişmişdir.

## Ruhulla Axundov



**Ruhulla Axundov** – dövlət xadimi, alim, publisist.

Ruhulla Əli oğlu Axundov 13 yanvar 1897-ci ildə Bakının Şüvəlan qəsəbəsində müəllim ailəsində anadan olmuşdur. Mədrəsədə, Realnı məktəbdə, Ticarət məktəbində oxumuşdu. R.Axundov 1916-cı ildən Bakı mətbəələrində korrektor və tərcüməçi kimi çalışmışdır.

Ruhulla Axundov 1918-ci ildə "Bakı ətrafı fəhlə, əsgər və matros şurasının əxbarı"nın, 1919-cu ildə Azərbaycan dilində çıxan "Kommunist", "Hürriyyət", "Bakinski raboçi" qəzetlərinin və "İnqilab və mədəniyyət" jurnalının redaktoru olmuşdur. O, həmçinin respublikada nəşr olunan "Qızıl əsgər" qəzeti və "Savadlı qırmızı əsgər" jurnalının işində yaxından iştirak edib. Ruhulla Axundov partiyanın ikinci proqramını və Kommunist İnternasionalı 1-ci konqresinin manifestini Azərbaycan dilinə tərcümə etmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Ruhulla Axundov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində şöbə müdiri, daha sonra katib, Azərbaycan SSR maarif komissarı, Azərnəşrin direktoru olmuş, 1930-cu ildə Kommunist Partiyası Zaqafqaziya Ölkə Komitəsinin katibi



seçilmişdir. Azərbaycan SSR və SSRİ MİK-lərinin bütün çağırışlarının üzvü seçilmişdir.

Ruhulla Axundov ömrünün son illərində SSRİ EA-nın Azərbaycan Filialında, Mərkəzi Komitə yanında Partiya Tarixi İnstitutunda işləmiş, Azərbaycan SSR XKS yanında İncəsənət işləri idarəsinin rəisi olmuşdur.

İkicildlik "Rusca-türkcə lüğət"in (1928–1929) tərtibçilərindən biri və redaktoru olan Ruhulla Axundov Azərbaycan dilində siyasi terminologiya yaradılması və yeni əlifbaya keçilməsində mühüm rol oynamışdır. O, tarix, ədəbiyyat və incəsənətə aid bir sıra əsərin müəllifidir.

Moskvada Marksizm-Leninizm İnstitutuna daxil olan Ruhulla Axundov təhsilini başa vurub Azərbaycana qayıdır və yenidən partiya onu məsul vəzifələrə irəli çəkir. Kommunist Partiyası Zaqafqaziya Ölkə Komitəsinin katibi seçiləndən sonra o, Tiflisə köçür. 1933-cü ildən fəaliyyətini Bakıda davam etdirir. Ruhulla Axundov 17 dekabr 1937-ci ildə əksinqilabçı millətçi təşkilatın üzvü kimi həbs edilir, həmin gün də partiya üzvlüyündən azad edilir. R.Axundov 1937-ci ilin sentyabrında Moskvaya göndərilir, trotskiçi kimi mühakimə olunur, 1938-ci ildə güllələnir.

## Səftər Quliyev



**Səftər Quliyev** – texnika elmləri doktoru, professor, Azərbaycan EA-nın həqiqi üzvü.

Səftər Mehdi oğlu Quliyev Bakı şəhərində anadan olmuşdur. O, 1930-cu ildə "Neft və qaz quyularının qazılması" ixtisası üzrə AZPİ-ni bitirmişdir. S.Quliyev 1928–1942-ci illərdə Azərneft İB-nin qazma müəssisələrində texnik vəzifəsində əmək fəaliyyətinə başlayaraq baş mühəndisə qədər müxtəlif vəzifələrdə işləmişdir. 1932–1960-cı illərdə AzNKİ-nin "Neft və qaz quyularının qazılması" kafedrasında assistent, dosent, professor və kafedra rəhbəri olmuşdur.

S.Quliyev 1939-cu ildə "Qazma boruları dəstəsinin tarazlığının dayanıqlı formaları barədə" mövzusunda namizədlik, 1948-ci ildə isə "Neft quyuları üçün çınqıllı filtrlər" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. O, 1945-ci ildə Azərbaycan EA-nın yenidən yaradılmış Neft institutunda elmi işlər üzrə direktor müavini təyin edilmiş, 1955-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1959-cu ildə isə həqiqi üzvü seçilmişdir. 1960–1971-ci illərdə – Azərbaycan EA DNQYPİ-nin direktoru olmuşdur.

S.Quliyev neft və qaz quyularının qazılması sahəsində görkəmli alim, çox dərin qazma üsulunu ilk tətbiq edənlərdən biri, neft və qaz hasilatı sənayesi sahəsində Azərbaycan dilində elmi-texniki terminologiyanın yaradıcısıdır.



S.Quliyev 170-dən artıq elmi məqalənin, 20 monoqrafiyanın və bir sıra dərsliklərin müəllifidir. O, Azərbaycanın Əməkdar elm xadimi, SSRİ Fəxri neftçisi adlarına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" ordeni və bir çox medallarla mükafatlanmışdır.

## Şəmsi Bədəlbəyli



**Şəmsi Bədəlbəyli** – aktyor, rejissor, Azərbaycan SSR Xalq artisti, Əməkdar incəsənət xadimi.

Şəmsi Bədəlbəy oğlu Bədəlbəyli 1911-ci ildə Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərində görkəmli pedaqoq və ictimai xadim Bədəlbəy Bədəlbəylinin və Rəhimə xanım Qacarın ailəsində dünyaya gəlmişdir. Orta məktəbi bitirdikdən sonra Şəmsi Bədəlbəyli Azərbaycan Pedaqoji Texnikumuna daxil olur. Bu illərdə o, böyük həvəslə özfəaliyyət dərnəyində iştirak edir, aktyorluq istedadını sınayır.

Ş.Bədəlbəyli 1927-ci ildə Azərbaycan Pedaqoji Texnikumunun məzunu olur. 1927–1932-ci illərdə o, Azərbaycan Dövlət Konservatoriyasında təhsil alır: iki il xalq çalğı alətləri şöbəsində, daha sonra kompozisiya nəzəriyyəsi sinfində Üzeyir Hacıbəylinin tələbəsi olur. Ş.Bədəlbəyli həmin illərdə Azərbaycan Dövlət Dram Teatrında böyük qardaşı, bəstəkar və dirijor Əfrasiyab Bədəlbəylinin rəhbərlik etdiyi orkestrdə tar çalır. Ş.Bədəlbəyli 1932-ci ildən 1942-ci ilə kimi Azərbaycan Dövlət Dram Teatrında rejissor assistenti, sonralar rejissor

kimi fəaliyyət göstərir. 1930–1932-ci illərdə o, "Gənc işçi" qəzeti redaksiyasında "İncəsənət və ədəbiyyat" şöbəsinin müdiri vəzifəsində çalışır, həmin qəzetin səhifələrində bir sıra tamaşalar haqqında məqalələri dərc olunur.

1933-cü ildə Ş.Bədəlbəyli Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən Moskvaya rejissorluq üzrə təcrübə işinə göndərilir. O, Moskvanın Malı Teatrında Şillerin "Don Karlos" əsərinin hazırlığında görkəmli rejissor K.Marcanaşvilinin rəhbərliyi altında rejissor assistenti kimi təcrübə keçir. Həmçinin İnqilab Teatrında rejissor A.Popovun yaradıcılıq emalatxanasında öz təcrübəsini zənginləşdirir, dramaturq N.Poqodinin "Mənim dostum" əsərinin tamaşasının hazırlanmasında iştirak edir.

Ş.Bədəlbəyli 1936-cı ildə Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Dram Teatrında rejissor kimi fəaliyyətini davam etdirir. Bir sıra səhnə əsərlərinin tamaşalarına quruluş verir. Cəfər Cabbarlının "1905-ci ildə", "Od gəlini" əsərlərinin tamaşalarının hazırlanmasında Şəmsi Bədəlbəyli rejissor assistenti kimi iştirak edir. Xüsusilə, onun M.F.Axundovun "Müsyo Jordan və dərviş Məstəli şah" komediyasının səhnələşdirilməsi üzrə (rejissor M.Zeynalovla birgə) yaradıcılıq işi klassik komediyanın müasir təfsiri kimi qiymətləndirilir.

Sonrakı illərdə Ş.Bədəlbəyli digər teatrlarda çalışsa da, Azərbaycan Dövlət Dram Teatrı ilə yaradıcılıq əlaqələrini davam etdirmiş, bu səhnədə yeni-yeni əsərlər tamaşaya qoymuşdur. 1941–1942-ci illərdə sovet ordusunun hissələri tərkibində İrana göndərilən Ş.Bədəlbəyli "Qırmızı Şərq", "Vətən uğrunda" qəzetlərinin müxbiri kimi Təbrizdə fəaliyyət göstərir.

1943-cü ildə Ş.Bədəlbəyliyə Azərbaycan incəsənətinin inkişafında böyük nailiyyətlərinə görə Əməkdar incəsənət xadimi fəxri adı verilir. 1943–1949-cu illərdə Azərbaycan



Dövlət Musiqili Komediya Teatrında bədii rəhbər vəzifəsinə təyin olunan Ş.Bədəlbəyli bu teatrın səhnəsində 1947-ci ildə Ü.Hacıbəylinin "O olmasın, bu olsun", 1956-cı ildə "Arşın mal alan" musiqili komediyalarına yeni quruluş vermişdir.

Ş.Bədəlbəyli 1949–1956-cı illərdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru və bədii rəhbəri olmuşdur. 1950-ci il və sonrakı illərdə o, müxtəlif bayramlar və dövlət tədbirləri çərçivəsində konsertlərə quruluşlar verir. (1950 və 1959-cu illərdə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüklərinin konsertləri və s.)

Həmin dövrdən Ş.Bədəlbəyli Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına da rejissor kimi dəvət olunur və bir sıra opera tamaşalarını səhnələşdirir: 1952-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Üzeyir Hacıbəylinin "Koroğlu" operasına yeni quruluş verir. Ş.Bədəlbəyli 1951-ci ildə Azərbaycan SSR Nazirlər Soveti nəzdində İncəsənət işləri idarəsi tərəfindən Azərbaycan Dövlət Mahnı və rəqs ansamblının yaradıcı heyətinin ifaçılıq məharətini professional səviyyəyə yüksəltmək üçün Komissiyanın sədri təyin olunur.

Ş.Bədəlbəyli 1953-cü il 15 noyabrdan 1954-cü il 15 mayadək A.N.Ostrovski adına Leninqrad Dövlət Teatr İnstitutunda ixtisasartırma təlimi keçir və professional rejissor kimi təcrübəsini artırır. 1956–1959-cu illərdə o, yenidən Azərbaycan Dövlət Musiqili Komediya Teatrında bədii rəhbər və direktor vəzifəsində çalışır. Şəmsi Bədəlbəyli 1959–1965-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru və baş rejissoru təyin olunur. 1964-cü ildə mədəniyyət və incəsənət sahəsində xidmətlərinə görə Xalq artisti adına layiq görülüb. 1965–1974-cü illərdə Şəmsi Bədəlbəyli təkrarən Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və

bədii rəhbəri vəzifəsində çalışmışdır. 1976-cı ildə o, Azərbaycan Teatr Cəmiyyəti İdarə Heyətinin sədri seçilir.

1978-ci ildə Ş.Bədəlbəylinin təşəbbüsü ilə Bakıda Azərbaycan Teatr Cəmiyyətinin nəzdində "Dostluq" teatrı yaradılır, burada müxtəlif respublikaların tanınmış teatr kollektivlərinin qastrol tamaşaları təşkil olunur.

Şəmsi Bədəlbəyli 24 may 1987-ci ildə vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

## Süleyman Rüstəm



**Süleyman Rüstəm** – şair, dramaturq, ictimai xadim, Əməkdar incəsənət xadimi.

Süleyman Əliabbas oğlu Rüstəmzadə 1906-cı il martın 12-də Bakının Novxanı kəndində dəmirçi ailəsində dünyaya gəlmişdir. O, 1922–1924-cü illərdə N.Nərimanov adına Sənaye Texnikumunda oxumuş, 1925-ci ildə Azərbaycan Dövlət Universitetinin şərq fakültəsinə daxil olmuşdur. 1929-cu ildən təhsilini 1-ci Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsində davam etdirən Süleyman Rüstəm "Gənc işçi", "Komsomol", "Gənc bolşevik", "Maarif və mədəniyyət" və s. qəzet və jurnallarda əməkdaşlıq etmişdir. S.Rüstəm 1937–1938-ci illərdə Azərbaycan Dövlət Dram Teatrının direktoru, 1955–1956-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin redaktoru vəzifələrini icra etmişdir.



S.Rüstəm ədəbi fəaliyyətə hələ texnikumda oxuduğu zaman başlamış, "Çimnaz xanım yuxudadır" (1922) adlı birpərdəli komediya yazmışdır. "Unudulmuş gənc" adlı ilk mətbu şeiri 1923-cü ildə "Maarif və mədəniyyət" jurnalında dərc olunmuşdur. Həmin vaxtdan o, dövrün mürəkkəb ədəbi-ictimai həyatında fəal iştirak etmiş, "Gənc Qızıl Qələmlər İttifaqı"nın (1925) təşkilatçılarından olmuşdur. Süleyman Rüstəm 1928–1929-cu illərdə Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin məsul katibi işləmişdir.

XX əsrin 60–80-ci illəri S.Rüstəmin yaradıcılığında yeni inkişaf mərhələsidir. Bu illərdə şairin "Günəşli sahillərdə" (1963), "Bahar düşüncələri" (1964), "Bir az da məhəbbətdən" (1965), "Keçilməmiş yollarla" (1970), "Xəzərimin səhəri" (1976), "Ürəyimin gözüylə" (1977), "Vətən təranələri" (1980), "Mənim günəşim" (1981) və s. kitabları işıq üzü görür.

Ş.Rüstəm dramaturgiya sahəsində də çalışmışdır. O, "Yanğın" (H.Nəzərli ilə birgə, 1930), "Qaçaq Nəbi" (1940) pyeslərinin, "Durna" komediyasının müəllifidir.

Şair N.Gəncəvinin, Ş.Rustavelinin, A.S.Puşkinin, A.S.Qriboyedovun, M.Y.Lermontovun, T.Q.Şevçenkonun, V.Mayakovskinin, N.Hikmətin, U.Uitmenin və başqalarının bir sıra əsərlərini Azərbaycan dilinə çevirmişdir.

Süleyman Rüstəm 1989-cu il iyunun 10-da dünyasını dəyişmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

## Süleyman Vəzirov



**Süleyman Vəzirov** – Azərbaycan dövlət xadimi, Əməkdar elm xadimi.

Süleyman Vəzirov 1910-cu ildə Şuşada ziyalı ailəsində dünyaya gəlib. Süleyman Vəzirov 1918-ci ildən Şuşa Real məktəbində oxuyur, sonra Bakı Sənaye-iqtisad texnikumuna daxil olur. 1928-ci ildə Süleyman Vəzirov Azərbaycan Politexnik İnstitutunun Dağ-mədən fakültəsinə daxil olur və oranı 1932-ci ildə müvəffəqiyyətlə başa vurur. Süleyman Vəzirov yüksəkixtisaslı bir mühəndis kimi Pirallahı, Lökbatan, Qaraçuxur kimi neft-qaz yataqlarının işlənilməsində çalışmaqla yetişmişdir. Bir neçə il ərzində o, ixtisasının bütün pillələrini keçərək mühəndis, böyük mühəndis, trestin baş mühəndisi vəzifələrində çalışaraq kamil mütəxəssisə çevrilmişdi.

S.Vəzirov 1935–1937-ci illərdə "Molotovneft" trestində indiki Əmirov adına Neftqazçıxarma İdarəsi mədən müdirinin müavini, 1937–1940-cı illərdə "Kaqanoviçneft" trestinin – indiki Suraxanı Neftqazçıxarma idarəsi baş mühəndisi vəzifələrində çalışmışdır.

Özünə və tabeliyində olanlara qarşı tələbkarlıq, əməksevərlik, insanlarla iş görmək qabiliyyəti onun 1940-cı ildə o vaxt bütün geoloji kəşfiyyat işlərini, qazma, neftçıxarma və emal, habelə iri tikinti təşkilatlarını özündə birləşdirən Azneftkombinata baş mühəndis vəzifəsinə irəli çəkilməsinə səbəb olmuşdur.



1942-ci ildə S.Vəzirov Azneftkombinata rəhbər təyin edildi. S.Vəzirov Azneftkombinatın ilk azərbaycanlı rəhbəri idi. Bu isə çox şey demək idi. Müharibənin ağır illərində dahi neftçi və təşkilatçı olmaq lazım idi ki, qarşıya çıxan və eləcə də çıxa biləcək çətinliklərin öhdəsindən gələ biləsən. Bu çətin dövrdə cəbhənin və arxanın yanacağa və sürtkü yağlarına olan ehtiyacının ödənilməsi, arxa cəbhədə zavod və fabriklərin istehsal profilinin dəyişdirildiyi səbəbindən vəziyyətdən çıxmaq üçün yeni sahələrin yaradılması, lazım gəldikdə isə kadrların qorunması kimi müxtəlif məsələlərin həll edilməsi lazım gəlirdi. Müharibənin alovları içində yanan ölkədə Bakı neftinin cəbhəyə çatdırılması lazım idi. Yanacaq və neft məhsullarının daşındığı yollar düşmənin əlində idi. Neft və neft məhsullarının daşınması üçün yalnız bir yol qalırdı, o da Bakıdan Xəzər dənizi ilə Krasnovodska. Lakin Krasnovodskda neftin saxlanılması üçün çənlər yox idi. S.Vəzirov Bakıda mövcud neft çənlərini dənizdə tankerlərin yedəklərində Krasnovodska aparılması təklifi ilə bu məsələni çox sadə bir yolla həll etdi. Bütün bu çətinliklərə baxmayaraq Azərbaycan neftçiləri 1941–1945-ci illərdə 75 mln. ton neft, 22 mln. ton benzin və digər neft məhsulları istehsal edərək plan tapşırığını xeyli üstələmişdilər.

1946-cı ildə S.Vəzirov SSRİ Nazirlər Sovetinin təsdiqi ilə "Ölkənin cənub və qərb rayonlarında neft hasilatı üzrə Baş İdarənin" rəisi vəzifəsinə təyin edilir. Bu təyinatdan sonra SSRİ-nin neft yataqlarının yarısı – Qroznı, Kuban, Ukrayna – onun fəaliyyət sferasına daxil oldu. SSRİ-nin neft sənayesinin məhz bu hissəsi müharibə zamanı tam dağıdılmışdı. S.Vəzirovun başçılığı və bilavasitə iştirakı ilə çox qısa müddətdə mədənlər bir-birinin ardınca bərpa edilərək yataqların işlənilməsi davam etdirilməyə başladı. 1949-cu ilin mart ayında şəxsən Stalinin

imzaladığı əmrə əsasən S.Vəzirov Türkmənneft Birliyinin müdiri təyin edilmişdi.

Respublika hökumətinin zəmanəti ilə SSRİ Nazirlər Soveti 1954-cü ildə Azərbaycan SSR Neft Sənayesi Nazirliyini yaratdı. Azərbaycan Sov.KP-nin birinci katibi İmam Mustafayev S.Vəzirovu yenidən respublikaya dəvət etdi və onu 1954-cü ildə Azərbaycanın birinci neft sənayesi naziri təyin etdi.

Süleyman Vəzirov 1958-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsinə irəli çəkilmiş, 1959-cu ildə isə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri təyin edilmişdi.

Neft və qaz kəmərlərinin sualtı hissəsinin çəkilişində istifadə olunan borudüzən gəmilərdən biri Süleyman Vəzirovun adını daşıyır.

Süleyman Vəzirov 7 fevral 1973-cü ildə Bakıda vəfat etmişdir.

## Tağı Şahbazi Simurq



**Tağı Şahbazi Simurq** – nasir, publisist, Bakı Dövlət Universitetinin ilk azərbaycanlı direktoru.

Tağı Şahbazi Simurq 1892-ci ildə Bakıda anadan olmuşdur. İbtidai təhsilini mollaxanada alan T.Ş.Simurq 1902–1905-ci illərdə İçərişəhərdəki 9 nömrəli məktəbdə, sonra Həbib bəy Mahmudbəyovun müdir olduğu Birinci rus-tatar məktəbində təhsilini davam etdirmişdir. Tağı Şahbazi Realnı məktəbi bitirdikdən bir il



sonra, 1913-cü ildə Bakıda Üçüncü gimnaziyada latın dilindən imtahan verib şəhadətnamə almış, onun əsasında həmin il Xarkov Darülfününunun fizika və riyaziyyat fakültəsinin təbiyyat şöbəsinə daxil olmuşdur. Onun tələbəlik həyatı inqilabi hadisələr mühitində keçib. 1914-cü ildə Darülfünunun tibb şöbəsinə keçməsi onu inqilabçı tələbələrə daha da yaxınlaşdırmışdır. Tağı Şahbazi 1915-ci ildə Sosial-Demokrat Bolşevik firqəsinin tələbə fraksiyasına daxil olmuş, 1917-ci ildə Bakıda Hümmət təşkilatında, 1918-ci ildə Xarkovda "Cənub türk-tatar işçisi" hərəkatında fəal iştirak etmişdir. O, 1919-cu ildə Ukrayna K(b)P MK yanında "Hümmət" müsəlman bürosunun sədri, RSFSR Xalq Milli İşlər Komissarlığı Zaqafqaziya müsəlmanları şöbəsinin katibi, Şərq Xalqları Kommunist təşkilatları bürosunda məlumat şöbəsinin müdiri vəzifələrini tutmuşdur.

Simurq 1922–1923-cü illərdə Azərbaycan Xalq Maarif Komissarının müavini, 1923-cü ildə "Maarif və mədəniyyət" jurnalının redaktoru, 1923–1926-cı illərdə Azərbaycan MİK katibi, 1926–1929-cu illərdə ADU-nun rektoru, 1930–1937-ci illərdə Azərbaycan Xalq Səhiyyə Komissarının müavini vəzifələrində çalışmışdır. Bədii yaradıcılığa inqilabdan əvvəl başlayan Simurq "Haqsızlıq dünyası", "Hacı Salman", "Ağanın kənizi", "Məşədi Qədimin evində bədbəxtlik", "Azadlıq üçün cinayət", "Zərifə", "Küləkli bir axşam" və s. hekayələrinin, "Düşmənlər" povestinin müəllifidir.

11 iyun 1937-ci ildə Tağı Şahbazinin həbs olunması üçün order yazılmış, 11 iyul 1937-ci ildə isə əks-inqibaçı, burjua-millətçi kimi həbs edilmişdir. Məşəqqətli, dözülməz günlərdən sonra, 2 yanvar 1938-ci ildə keçirilən SSRİ Ali Hərbi Kollegiyasının qapalı məhkəməsinin protokolunda göstərilir ki, Tağı Şahbazinin 15:30-da başlanan məhkəməsi saat 15:45-də bitib. 15 dəqiqə keçən məhkəmədə Tağı Şahbaziyə ölüm hökmü çıxarılır.

## Vəli Axundov



**Vəli Axundov** – ictimai-siyasi xadim, Azərbaycan EA-nın akademiki.

Vəli Yusif oğlu Axundov 1916-cı il mayın 14-də Saray kəndində kəndli ailəsində anadan olmuşdur. İlk təhsilini Saray kənd məktəbində alan Vəli Axundov 1929-cu ildə həmin məktəbi bitirərək Biləcəri stansiyasındakı Fabrik-zavod məktəbində təhsilini davam etdirmişdir. O, 1931-ci ildə sənət məktəbini bitirib Bakı Sənaye Texnikumuna daxil olmuş, 1935-ci ildə texnikumun kimya şöbəsini bitirib kimyaçı-texnik peşəsinə yiyələnmişdir. Vəli Axundov təhsilini davam etdirmək və ali təhsil almaq məqsədilə əvvəlcə Azərbaycan Sənaye İnstitutunun hazırlıq kursunda oxumuş, 1937-ci ildə isə Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. Alim institutda oxumaqla yanaşı, ATİ-nin ictimai elmlər kafedrasının laborantı, "Tibbi kadrlar uğrunda" qəzetinin redaktoru və komsomol komitəsinin katibi vəzifələrində çalışmışdır.

V.Axundov 1941-ci ildə ATİ-ni müvəffəqiyyətlə bitirərək orduya çağırılmışdır. O, 1941–1945-ci illər Böyük Vətən müharibəsində 20-ci atıcı diviziyanın tərkibində həkim-əsgərdən xüsusi tibbi-sanitar batalyonunun komandiri vəzifəsinədək yüksəlmiş, Rusiya, Belarus, Almaniya, Çexoslovakiya ərazisində gedən döyüşlərdə iştirak etmişdir.

V.Axundov 1946-cı ildə cəbhədən qayıtmış, Tibb İnstitutunun tibb tarixi kafedrasına assistentliyə qəbul edilmişdir.



Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun elmi işçisi, direktoru vəzifələrinə yüksələn alim az sonra Azərbaycan Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri seçilmiş və 1946–1949-cu illərdə bu vəzifədə çalışmışdır. V.Axundov 1949–1952-ci illərdə Azərbaycan SSR Səhiyyə Nazirinin müavini, 1952–1953-cü illərdə isə Bakı Vilayəti Səhiyyə şöbəsinin müdiri olmuş, 1953–1954-cü illərdə Azərbaycan KP MK-da inzibati, ticarət-maliyyə və plan orqanları şöbəsi müdirinin müavini vəzifələrində işləmişdir. V.Axundov 1954–1958-ci illərdə isə Azərbaycan SSR səhiyyə naziri vəzifəsini tutmuşdur.

V.Axundov 1958-ci ilin fevralında Azərbaycan KP MK katiblərindən biri seçilmiş, həmin ilin iyulunda isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsinə təyin edilmişdir. O, 1959–1969-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsini tutmuşdur.

V.Axundov 1956-cı ildə namizədlik dissertasiyası müdafiə etmiş və SSRİ Ali Attestasiya Komissiyası ona tibb elmləri namizədi, 1964-cü ildə isə tibb elmləri doktoru elmi dərəcəsini vermişdir. 1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının akademiki seçilən alim 1969–1972-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olmuş və akademiyanın səhiyyə sahəsinə rəhbərlik etmişdir. Artıq kifayət qədər yaşlı olduğu bu zamanlarda ingilis dilini sıfırdan öyrənməyə nail olmuş V.Axundov 1972–1986-cı illərdə Q.M.Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru kimi fəaliyyətini sürdürmüşdür.

Vəli Axundov 1986-cı il avqustun 22-də Bakı şəhərində vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

## Yusif Məmmədəliyev



**Yusif Məmmədəliyev** – ictimai və elm xadimi, Azərbaycan EA-nın təsisçilərindən və ilk akademiklərindən biri.

Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci ildə Ordubad rayonunda anadan olmuşdur. 1926-cı ildə Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən bir qədər sonra, 1928–1929-cu illərdə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda və fəhlə fakültəsində müəllim işləyən Yusif Məmmədəliyev İrəvan azərbaycanlılarının ictimai həyatında da fəal iştirak etmişdir. Y.Məmmədəliyev həmin dövrdə Ermənistanda azlıqda qalan millətlərlə iş komissiyasının üzvü olmuş, kütlənin hüquqi vəziyyəti, gənclərin, xüsusən də qızların təhsilə cəlb edilməsi ilə əlaqədar mətbuat səhifələrində çıxış etmişdir.

Y.Məmmədəliyev 1942-ci ildə kimya elmləri doktoru və professor, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasınınn akademiki adlarına layiq görülmüşdür. O, 1945-ci ildə təsis edilən Azərbaycan Elmlər Akademiyasının Neft İnstitutuna rəhbərlik etmişdir. Y.Məmmədəliyev 1951–1954-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Fizika, Kimya və Neft bölməsinin akademik katibi, 1954–1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin rektoru vəzifələrini icra etmişdir. O, 1947–1950-ci və 1958–1961-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Prezidenti olmuşdur.

Y.Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasını yaradanlardan biri olmuşdur. M. Mirqasımov, M. Topçubaşov,



S.Vurğun, M.Hüseynov, Şirokoqorov, Yesmanla bərabər, o, Akademiyanın təsisçisi və Azərbaycanın ilk akademiki olan 15 tanınmış şəxsdən biri idi.

Y.Məmmədəliyevin əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. Alim Azərbaycanda neft kimyasının əsasını qoymuşdur. O, müxtəlif karbohidrogenlərin katalizator iştirakı ilə xlorlaşdırılma və bromlaşdırılmasının yeni üsullarını təklif etmiş, neft qazlarını, xüsusilə də metanı əvvəllər stasionar katalizator üzərində, sonralar isə qaynar təbəqədə xlorlaşdırmaqla, karbontetraxlorid, metilxlorid, metilen-xlorid və s. qiymətli məhsullar alınması yollarını göstərmişdir. Dünyaşöhrətli azərbaycanlı alim Y.Məmmədəliyev müharibənin o ağır dövründə yüksək oktanlı benzin ixtira etməklə, ölkəyə böyük fayda vermişdir. Y.Məmmədəliyevin aromatik, parafin və sikloparafin karbohidrogenlərini doymamış karbohidrogenlərlə katalitik algilləşdirmə sahəsindəki tədqiqatı aviasiya yanacaqlarının yüksəkkeyfiyyətli komponentlərinin sənaye miqyasında sintezinə imkan vermişdir.

Y.Məmmədəliyev Bakı neftlərinin benzin fraksiyasının katalitik aromatikləşdirilməsi, yuyucu maddələr və silisiumüzvi birləşmələr alınması, piroliz məhsullarından plastik kütlə istehsalı və Naftalan neftinin təsir mexanizminin öyrənilməsi sahələrində də mühüm işlər görmüş, SSRİ, ABŞ, İtaliya, Fransa, İngiltərə, PXR, MXP və başqa ölkələrdə çağırılan qurultay, konqres və simpoziumlarda respublikamızı dəfələrlə təmsil etmişdir.

Azərbaycan Astrofizika Rəsədxanası, Əlyazmaları Fondu, Sumqayıt Kimya Elmi Mərkəzi və digər müəssisələrin təşkili Y.Məmmədəliyevin adı ilə bağlıdır. Onun yaratdığı Azərbaycan neft-kimya məktəbi respublikadan çox-çox uzaqlarda tanınır.

Y.Məmmədəliyev "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri, həmçinin medallarla təltif edilmişdir. Alim 200-dən artıq elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir.

Yusif Məmmədəliyev 1961-ci ildə vəfat etmişdir.

## Həmid Araslı



**Həmid Araslı** – ədəbiyyatşünas, ictimai xadim, pedaqoq, Azərbaycan EA-nın akademiki.

Həmid Məmmədtağı oğlu Araslı 1909-cu il fevralın 23-də Gəncə şəhərində anadan olmuşdur. O, 1931-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirmiş, 1932–1935-ci illərdə həmin institutun aspiranturasında oxumuşdur.

Həmid Araslı 1943-cü ildə filologiya üzrə namizədlik, 1954-cü ildə doktorluq dissertasiyaları müdafiə etmiş, 1955-ci ildə professor elmi adı almışdır. 1962-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü, 1968-ci ildə həqiqi üzvü seçilmişdir.

H.Araslı 1932-ci ildə Gəncə Şəhər Maarif Şöbəsinin müdir müavini, 1932–1935-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda assistent və dosent, 1936–1937-ci illərdə SSRİ EA Azərbaycan filialının nəzdində təşkil olunmuş Əsaslı kitabxananın Şərq şöbəsinin müdiri olmuşdur. Həmin illərdə Şərq xalqlarının əlyazmalarını toplayaraq Əlyazmalar Fondunu yaratmış və fondun direktoru olmuş H.Araslı Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi katibi, direktor müavini vəzifələrini icra etmişdir. H.Araslı 1944–1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin Yaxın Şərq ədəbiyyatı kafedrasının müdiri, 1954–1955-ci illərdə AMEA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Mətnşünaslıq şöbəsinin müdiri, 1968–1970-ci illərdə Yaxın və Orta Şərq Xalqları İnstitutunun Ədəbiyyat şöbəsinin müdiri, 1970-ci ildən ömrünün sonunadək həmin institutun direktoru vəzifəsində çalışmışdır.

Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqi, klassik irsin nəşri, şifahi xalq yaradıcılığı və orta əsrlər ədəbi əlaqələrinin öyrənilməsi sahəsində alimin böyük xidmətləri vardır. H.Araslı Qətran Təbrizi, Məhsəti, Xaqani, Fələki, Nizami, Əvhədi, Nəsimi, Kişvəri, Əssar, Şah İsmayıl Xətai və başqa şairlər haqqında ilk tədqiqat əsərlərinin müəlliflərindən olmuş, xüsusilə Nizami və Füzuli irsinin öyrənilməsində mühüm işlər görmüşdür. O, ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin (1943–1944), üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1957–1960) əsas müəlliflərindəndir. Alim "XVII–XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi" (1956) kitabında qədim əlyazma, cüng və təzkirələr əsasında ədəbiyyatımızın öyrənilməmiş mərhələsinin mənzərəsini aydınlaşdırmışdır.

Ədəbiyyatşünas alim şifahi xalq ədəbiyyatının ən görkəmli mütəxəssislərindən olmuş, Azərbaycan folkloru, xüsusilə də "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları və aşıq yaradıcılığı haqqında sanballı elmi əsərlər yazmışdır. O, "Kitabi-Dədə Qorqud"un Azərbaycanda ilk naşiri olmuşdur. Həmid Araslı, həmçinin Məhəmməd Füzulinin əsərlərinin beş cilddə elmi-tənqidi mətnini hazırlamış, Xaqani, Məhsəti, Nizaminin lirik

şeirlərini, Nəsimi, Xətai, Saib Təbrizi, Qövsi Təbrizi, Vidadi, Vaqif və başqa şairlərin əsərlərini ilkin mənbələr və əlyazmalar əsasında nəşr etdirmişdir.

H.Araslı Azərbaycan və Özbəkistan respublikalarının Əməkdar elm xadimi olmuş, Türk Dil Qurumunun (Türkiyə, 1957) fəxri üzvü seçilmiş, İraq Elmlər Akademiyasının fəxri üzvü (1972), İslam sivilizasiyasını öyrənən İordaniya Kral Cəmiyyətinin üzvü (1981) kimi yüksək adlara layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" (1979), "Şərəf nişanı" (1951) ordenləri və medallarla təltif edilmişdir.

Akademik Həmid Araslı 1983-cü ildə Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

## Hüsnəddin Rzayev



**Hüsnəddin Rzayev** – fizika-riyaziyyat elmləri namizədi, dosent.

Azərbaycanda riyaziyyat fənninin tədrisinin əsasını qoyan ilk riyaziyyatçı-pedaqoqlardan biri, fizika-riyaziyyat elmləri namizədi Hüsnəddin Tağıoğlu Rzayev 1905-ci il martın 10-da Tiflisdə müəllim ailəsində anadan olmuşdur. 11 yaşında ikən anasını itirən Hüsnəddin Rzayevin uşaqlıq illəri doğma dayısı Abdulla Şaiqin və onun ailəsinin himayəsində keçmiş və o, Bakı Realnı məktəbində təhsil almışdır. Gənc yaşlarından əmək fəaliyyətinə başlamış Hüsnəddin Rzayev 1920-ci ildə Azərbaycan Xalq Komitəsi Şurasında işə alınmışdır. 1924-cü ildə o, Azərbaycan Pedaqoji Universitetinin fizika-riyaziyyat



fakültəsini bitirmişdir. Hüsnəddin Rzayev 1924-cü ildə Q.Musabəyov adına Kənd Təsərrüfatı Texnikumunda pedaqoji fəaliyyətə başlamış və ardınca Quba şəhərində yerləşən məktəbin II buraxılışının yuxarı siniflərində riyaziyyat və fizika fənlərini tədris etmişdir. Yay tətilində Azərbaycan və Gürcüstanda kənd məktəblərinin müəllimlərinə hazırlıq kursları keçən alim 1925–26-cı illərdə Tiflis Pedaqoji Texnikumunda müəllim işləmişdir. Hüsnəddin Rzayev 1930-cu ildə Bakıda Tütün fabrikasının partiya təşkilatının üzvlüyünə qəbul olur. 1927-ci ildə Gürcüstan Kommunist partiyası onu N.K.Krupskaya adına Akademiyada təhsil almağa göndərir. Akademiyanı bitirdikdən sonra o, Azərbaycana qayıdır. Hüsnəddin Rzayev 1929–30-cu illərdə Azərbaycanın ilk milli Universitetinin (hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin) riyazi analiz kafedrasına müəllim və pedaqoji fakültəyə dekan təyin olunur. O zaman universitetin rektoru görkəmli ictimai-siyasi xadim Tağı Şahbazi Simurq idi.

Hüsnəddin Rzayev milli kadrların hazırlığında fəal iştirak edir, rus və Azərbaycan bölmələrində riyazi analiz fənnini tədris edirdi. Riyaziyyat üzrə milli kadrların az olduğunu nəzərə alan pedaqoq 3-4 institutda – Kənd Təsərrüfatı, Politexnik, Xalq Təsərrüfatı İnstitutlarında dərs deyirdi. Hüsnəddin Rzayev 1929-cu ildə Azərbaycan SSR elmi işçilərinin mərkəzi bürosunun rəyasət heyətinin üzvü və kvalifikasiya komissiyasının sədri seçilmişdir. Bu komissiyanın üzvləri akademik Makovelski və universitetin tibb fakültəsinin professoru Lukov idi.

1931-ci ildə, ilk dəfə olaraq, milli kadrlar arasında məhz Hüsnəddin Rzayevə Riyazi analiz kafedrasının dosenti adı verilmişdir. Elə həmin il o, Pedaqoji İnstitut üçün Azərbaycan dilində dərs vəsaiti nəşr etdirmişdir. Hüsnəddin Rzayev 1929-30-cu illərdə Tibb İnstitutunda fəlsəfədən (təbiətin dialektikası) mühazirə kursu keçmişdir.

1931-ci ildə Moskvaya təkmilləşdirmə kurslarına göndərilən alim 1930–31-ci illərdə Moskva Dövlət Universiteti nəzdində Riyaziyyat elmi tədqiqat institutunun aspiranturasına qəbul olur. O, akademik S.L.Sobolevin rəhbərliyi altında elmi araşdırmalarını aparır. M.Lomonosov adına MDU-nu, ETİ-nin riyaziyyat və mexanika bölməsinin aspiranturasını bitirdikdən sonra alim 1930/31–40-cı illərdə akademik S.L.Sobolevin rəhbərliyi altında MDU-nun mexanika-riyaziyyat proqramını uğurla başa çatdırır və namizədlik minimumlarını müvəffəqiyyətlə verir.

Moskvada olduğu müddətdə H.Rzayev təhsillə yanaşı, ictimai-siyasi işlərdə də fəal iştirak edir. O, riyaziyyat və mexanika ETİ-nin büro üzvü və katibi olmuş, Krasnopresninsk RKPK məruzəçisi işləmiş, KP MK-nın əhalinin siyahıya alınması məsələləri üzrə səlahiyyətli nümayəndəsi olmuşdur. SSRİ Akademiyasının təbiətşünaslıq assosiasiyası riyaziyyat bölməsinin rəhbəri və həmin akademiyanın texnika və texnologiya institutunda riyaziyyat müəllimi işləmişdir. H.Rzayev Bauman adına institut nəzdində xüsusi təyinat fakültəsində zavod direktorlarına dərs deyirdi. Yay mövsümündə isə o, Azərbaycan və Gürcüstanda azərbaycanlı müəllimlərin təkmilləşdirilməsi kurslarında riyaziyyatdan və AKP MK yanında Azərbaycan partiya kadrlarının hazırlanması üzrə partiya kurslarında mühazirələr oxuyurdu.

H.Rzayev 1941-ci ildə hökumətin MDU-nun evakuasiyası (təxliyyə) haqqında qərarına əsasən ailəsi ilə birgə Moskvadan Aşqabada köçür.

Görkəmli pedaqoq 1941–1942-ci illər ərzində Zığda yerləşən Bakı Ali Hərbi Dəniz peşə məktəbində dərs verir. 1941–1987-ci illərdə S.M.Kirov adına ADU-nun riyazi fizika tənlikləri kafedrasında işləyib və kimya, biologiya və fizika-riyaziyyat fakültələrində xüsusi kurslarda mühazirələr oxuyub. Son illərdə



H.Rzayevi Təqribi hesablama fakültəsinə keçirirlər və burada o ali riyaziyyatın–riyazi fiziki tənliklər, qismən differensial tənliklər və s. bölmələrindən xüsusi mühazirələr oxuyur.

H.Rzayev yüksəkixtisaslı kadrların hazırlanmasında aktiv fəaliyyətinə görə Az.SSRİ Ali Sovetinin1969-cu il 31 oktyabr qərarı ilə və ADU-nun yaranmasının 50 illiyi ilə əlaqədar Fəxri fərmanlarla təltif olunmuşdur. Bu Fəxri fərman universitetin riyaziyyatçıları arasında yalnız H.Rzayevə təqdim olunmuşdu. Sonrakı illərdə alitəhsilli mütəxəssislərin hazırlanmasında müvəffəqiyyətli fəaliyyətinə görə o, SSRİ Ali təhsil naziri V.P.Elyutinin imzası ilə təqdim olunan medalla təltif olunmuşdur. H.Rzayev, həmçinin, 50 il Sovet İttifaqı KP üzvü nişanı və Lenin adına APİ-nin 60 ilinə həsr olunmuş suvenir medalı ilə də təltif olunmuşdur.

Bütün həyatını gənc yüksəkixtisaslı peşəkar riyaziyyatçı, bioloq, kimyaçı, geoloq, filosof kadrların yetişdirilməsinə sərf edən H.Rzayev akademik Z.Xəlilov və onlarla digər yüksək-səviyyəli riyaziyyatçıların müəllimidir.

Hüsnəddin Rzayev 1988-ci ildə Bakıda vəfat etmişdir.

**Sabit Rəhman**



**Sabit Rəhman** – yazıçı, dramaturq, Əməkdar incəsənət xadimi.

Sabit Kərim oğlu Mahmudov 1910-cu il martın 26-da Şəkidə anadan olmuşdur. İlk təhsilini burada aldıqdan sonra Bakıda Şaiq Nümunə Məktəbində təhsilini davam etdirmiş, daha sonra – 1924-cü ildə Bakı Darülmüəlliminə köçürül-

müşdür. Bu təhsil ocaqlarında Sabit Rəhman Hüseyn Cavid, Abdulla Şaiq və Seyid Hüseyn kimi qüdrətli sənətkarlardan dərs almışdır. 1926-cı ildə o yenidən Şəkiyə qayıdaraq vaxtilə oxuduğu məktəbə müəllim təyin olunur. Bir müddət sonra isə S.Rəhman ali təhsil dalınca Bakıya gəlir və 1929–1932-ci illərdə Bakı Ali Pedaqoji İnstitutunun filologiya fakültəsində təhsilini davam etdirir. Bu illərdən başlayaraq "Molla Nəsrəddin", "Kommunist", "Gənc işçi", "Yeni yol", "Dağıstan füqərası", "Nuxa fəhləsi" qəzet və jurnal səhifələrində müxtəlifsəpkili yazılarla çıxış edir. "Şirin bülbül" (1932) və "Pozğun" (1932) kitablarının nəşri ədəbi mühitdə maraqla qarşılanır. Bundan ruhlanan S.Rəhman "Vəfasız" povestini yazır. Əsər Azərbaycan tənqidçiləri tərəfindən kəskin tənqid olunur və müəllif Bakını tərk etməyə məcbur olur. O, yenidən Nuxaya qayıdaraq MTS-nin siyasi şöbəsində işləyərək Azərbaycan kəndini və həyatını öyrənir və yalnız Azərbaycan sovet yazıçılarının I qurultayına dəvət olunması barədə teleqram aldıqdan sonra Bakıya qayıdır. Bir müddət teatrda bədii hissə müdiri işləməsi onu bu mühitə yaxınlaşdırır.

S.Rəhman 1936–1937-ci illərdə Moskva Ümumittifaq Kinematoqrafiya İnstitutunun ssenari kurslarında oxumuşdur. Bu onu kino sənətinə gətirən amillərdən olur. S.Rəhman dünyaca məşhur "Arşın mal alan" və "O olmasın, bu olsun", "Koroğlu", "Əhməd haradadır?" filmlərinin ssenarilərinin, "Ulduz" musiqili komediyasının, "Yeddi gözəl" baletinin librettolarının müəllifidir.

S.Rəhman Azərbaycan komediyasının banilərindəndir. "Toy" və "Xoşbəxtlər" komediyalarının uğurlu taleyi tezliklə onun adının A.Korneyçuk, B.Romaşov, İ.İlf, V.Petrov, M.Zoşşenko kimi dövrün satirikləri ilə yanaşı çəkilməsinə səbəb olur. S.Rəhman "Toy" (1939), "Xoşbəxtlər" (1940), "Aşnalar" (1945), "Aydınlıq" (1949), "Nişanlı qız" (1953), "Əliqulu evlənir" (1961), "Yalan" (1965), "Dirilər" (1970) və s. əsərlərilə Azərbaycan komediya poetikasına zənginlik gətirir.



S.Rəhman 1943-cü ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülmüş, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni və medalları ilə təltif olunmuşdur. Şəki Dram Teatrı Sabit Rəhmanın adını daşıyır. Bakı və Şəki şəhərlərində onun adına küçə var.

Sabit Rəhman 1970-ci ildə Bakıda vəfat edib.

## Məmmədəmin Salayev



**Məmmədəmin Salayev** – torpaqşünas, genetik, Azərbaycan EA-nın müxbir üzvü, Əməkdar elm xadimi.

Salayev Məmmədəmin Məmmədəli oğlu 5 aprel 1909-cu ildə Bakı şəhərində anadan olmuşdur. Moskva Dövlət Universitetinin Torpaqşünaslıq Elmi Tədqiqat İnstitutunun aspirantı (1935–1938), SSRİ Elmlər Akademiyası Azərbaycan filialının Torpaqşünaslıq Bölməsində baş elmi işçi (1938–1940), Azərbaycan EA Kənd Təsərrüfatı Elmləri Bölməsinin elmi katibi (1945–1947), Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Torpaqların genezisi, coğrafiyası və xəritəçiliyi laboratoriyasının rəhbəri (1945–1987), Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktor müavini (1951–1953), İnstitutun müvəqqəti direktoru (1961–1963), İnstitutun direktoru (1983–1987), Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Namizədlik Dissertasiyası üzrə Müdafiə Şurasının sədri, 1987-ci ildən ömrünün sonuna kimi

Torpaqşünaslıq və Aqrokimya İnstitutunun müşaviri, institutdakı Doktorluq Dissertasiyasının Müdafiə üzrə D-004.16.01 İxtisaslaşdırılmış Şuranın sədri vəzifələrində çalışıb.

M.Salayevin tədqiqatı torpaqların sistematikasına, xəritələşdirilməsinə, torpaq meliorasiyası məsələlərinə, Kiçik Qafqaz dağlıq vilayəti torpaqlarının morfoloji, genetik və kimyəvi-mineraloji xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir. M.Salayev keçmiş Ümumittifaq Torpaqşünaslar Cəmiyyətinin fəxri üzvü, SSRİ Nazirlər Soveti yanında Elm və Texnika üzrə Komissiyanın, Azərbaycan Sovet Ensiklopediyası Elm-Redaksiya Heyətinin, AR Ali Attestasiya Komissiyasının Biologiya və Kənd təsərrüfatı elm sahələri üzrə Ekspert Komissiyasının üzvü olmuşdur.

M.Salayev 5 kitab, 100 məqalə, 96 xəritənin müəllifidir. Onun rəhbərliyi altında yüksəkixtisaslı 1 elmlər və 25 fəlsəfə doktoru hazırlanmışdır. M.Salayev Əməkdar elm xadimi adına layiq görülmüş, dəfələrlə orden, medal və fəxri fərmanlarla təltif olunmuşdur.

AMEA-nın müxbir üzvü M.Salayev 2000-ci ildə vəfat etmişdir.

## Saleh Salayev



**Saleh Salayev** – ictimai xadim.

Salayev Saleh Məmmədəli oğlu 1901-ci ildə Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini Bakı Realnı məktəbində almış, daha sonra təhsilini Şaiq Nümunə məktəbində davam etdirmişdir. Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olmuşdur.



Saleh Salayev uzun illər Azərnəşrdə bədii redaktor vəzifəsində çalışmışdır. Saleh Salayev Azərbaycanın görkəmli ziyalıları ilə yaxın dostluq əlaqələrində olmuşdur. O, Şaiq Nümunə məktəbinin məzunlarından olan Əfrasiyab Bədəlbəyli, Mikayıl Rzaquluzadə və digərləri ilə sıx ünsiyyətdə olmuşdur.

Saleh Salayev 1981-ci ildə Bakıda vəfat etmişdir.

## Əli Nazim



**Əli Nazim** – şair, yazıçı, ədəbiyyatşünas, tənqidçi.

Əli Nazim – Mahmudzadə Ələkbər Mahmud oğlu 1906-cı ildə Cənubi Azərbaycanın Təbriz şəhərində dünyaya gəlmişdir. O, Bakıda pedaqoji texnikumu bitirdikdən sonra 1925-ci ildə Leninqrad Şərqşünaslıq İnstitutuna daxil olmuşdur. Ə.Nazim məşhur sovet şərqşünasları akademik A.N.Samoyloviç və professor Y.Bertelsin tələbəsi olub. O, institutda oxumaqla yanaşı, tənqidi fəaliyyətini də davam etdirmiş və müasir ədəbiyyatın aktual problemlərinə dair məqalələr yazaraq Bakıya göndərmişdir. Əli Nazim 1927-ci ildə institutun son kursunda oxuyarkən Türkiyəyə elmi ezamiyyətə göndərilib. Beləliklə, Türkiyə mətbuatında onun müasir Azərbaycan ədəbiyyatı haqqında geniş məqaləsi çıxmışdır. Ezamiyyətdən qayıdandan sonra Əli Nazim Moskva Kommunist Akademiyasının aspiranturasına daxil olub. Burada ədəbiyyatşünas professor V.F.Pereverzevin mühazirələrini dinləmişdir. Moskva Kommunist Akademiyasında aspirant,

elmi işçi, SSRİ xalqları ədəbiyyatı və incəsənəti bölməsinin elmi katibi olmuşdur (1927–1932). Azərbaycan Elmi-Tədqiqat İnstitutu ədəbiyyat şöbəsinin müdiri və Ali Pedaqoji İnstitutda kafedra müdiri vəzifələrində çalışmışdır. Orta məktəbin yuxarı sinif şagirdləri üçün ədəbiyyat müntəxabatı tərtib etmiş, Hənəfi Zeynallı ilə şərikli dərslik də hazırlamışdır (1936). O, "Ədəbiyyat ensiklopediyası"nın redaktoru, Azərbaycan Sovet Yazıçıları İttifaqı İdarə Heyətinin və əbədi mətbuat orqanı redaksiya heyətinin üzvü olmuşdur.

Ə.Nazimin ilk məqalə və şeirləri 1921-ci ildə Batumidə çıxan "İştirak" qəzetində çap olunub. Onun 1924–25-ci illərdə nəşr olunmuş məqalələrində – "Yeni yol" qəzetində dərc olunmuş "Ədəbi ehtiyaclarımız" (1924), "Yeni həyat və yeni ədəbiyyat" (1924), "Ədəbiyyatımız və ədəbiyyat tariximiz" (1925) kimi məqalələrində sosialist çevrilişi ilə ölkədə əmələ gələn ictimai-siyasi və mədəni dəyişiklikləri əks etdirmişdir.

Əli Nazim 1937-ci ildə həbs olunmuş, 1943-cü il avqustun 23-də güllələnmişdir. 1950-ci ildə bəraət almışdır.



Şaiqin tərtib etdiyi dərsliklər




Hüseyn Cavid, Abdulla Şaiq.
Ədəbiyyat dərsləri. Bakı, 1919
(AŞM Q.Y.H.K.787/D.K.1382)




Hüseyn Cavid, Abdulla Şaiq.
Ədəbiyyat dərsləri. Bakı, 2010
(AŞM Q.Y.H.K.1590/D.K.3405)




H.Zeynallı, İ.Hikmət, A.Şaiq,
A.Musaxanlı. Ədəbiyyat dərsləri. II
kitab, Bakı, 1927
(AŞM Q.Y.H.K.252/D.K.421)




H.Zeynallı, İ.Hikmət, A.Şaiq,
A.Musaxanlı. Ədəbiyyat dərsləri. II
kitab, Bakı, 1928
(AŞM Q.Y.H.K.254/D.K.423)




H.Zeynallı, A.Şaiq, A.Musaxanlı,
C.Əfəndizadə. Ədəbiyyatdan iş
kitabı. Bakı, 1928
(AŞM Q.Y.H.K.134/D.K.305)




Türk çələngi. Bakı, 1919
(AŞM Q.Y.H.K.256/D.K.425)




Gülzar. Bakı, 1912
(AŞM Q.Y.H.K.255/D.K.424)




Gülşəni-ədəbiyyat. Bakı, 1910
(AŞM Q.Y.H.K.331/D.K.581)






*Uşaq gözlüyü. 1915*
*(AŞM Q.Y.H.K.360/D.K.720)*







*Milli qiraət kitabı. Bakı,1922*
*(AŞM Q.Y.H.K.130/D.K.301)*




*Qiraət kitabı. Bakı, 1924*
*(AŞM Q.Y.H.K.133/D.K.304)*




*Sərf – nəhv. 1925*
*(AŞM Q.Y.H.K.264/D.K.433)*



# Abdulla Şaiq - 20

## Şaiq gecəsi

Azərbaycanın ədəbi-ictimai fikir tarixində maarif və mədəniyyət xadimi, şair, nasir, dramaturq, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi kimi tanınan Abdulla Şaiq Talıbzadənin uzun müddətli pedaqoji fəaliyyəti milli təhsilin yeni mərhələyə yüksəlişində mühüm rol oynamışdır. Bütün varlığı ilə gəncliyə bağlı olan Şaiq rus şovinist məmurları və müəllimləri ilə mübarizə apara-apara sonralar Şaiq Nümunə Məktəbi adını daşıyacaq anadilli təlim-tədris ocağını yaratdı.

1918-ci ildə, Azərbaycan Cümhuriyyəti yarandığı dövrdə Abdulla Şaiq dərs dediyi Bakı realnı məktəbində rəhbəri, mürəbbisi olduğu öz sinfini milliləşdirmişdi: yəni bütün fənləri həmişə rus dilində keçilən sinifdə dərslərin türk dilində tədris edilməsinə nail olmuşdu. Bu tədris o zaman çox böyük zəhmətin, vətəndaş qeyrətinin hesabına başa gəlmişdi. Nəzərə almaq lazımdır ki, Şaiq Nümunə Məktəbi o dövrdə milliləşdirilmiş ilk Azərbaycan məktəbi idi. Şagirdlər və onların valideynləri ilə bir-bir, ayrılıqda görüşərək, danışaraq Şaiq onlardan övladlarının türk dilində oxumağa razılıqlarını almışdı. Bu o dövr idi ki, bütün ölkədə, idarələrdə işlər rus dilində aparılırdı və rusdilli məmurların hökmranlıq etdiyi bir vaxtda bu arzunu həyata keçirmək son dərəcə çətin, ağır idi. Ancaq gənc Şaiq nüfuzu və ardıcıl, fasiləsiz əməyi sayəsində rəhbəri olduğu sinfi türkləşdirməyə, milliləşdirməyə nail olmuşdu, bununla Azərbaycanda ilk orta milli təhsilin əsasını qoymuşdu.

Bu, Azərbaycan orta təhsilində böyük inqilab idi. Məhz bu təhsil mərkəzinin əsasında Şaiq Nümunə Məktəbi yaranmışdı.

Nümunə Məktəbi şagirdlərinin xüsusi seçilən geyimləri, döş nişanları, çiyinlərinə taxılmış xüsusi paqonları vardı. Məktəbi bitirəndə şagirdlərə şəhadətnamə verilirdi. Bütün bu sadalanan əşya və sənədlər hazırda Abdulla Şaiq Mənzil-Muzeyinin fondunda toplanmış və orada mühafizə olunmaqdadır.



1918-ci ildə Cümhuriyyət dövrünün azadlıq ruhu ilə çırpınan Azərbaycanda Şaiq Nümunə Məktəbinin əsası qoyulmuşdu, milli təhsilimizdə Abdulla Şaiqin adı ilə bağlı dönüş, yenilik yaranmışdı. Şaiq Nümunə Məktəbi adı bu tədris ocağına rəsmən, xüsusi qərar ilə verilməmişdi. Belə ki, onu da müəllim və tələbələr özləri, valideynlər Şaiq Nümunə Məktəbi adlandırmışdılar. Bütün Azərbaycan ictimaiyyəti də bu adı o vaxt təsdiqləmişdi.

1923-cü ildə Şaiq Nümunə Məktəbinin şagird və müəllimləri Abdulla Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin 20-ci ildönümünə həsr olunmuş xatirə gecəsi keçirmiş, tələbələri Şaiqin yaşadığı Verxni Naqornı 19-da (indiki A.Şaiq küçəsi, 21-də) yerləşən mənzilinə gəlmiş, onu əlləri üstünə alaraq, Azərbaycan Ali Pedaqoji İnstitutunun (İndiki Azərbaycan Dövlət İqtisad Universitetinin) akt zalına aparmışlar. Bu münasibətlə keçirilən tədbirdə dövrün tanınmış maarif və mədəniyyət xadimləri, Abdulla Şaiqin məsləkdaşları və tələbələri iştirak etmişdi. Şaiq gecəsində Nümunə Məktəbi haqqında xatirə söyləyən, onun milli mövqeyini qiymətləndirən tələbələrin, demək olar ki, hamısı Şaiqin 1918-ci ildə milliləşdirdiyi sinfin şagirdləri idi, ətrafında toplanan türkçü, azərbaycanlı müəllimlər idi. Bu şagird və müəllimlər Şaiqin özünün müəllimliyinin, təhsil-tədris sahəsindəki xidmətlərinin şahidi olmuşdular, çar Rusiyasının məmurları və rusdilli müəllimləri ilə necə ardıcıl mübarizə aparmasını əyani şəkildə müşahidə etmişdilər. Bu məktəbin, onu yaradan müəllim-vətəndaşın da əsl qiymətini onlar vermişdilər.

Yubiley mərasimində çıxış edən müəllim və tələbələr Abdulla Şaiqin əsasını qoyduğu məktəbin tarixi əhəmiyyətindən danışmış, çıxışlarında sevimli müəllimlərinin peşəkar pedaqoq, vətənpərvər ziyalı kimi məziyyətlərindən söhbət açmışlar. Tədbirin materialları 1923-cü ildə nəşr olunmuşdu. Tədbirin materiallarını əhatə edən həmin kitab – "Abdulla Şaiq - 20" kitabı 2001-ci ildə tarix elmləri doktoru Minaxanım Əsədli tərəfindən

ərəb qrafikasından latın qrafikasına transfoneliterasiya edilərək çap olunmuşdur.

Yubiley 1923-cü ilin soyuq dekabr ayına təsadüf etmişdi. Salon ağzına qədər dövrün məşhur, nüfuzlu maarif, mədəniyyət xadimləri ilə dolmuşdu. Tələbələr öz kiçikcüssəli, arıq, bəstəboy müəllimlərini yuxarı atıb-tutanda məclisin başçısı maarif komissarı məşhur elm-mədəniyyət xadimi Mustafa Quliyev yubilyarın ayaqqabısının köhnə olduğuna diqqət yetirmişdi. Belə ki, nazir xatirə gecəsinin səhəri tezdən şəxsi sürücüsünü Şaiqin mənzilinə yollayıb və o vaxtlar Leninqradda hazırlanan, həm də dəbdə olan qəhvəyirəngli "Skoroxod" firmalı tuflini də göndərməyi unutmamışdı. Bu hadisəni atam sonralar xatırlayırdı, çünki hədiyyə çox yerinə düşmüşdü.

Yubiley təntənəsi xətasız da keçməmişdi. Məclisin qızğın yerində elektrik xəttində pozğunluq yaranmış, işıqlar sönmüşdü. Ancaq bu xəta öz müəllimlərini təbrik üçün yığılmış tələbələrin, yubiley iştirakçılarının əhvalını pozmamışdı. Tələbələr bir anda binanın arxa tərəfində yerləşən qədim İçəri şəhərimizin evlərinə axışıb mənzillərdən onlarla otuzluq neft lampaları toplamış və çox çəkməmişdi ki, akt-salonu əvvəlkindən də çıraqban olmuşdu...

**Akademik Kamal Talıbzadə**




*Abdulla Şaiqin pedaqoji fəaliyyətinin 20 illiyinə həsr edilmiş kitab. Bakı, 1923*
*(AŞM Q.Y.H.K.333/D.K.583)*




*Abdulla Şaiq – 20 kitabının təkrar nəşri. Bakı, 2001*
*(AŞM Q.Y.H.K.808/D.K.1403)*



# Müəllim Şaiq haqqında deyilənlər

Milli Azərbaycan Respublikasının qurulduğu 1917-ci və 1918-ci illərdə Azərbaycan xalqı tarixinin ən həyəcanlı günlərini yaşayırdı. Ədəbiyyat bu həyəcana tərcüman olur, milli istiqlal günlərinə yaxınlaşmanın şövq və sevinci içində yaşayır, böyük ümidini bütün həssaslığı ilə tərənnüm edirdi... Az zamanda bir çox ədəbi məclislər açılır və jurnallar çap edilir. Hüseyn Cavid, Məhəmməd Hadi, Abdulla Şaiq və başqaları bir çox yeni əsərlər nəşr edirlər.

**Məmməd Əmin Rəsulzadə**

***

Şaiq öz tələbələrində unudulmaz xatirələr buraxmışdır. Artıq uzun illərdir ki, Şaiqin adı Azərbaycanda gözəl və qayğıkeş müəllim, xeyirxah və mehriban insan, namuslu və əməksevər vətəndaş simvolu olmuşdur. Bəzən adamlar tərifəlayiq olan bir şəxsin haqqında "o, Şaiq kimi insandır" deyirlər. Ağsaçlı müəllimlər, görkəmli yazıçılar, adlı-sanlı alimlər, məşhur sənətkarlar "mən, Şaiqin tələbəsi olmuşam" sözlərini vüqarla ifadə edirlər. Şaiqə qarşı yüksək ehtiram, səmimi məhəbbət və minnətdarlıq hissi tələbələrinin ürəyində elə dərin kök salmışdır ki, Şaiqin adı gəldikdə qeyri-ixtiyari olaraq ayağa qalxmaq istəyirlər.

**Abbas Zamanov**

***

Abdulla Şaiq, insanları xüsusi bir qüvvə ilə özünə cəlb edən gözəl müəllim, qayğıkeş tərbiyəçi idi. Bütün sinif onu sonsuz maraq, dərin bir məhəbbət, böyük bir həvəslə dinlərdi. Səmimiyyət Şaiqin varlığının əsas keyfiyyəti, rəmzi idi. Onun bütün hərəkətləri, sinfə gəlişi, salam verməsi, tələbələrlə görüşü, öz-özlüyündə bir əxlaq və tərbiyə dərsi olardı. Ədəbiyyat tarixini, bədii parçaların təhlilini demirəm, sərf-nəhv qaydalarını elə şirin, canlı təsirli keçərdi ki, dərsin



qurtardığını bildirən zəng vurulanda tələbələr yerlərindən tərpənmək istəməzdilər. Onun özünəməxsus aforizmləri vardı.

**Adil Əfəndiyev**

***

İyirmi il əvvəl doğan və parlaq bir sabahın mübəşşiri* olan bu yıldız Azərbaycanımızın yarınının bilgi günəşinin dan yıldızıdır ki, bu gün o günəşin şüası səmamızı al şəfəqlərə boyamışdır. Abdulla Şaiq iyirmi ildən bəri, çar əsarətinin qara pərdələri altında ən həqir və ən dəyərsiz görünən müəllimlik vəzifəsini gülə-gülə, sevə-sevə üzərinə götürmüş və bu günə kadar heç yorulmadan, heç bıkmadan daşımış, bu gün belə ən böyük bir şövq və həvəslə danışmaqdadır.

Şaiq bir çoxları kimi bir sərf-nəhv müəllimi olmaqla qalmamış, qaranlıq mühitinin sıcaq bir günəşi olmuş və xalqımıza müqtədir qələmi, parlaq dühası, dadlı dili ilə həqiqi həyat və qurtuluş yolunu göstərmişdir.

**Arslan Mirzəzadə**

***

Məmləkət və xalqımızın həqq verəcəyi adamlardan biri də bugünkü münəvvər** gəncliyin ilk ədəbiyyat müəllimi, Azəri şeirinin böyük rüknü,*** dünənə qədər kirli, çamurlu sokakların içərisində atisini bir türlü təmin edəcək pərəstarə**** sahib olmayan mini-mini çocuqların ilk mənəvi pərəstarı, bu gün qarşısında hörmətlərlə əyildiyimiz Talıbzadə Abdulla Şaiq babamızdır.

Kəndi mühiti-ictimaiyyəmiz, cəmiyyətimiz daxilində belə olsa məktəb və ədəbiyyat naminə təqdim edəcəyimiz simaların içində bu gün igirmi sənəlik ədəbi və tərbiyəvi xidmətilə

* Mübəşşir – yayan
** Münəvvər – ziyalı, nurlu, işıqlı, parlaq
*** Rükn – özül, dirək; cəmiyyətin ən etibarlı dayağı olan görkəmli şəxs
**** Pərəstar – xidmətçi; pərəstişkar, aşiq

təmayiz* edən Şaiq babamızı – görəcək və onu unutmayacağız. Şaiqin bütün şəxsiyyətini təsvir və təcəssüm üçün kəndisinə iki nöqtədən yaxınlaşmaq icab ediyoruz: Şaiq-Şair! Şaiq-Müəllim!

Kəndisini bizə – sinfə sevdirən bir şey var idisə də, o da Şaiqin bütün varlığı idi. Biz onun hər bir hərəkətini sevər, təkdirindən** belə məmnun olardıq. (Zatən təkdiri-məktəb həyatında ancaq kiçik bir nəzəri-mülahizədən ibarət qalırdı.) Bu bizə kafi gəlir. Bundan hər birimiz haqqını alır, cəzasını öz vicdanından təyin edərdi. Bir kaç sənə zərfində kəndisinin əsəbiləşdiyi və qızdığı bir günə təsadüf etmədik. Bakıda Realnı məktəbdə son milli Türk sinfinin mürəbbisi idi. Hər sənə müəllimlər şurası indində sinfimizin əxlaqca birinciliyi qazanması haqqını Şaiqdən alamayız. Yenə bütün məktəb həyatında yapılan bir yaramazlığın təhərrisinə məmur müdir icz və zəiflik göstərdiyindən Şaiq türk tələbələri arasındakı mümtaziyətindən*** istifadə ilə bir arkadaş kimi yaklaşaraq məsələyi qayət müdəqqiqanə**** araşdıraraq, qalibən bir ruh doktoru kimi cərh etməyə müvəffəq oldu.

Şaiqin simasındakı ümumi görünüş ilk öncə təsadüf edənlərinə bir bəsatət ərz edər, "əliyüladə bir insan" – deyə vaz keçilə bilər. Halbuki, bu böylə degildir, bu görüş və hököm doğru olması gərəkdir. Zira həyatında təmtəraq və dəbdəbədən, gurultulu süsdən qaçan Şaiqin ruhu və fəaliyyəti dəxi böylə görünməsini təbii surətdə sevənlərdəndir. Fəqət bizə qalırsa, Şaiq, əvvələn ruhundakı incəlik və hissiyyat etibarilə ən yüksək bir insandır. Saniyən, Şaiq cəmiyyətimizin yetişdirdiyi əxlaqi-bədiələr üzərində bir şahiqədir ki, çıxılması ancaq Şaiq kibi ictimai iradə və fəaliyyətə malik adamlara – mübaliğə gəlməzsə – dahilərə məxsusdur...

Əvət, Şaiqin şair və müəllimligindəki yüksəkligi bir nöqtədə toplanır ki, bunu yaşadığımız cəmiyyətin ən zəruri ehtiyacı

* Təmayiz – ayrılmış, seçilmiş
** Təkdir – bulandırma, kədərləndirmə, əziyyətvermə, məzəmmət
*** Mümtaz – seçilmiş
**** Müdəqqiq– tədqiq edən, tədqiqatçı, araşdıran



olduğunu hiss ilə bütün mövcudiyyəti və ibdaiyyəti ilə tətmin etdigindən bu nöqteyi tənvir edəlim!

Şairligi nisbətində müəllimlik ruhu və bu ruhdakı tərbiyə qayəsi təlləqqiyyatı bu nöqtənin əsəridir ki, şairə bir fövqəladəlik istinad ediyor.

Şaiq bəyin ən böyük məziyyətlərindən biri iştə bu şimalın soğuq ruzgarları qarşısında donmaq üzrə bulunan türk qanını coşdurmaq, ölməkdə olan türkcəyi diriltməkdədir.

Şaiq yazılarını adi qələmlə kağıza yazmamış, qüdsi bir əllə qəlblərə qazmışdır. Onu hər çocuğun yalansız dilində, hər yavrunun təmiz qəlbində bulursunuz...

Şaiqin çocuqlar üçün yapdığını, zamanın qırdığı qələmimiz, mühitin boğduğu səsimizlə anlatamayız, onu layiqiylə bilmək üçün məsum dimağlara, təmiz ürəklərə, yalan bilməyən yavrulara sormalıdır.

**Atababa Musaxanlı**

***

Şaiq böyük müəllim, mahir pedaqoq idi. Şagirdlər onun verdiyi dərslərə böyük həvəslə, şövq ilə hazırlaşırdılar. Danışıq tərzi çox sadə, dərsləri məzmunca zəngin idi. Haqqında danışdığı şair və yazıçıya uşaqlarda məhəbbət hissi oyadardı. Bunun nəticəsində uşaqlar yazıçının ləyaqətini başa düşür, əsərlərini həvəslə öyrənirdilər. Sinfimizdə sinəsi şeirlə dolu olmayan tələbə yox idi. Böyük Sabirdən və humanist türk şairi Tofiq Fikrətdən Abdulla Şaiq hərarətlə danışardı. Biz yunan filosoflarının haqqında ilk məlumatı onun dilindən eşitmişik. Hər tərəfli biliyə malik Şaiq ədəbiyyat, incəsənət, fəlsəfə sahəsində bizim ensiklopediyamız idi.

**Azad Əfəndizadə**

***

A.Şaiqin uşaqlar üçün yazılmış təkrarsız əsərləri Azərbaycan uşaq ədəbiyyatının tarixində həmişə Şaiq ətri, Şaiq rəngləri ilə seçilən əsaslı bir mərhələni təşkil edir. 1905-ci il inqilabından sonra fəaliyyəti xüsusilə genişlənmiş yenitipli Azərbaycan məktəblərində tədris prosesi Şaiq müəllimin xüsusi zövq və psixoloji həssaslıqla yazılmış dərslikləri olmadan təsəvvür edilmədiyi kimi, Sovet Azərbaycanının Gənclər teatrının repertuarı da onun "Aldanmış kəvakib", "Nüşabə", "Eloğlu", "Xasay", "Vətən", "Bir saat xəlifəlik", "Fitnə" pyesləri olmadan xeyli yoxsul görünərdi.

**Bəkir Nəbiyev**

***

Abdulla Şaiqin adı çəkilərkən sözün həqiqi mənasında qocaman bir müəllimi, insanın ürəyinə təsir edən şairi, həyatımızı və tariximizi öz əsərlərində əks etdirən bir dramaturqu, maraqlı hekayələr müəllifini, uşaqlarımızın sevimli dostu olan bir yazıçını xatırlayırıq.

**Cəfər Xəndan**

***

30 ildən artıq müəllimlik etmiş olan A.Şaiqin sovet dövründəki fəaliyyəti Azərbaycan xalq maarifi tarixinin qiymətli səhifələrindəndir. Bu yorulmaz maarif xadimi inqilabın lap ilk aylarından çoxcəhətli elmi-pedaqoji iş aparırdı: o, yeni məktəblər açılması işinə kömək edir, Ali Pedaqoji İnstitutda və fəhlə kurslarında dərs deyir, məktəblilər üçün hər cür tədris vəsaiti hazırlanmasında fəal iştirak edir, müəllimlər üçün metodik məqalələr yazır, mühazirələr oxuyurdu.

Ədəbiyyat və dil tədrisi sahəsində ən təcrübəli və məlumatlı mütəxəssislərdən biri Şaiq idi. O, dərs dediyi tələbələrə ədəbiyyat



nəzəriyyəsi və tarixini öyrətməkdən başqa, onların ümumi ədəbi, mədəni inkişafı üçün də böyük səylə çalışırdı: tələbələrlə ədəbi disputlar keçirir, folklor nümunələrinin toplanması ilə məşğul olur, nümunə dərslərinə rəhbərlik edirdi. Şaiq bütün biliyini cavanlara verməyə çalışırdı.

**Cəmo Cəbrayılbəyli**

***

Xarakterinin uysallığı etibarilə hər növi siyasi həyatdan uzaq duran Şaiq məfkurə baxımından tamamən milliyyətçi, türkçü, hətta turançı bir münəvvərdi. Sovet hökumətinin ilk sənələrində qələmə almış bulunduğu mütəəddit dərs kitablarından belə bu türkçülüyü və turançılığı gözə çarpmaqdadır.

**Əbdülvahab Yurdsevər**

***

İnqilabdan qabaq Abdulla Şaiq Bakıdakı birinci realnı məktəbdə müəllimlik edirdi. Mən yuxarı hazırlıq sinfinə qəbul olunmuşdum. Abdulla Şaiq sinifdə olan şagirdləri bir-bir yoxladı, sonra onları iki qrupa ayırdı: heç savadı olmayanlar, az-çox savadlılar. Birincilərə "Uşaq gözlüyü", ikincilərə isə "Gülzar" dərsliyindən dərs verməyə başladı. Sinifdəkilər eləcə də adlandırılırdılar: "gözlükçülər", "gülzarçılar". Məqsəd "gözlükçülər"i, "gülzarçılar"a çatdırmaq idi. Abdulla Şaiq bizi "gözlükçülər"lə məşğul olmağa, onlara təlim verməyə təşviq edirdi.

**Əfrasiyab Bədəlbəyli**

***

Şaiq müəllimliyin mənasını geniş düşünürdü. Onun şifahi xalq yaradıcılığına olan münasibəti bu cəhətdən çox maraqlıdır. Şaiq zəngin xalq ədəbiyyatımızı sevən, onu toplayan, onun

əsasında gözəl əsərlər yaradan bir müəllim-sənətkardır. O, şagird və tələbələrini də səfərbərliyə alaraq nağıllar, bayatılar və atalar sözləri toplayır, bunlardan dərs kitablarında, dərslərində, yaradıcılığında geniş istifadə edir, şagirdlərini xalq sənətinin inciləri ilə tərbiyələndirirdi...

**Əliyar Qarabağlı**

***

Şaiq bütün fəaliyyəti və xasiyyəti ilə nümunə idi. Mən fəxr edirəm ki, Şaiq kimi böyük bir insanın tələbəsi olmuşam və bütün həyatım boyu ona oxşamağa, xalqa, vətənə onun kimi xidmət etməyə çalışmışam. Yaşlı nəsillərin müəllimi, ədibi, şairi olan Şaiq unudulmaz, mədəniyyət tariximizdə ədəbi, şərəfli yer tutan böyük şəxsiyyətlərdən biridir.

**Həmid Araslı**

***

İyirmi ildən bəridir ki, bütün Azərbaycan gəncliyi onu pək gözəl tanıyor.

Əvət hər kəscə: O çalışqan və təcrübəli bir müəllim, həssas, nazik bir şair, xüluq və səmimi bir insandır. Fəqət bəncə: o, bir heçdir ki, – gözə çarpan – bir çox yaldızlı varlıqlardan daha böyük, daha möhtərəmdir.

**Hüseyn Cavid**

***

Diyorlar ki, müəllimlik sənəti, xüsusi bir istedad və qabiliyyət məsələsidir. Bu sənətdə müvəffəqiyyət, bilxassə ruhdakı gözəlliyə tabedir. Şaiqin iyi bir müəllim və mürəbbi olacaq nə gözəl ruhu vardır. Şaiq tam mənasilə iyi bir adamdır və tam mənası ilə məsləkini məfkureyi-ruhunda canlandırmış



bir şəxsiyyətdir. O həyatın hər dürlü çirkinliklərindən, iftiradan, xəyanətdən, hiyləgərlikdən, yalançılıqdan, həsədçilikdən, kibr və qürurdan, xudbinlikdən, tənbəllikdən, xülasə gərək bir fərdin ruhunu və gərək bir cəmiyyətin yaşamaq qabiliyyətini məhv edən hər dürlü fənalıqlardan kəndisini mühafizə etmişdir. Biz bütün müəllimlər ruhən Şaiqə bənzəyə bilərsək, nə mutlu!

**Xəlil Fikrət**

***

Abdulla Şaiq bizim mədəniyyət tariximizdə unudulmaz bir maarif xadimi, bir müəllim kimi də məşhurdur. O, 1907-ci ildən başlayaraq "Uşaq çeşməyi", "Uşaq gözlüyü", "Gülşəni-ədəbiyyat", "Milli qiraət" kimi dərsliklər çap etdirmişdir. Ədəbiyyat tarixində və ədəbiyyatın nəzəri məsələlərinə həsr olunmuş "Ədəbiyyatdan iş kitabı", "Ədəbiyyat dərsləri" əsərlərinin müəlliflərindən biridir. Azərbaycan dilinin qrammatikası ilə də uzun müddət məşğul olmuşdur. Azərbaycan ədəbi dilinin inkişafında, onun yad təsirlərdən təmizlənməsində Abdulla Şaiqin böyük xidməti vardır.

**İlyas Əfəndiyev**

***

Əgər Şaiq olmasaydı, "Milli qiraət"imiz yok idi, "Müntəxabat" nəşr olunmamışdı, "Ədəbiyyat dərslər"indən məhrum idik. "Türk çələngi"ni görməmiş, "Türk ədəbiyyatı"nı eşitməmişdik. Əgər bu kitablar olmasaydı, məktəblərimiz yoxsul, müəllimlərimiz yalavac qalmışdı. Sözün qısası: onun varlığındakı əhəmiyyəti layiqiylə idrak edə bilmək üçün bircə dəqiqəlik yokluğunu düşünməli!

Qoca müəllim, bəzən şair də olmaq istiyor və olur da! Ancaq bən onu müəllim görüb istəyənlərlə bir yerdə sevərim.

Və istərəm ki, türklərin Müəllim Nacisi kimi o da bizim Müəllim Nacimiz olsun.

Onun iyirmi sənəlik bu vətənə olan xidməti o kadar böyükdür ki, vətənin ona olan ehtiramından da... düşüniyorum ki: şu Sabir heykəlinin bulunduğu meydança Şaiq heykəlilə bəzəniyorsa, nə kadar gözəl olurdu.

**Qafur Əfəndizadə Qantəmir**

***

Onun geniş alnından, bozumtul və aydın gözlərindən, dərhal insanı özünə cəlb edən səmimiyyət və mehribanlıq tökülürdü. O, hamıya nəvazişli bir nəzərlə baxırdı. O, formula və cədvəllərdən yorulmuş beynimizə şeir və sənətin gözəl nümunələrilə istirahət verirdi. O danışarkən, sinfə elə bir sükut çökmüşdü ki, dediyi sözləri dəftərə qeyd edən yoldaşlarımızın qələmlərinin səsi lap aydın eşidilirdi.

Bu müəllim, Azərbaycan xalqının minlərcə oğlunu tərbiyələndirmiş, onların qəlbinə əsl humanizm duyğularını aşılamış, köləliyə və haqsızlıq dünyasına sonsuz bir nifrət hissi oyatmış, XX əsr Azərbaycan ədəbiyyatı tarixində şərəfli bir mövqe tutmuş, lirik nəsrimizin təməl daşını qoymuş, öz bədii lövhələrində saf Azərbaycan dilinin gözəlliklərini təcəssüm etdirmiş müqtədir yazıçı Abdulla Şaiq idi.

Bugünkü ədəbi nəslimizin bir çox nümayəndələri Abdulla Şaiqin sinfindən çıxmış adamlardır. Lakin onu təşəkkürlə xatırlayanlar arasında yüzlərcə mühəndislər, aqronomlar, həkimlər, dövlət xadimləri və partiya işçiləri də vardır.

Abdulla Şaiq, demokratik Azərbaycan ziyalılarının ən tipik və ən görkəmli nümayəndələrindən biridir.

**Mehdi Hüseyn**



***

Sizi yaxından tanıyanlar yaratdığınız əsərlərlə şəxsiyyətiniz arasında qəribə bir uyğunluq olduğunu görürdülər... Sizin yüksək insani sifətlərinizi tərif etməkdən mən acizəm. Ancaq onu deyə bilərəm ki, Siz öz mənəvi ülviyyətinizlə nadir adamsınız. Siz gənc nəslimiz üçün bir örnək olmağa layiqsiniz. Bu etibarla Siz daha çox tərifə və şöhrətlənməyə möhtacsınız. Heyf ki, bizdə hələ ziyalılarımızın həyatını və gözəl xüsusiyyətlərini real surətdə təsvir edən romanlar yoxdur. Amma olacaqdır və ustad romançı qələmi Sizi, heç şübhəsiz, bir qəhrəman kimi təsvir edəcəkdir.

Abdulla Şaiqin müəllimliyi ilə yazıçılığı bəzi nöqtələrdə elə üzvi bağlanmışdır ki, onları ayırmaq həm çətin və həm də lüzumsuz bir işdir. 1901-ci ildən müəllimliyə başlayan Abdulla Şaiqin dövrünü biranlığa gözümüzün qabağına gətirək. Yeni açılan Azərbaycan məktəblərində ana dili keçmək üçün birinci dərs kitablarını ("Birinci il", "Uşaq gözlüyü", "İkinci il", "Üçüncü il" və ya "Yeni məktəb" və s.) müəllimlər özləri yaradırdılar. Bu müəllimlərdən biri və ən fəalı Abdulla Şaiq idi. Dərs kitabları üçün bədii parçaların hazırlanmasında da Abdulla Şaiq fəal iştirak edirdi. Bu dövr maarif və mədəniyyətimizin inkişafında birikmə dövrü idi. Sabirin, Səhhətin və Şaiqin ən kiçik şeirləri, tərcümələri dərs kitablarına qiymətli bir hədiyyə kimi daxil olurdu.

**Məmməd Arif**

***

Ədəbiyyat və tərbiyə anlayışlarını günəşlə işıq kimi bir-birindən ayrı təsəvvür etmək necə mümkün deyilsə, A.Şaiqin əsərlərində də bədiiliklə tərbiyəviliyi bir-birindən ayırmaq olmaz: onun guya "heyvanlar aləmindən" yazılmış hər hansı

bir nağıl və hekayəsini, məsələn: "Tülkü həccə gedir", "Yaxşı arxa", "Şələquyruq" və s. belə əsərlərini xatırlayın. Bunları hamımız vaxtı ilə sevə-sevə dinləmiş, sonra oxumuş, daha sonra yenə məhəbbətlə öz balalarımıza oxumuşuq. Hər dəfəsində də bunlardan ləzzət ala-ala, əylənə-əylənə, özümüzün də xəbərimiz olmadan pisə, şərə nifrət, yaxşıya, xeyirə rəğbət və məhəbbət kimi nəcib, həmişə insan cəmiyyəti üçün vacib və zəruri olan yüksək insani sifət və keyfiyyətləri mənimsəmişik.

**Mikayıl Rzaquluzadə**

***

A.Şaiq zəmanəsinin gözüaçıq ziyalılarından idi. Tiflis kimi bir şəhərdə yaşadığından, əsrin mədəni həyatı ilə tanış olduğundan, o, yenilik, mədəni hərəkat eşqi ilə alovlanırdı. O da öz xalqının cəhalətdən xilas olmasına, mollaxanalar əvəzinə yeniüsullu məktəblərin açılmasına çarələr axtarırdı. A.Şaiqin fikrini həmişə məşğul edən azad mədəni həyat, müasir ictimai məsələlər, xalqın dərd və ehtiyacları idi...

**Mir Cəlal**

***

Abdulla Şaiqdə bu nəcib xislətləri gördükcə ona məhəbbət və hörmətim daha da artırdı. Əziz müəllimimdən istər yaradıcılıqda, istərsə həyat məsələlərində çox şeylər öyrəndim. Mənim uşaq yazıçısı kimi yetişməyimdə onun böyük müsbət təsiri olmuşdur. Həyatda insanlara xeyirxah olmağı ondan öyrənmişəm.

**Mirmehdi Seyidzadə**



***

Azərbaycan Misaki-Millisinin belə ümumiləşməsində Azərbaycan mətbuat və ədəbiyyatının da böyük rolu olmuşdur. Şaiq, Müznib, Cavad onun, Azərbaycanın gözəlliyini, bayrağını, hürriyyətini idealizə etdilər. Qəzetlər onun haqqını və hüququnu, istiqlal və hürriyyətini müdafiə etdilər, ümumiləşdirdilər. Mühərrirlər, dramaturqlar istiqlal mübarizəsinə aid dramlar yazdılar. Azərbaycanın tarixi, ədəbiyyat tarixi, məktəb kitabları milli istiqlal ruhunda yazıldı. "Müntəxəbat", "Türk çələngi", "Türk ədəbyyatı" və sairləri istiqlal dövründə, milli istiqlal ruhunda olaraq çıxdı.

**Mirzə Bala Məmmədzadə**

***

Abdulla Şaiq bir məktəbin dörd divarı içində çocuqlara tərbiyə vermək və tədris etməklə iktifa etmədi. Geniş Şuralar Azərbaycanının hər guşəsində müəllimlik yapmaq üçün şair və ədibliyə iqdam etdi və ölkəmizin hər guşəsində hörmətlərlə sayıldı. Bu gün yaradılmaq üzrə olan lisan və ədəbiyyatımızın təməlini quranlardan biri oldu.

İyirminci əsrin əcnəbi ədəbiyyatı öz sələflərinə borclu olduqları kibi Azərbaycanın yeni ədəbiyyatı da Şaiq kibi müəllimlərinə minnətdar olacaqdır.

**Mustafa Quliyev**

***

Şaiq bəg yalnız bir lisan və ədəbiyyat müəllimi olmaqla qalmamışdır. O, istibdad altında inləyən, hüququ tapdanan gəncliyin həqiqi bir dostu olmuşdur. Böyük Rusiya inqilabının daha ibtidalarında göz qamaşdırıcı hürriyyət günəşi qarşısında

nə yapacağını bilməyərəkdən şaşırmış qalmış olan gəncligə bir təşkilat qurmağa və kitabxana təşkilinə böyük yardımlar etmişdir. Fevral inqilabının riyakar təcəllisi ilə yenə də həqarətlə çeynənən türk tələbələri hüququnun yeganə müdafiəçisi sevgili Şaiq bəg olmuş və 1918-ci sənədə açılmış olan milli sinif tələbələrinə təşkilat qurmayı öyrətmiş, o zamanın müstəbid direktor və inspektorları ilə mücadiləyə çıxmış və maarif nəzarətinin yardımı ilə türk tələbələrinin hüququnu təmin etmişdir. O, milli siniflərin yeganə mübarizi olmuş, bu mübarizəsində böyük müvəffəqiyyətlər əldə etmişdir ki, bunu gənclik və Azərbaycan milli maarifi tarixi qətiyyən unutmaz. Şaiq bəg müəllimlik və həyati-xüsusiyyəsində olduğu kibi həyati-ədəbiyyəsində də dərin bir səmimiyyət göstəriyor, ədəbiyyatı kəndi zövqü üçün deyil, məqsəd və məfkurəsi üçün qullanmışdır.

Şaiq bəgin yaratdığı təlim kitabları əsrlərlə sürən rus əsarətinin unutdurduğu gözəl türkcəmizi təlim üçün meydanda heç bir təlim kitabı yox ikən Şaiq bəg böyük əzmlə işə başlamış, ta çar zamanında meydana çıxarmış olduğu "Gülzar"dan başqa "Müntəxəbat", "Türk çələngi", "Milli qiraət", "Türk ədəbiyyatı" kimi bugünkü ən mühüm təlim kitablarımızı meydana qoymuş ki, bu gün də bunların ikmalı ilə uğraşmaqdadır. Bu böyük müəllimin məziyyətlərindən ancaq bu kadarını ifadə ediyor. Və bu böyük dahini hər şeyi həll edəcək olan atinin layiqilə təqdir edəcəgini ümid edəriz.

Hər kəsə qarşı oylə bir görüş, oylə bir salam verişi var ki, qarşısındakını minnətdar burakıyor və kəndisinə cəzb edər. Tələbəyə məktəbdə ədəbiyyat dərsi verdiyi kibi hər görüşündə, hər hərəkətində də bir əxlaq və bir tərbiyə dərsi veriyor. Şaiq yapdığı hərəkətləri bir göstəriş için deyil, ruhunun, təbiətinin istəyi ilə yapıyor.



Mübaliğədən heç qorxmayaraq iddia edə biləriz ki, heç bir tələbə tərəfindən heç bir müəllimin dərsi bu kadar cazibə ilə dinlənilməmişdir. Bu fitri müəllim öylə bir ecazkar ifadəsi, oylə təsirkar tələffüzü var ki, ən laqeyd tələbə belə onu böyük bir şövq və həvəslə dinlər. Şaiq bəg dərs verərkən tələbəni o qədər cəzb edir ki, sinfində çəkilən nəfəslər belə duyuluyor. Onun nasıl bir müəllim olduğunu bilmək üçün mütləqa tələbəsi olmalıdır.

**Saleh Salayev**

***

Demək olar ki, ədəbiyyatı bizə sevdirənlərdən, ədəbi zövqümüzü tərbiyə edənlərdən biri sevimli ədibimiz Abdulla Şaiq olmuşdur. O, həmişə öz tələbələri ilə fəxr edərdi. Azərbaycanda bir çox ziyalılar onun tələbəsi olmuşdur. Onu yalnız oxucular, onun sabiq tələbələri deyil, hətta atalar, analar, balalar belə tanıyır və adını həmişə hörmətlə çəkirlər. Mən ədəbiyyat sahəsinə atıldıqdan sonra, Abdulla Şaiqlə tez-tez görüşür və onun söhbətlərindən, məsləhətlərindən zövq alardım. Onun yaradıcılığı da, şəxsi həyatı da bizim üçün bir nümunədir.

**Süleyman Rüstəm**

***

İstibdadın müdhiş quruluşu içində bütün türklük əzilməkdə ikən möhtərəm şair və müəllimimiz Abdulla Şaiq əfəndi gecə-gündüz, həm də bilaram kəndi kitabxanasının kitabları arasında çalışaraq xalqını tərəqqi və səadətə sövq etmək üçün çarələr arayordu. Qara cəhalət buludları yurdumuzda bütün həşəmətilə hökmran, istibdadın ağır zəncirləri bizi bütün-bütünə çeynəyib əsir etmiş olduğu bir zamanda bu möhtərəm

şəxs bütün varlığıyla, mühitini dolduran bu zülmətə qarşı üsyan etmiş, cəhalətin qara zəncirlərinə qarşı amansız bir müharibə elan etmişdi. Bununla yurdunda maarif günəşinin doğmasına çalışıyordu. Nə istibdadın qəddar pəncəsi, nə də türklüyün müqəddaratını qanlı ləkəli əllərinə keçirmiş olan çarların qara bulutları onun həvəsini qıramadı. O ancaq uzaq, pək uzaq bir dövrün nurunu, şəfəqli dünyasını, ziyalı, münəvvər gənclərini görmək arzu ediyordu. Buna böyük imanı var idi...

**Şəfiqə Əfəndizadə**

***

Xalqımızın savadsızlığı, cəhalətlə mübarizə aparmaq və ölkəmizi maarif və mədəniyyət nurilə işıqlandırmaq üçün şura Azərbaycanı bu gün mühüm bir maarif cəbhəsi açmışdır.

Azərbaycan maarifinin ən zərbi-məsələlərindənədd olunan müəllim hazırlamaq işi bu kibi iqtidarlı və təcrübəli əski müəllimlərimizin öhdəsinə düşən müqəddəs bir vəzifədir.

Sayı az olan böylə müəllimlərin arasında Talıbzadə Abdulla Şaiq şərəfli bir mövqe tutuyor. İyirmi il zərfində yorulmaqsızın müəllimlik vəzifəsini ifa edən Abdulla Şaiq ustadımız Azərbaycan ölkəsinə bir çox mədəni qüvvələr verməyə müvəffəq olmuşdur.

Sabiq Bakı realnı edadi məktəbinin türk dili müəllimi olan Abdulla Şaiqin səyi və zəhməti sayəsində həmən məktəbdə təhsil edən türklər türkcəyi öyrənmişlər. Eyni zamanda mütəəllimlərin* qiraət və təlim kitablarına olan ehtiyacını rəf etmək üçün bir çox kitablar təhrir və təlif etmişdir.

**Tağı Şahbazi**

* Mütəəllim – tələbə



***

Şaiq deyildimi, fikrimizdə böyük bir bina doğuyor. Bu bina şimdi ali darulmüəllimin cünbində Nümunə Məktəbi və əmələ fakültəsi binasıdır.

Əcəba bu bina ilə Şaiqin beynində mərbutiyyət nərədən başlar və bunun əsbabı nədir?

1920-ci sənəyədək burada sabiq birinci realnı məktəbi yerləşiyordu. Bu rabitəliyi də orada aramalıyız. Bu binada ruslar arasında ilk dəfə olaraq türk məktəbi, türk sinifləri təməli qoyulmuşdur. Bu bina həqiqi bir xalq ocağı olmuş oluyor və olacaqdır da. İştə bu milliləşmə, bu türkləşmədə ilk dəfə olaraq Abdulla Şaiq bəyin səyi və əməli sayəsində hüsulpəzir olmuşdur.

Əvət altı sənə bundan əvvəl bu binada ilk türk məktəbi təsis olundu. Bugünkü iki dərəcəli Nümunə məktəbində son sinfi o ilin türkləşmiş məktəbin hasilatındandır. Bunu bu dərəcəyə yetirən Abdulla Şaiq oldu. Kəmali-cəsarətlə deyə biləriz ki, bunu yalnız Şaiq bəg yapdı.

Odur ki, şimdi Şaiq adı çəkiləndə Nümunə Məktəbi, Nümunə Məktəbi anılanda da Şaiq xatirə gəlir.

Nəhayət, kəmali-qətiyyətlə deyə bilərəm ki, mühitimiz Abdulla Şaiq kibi əzm və iradəli müəllim və vətəndaş pək az yetirdi. Əgər yetirsə idi, bu gün idarələrimiz türkləşərdi. Odur ki, son söz olaraq, kəmali-cəsarətlə söyliyorum ki, nəsliatini yaradacaq nəsli-hazırın müəllimi və mürəbbisi Abdulla Şaiq bəy olduğundan, o gənc nəslin yapacaqları işləri anladı, həpsi ona mədyundur, onları tərbiyə etdi. Ah bu ad nə kadar böyükdür. Bu ad vəzifəşünaslara bir örnək ola biləcəkmi?!

**Vəli Hacıoğlu**

***

Əsrin başlanğıcında Ə.Sabir, A.Səhhət, S.Sani, A.Şaiq kimi qabaqcıl müəllim-yazıçılar təlim-tərbiyə məsələlərinə dair fikirlərini müvəffəqiyyətlə həyata keçirmək üçün bir neçə sahəni öz fəaliyyətlərində birləşdirir, ədəbiyyatın qüdrətli təsir vasitələrindən olduğunu nəzərə alaraq yaradıcılıqlarının bir hissəsini vətən balalarına məxsus əsərlər yaratmağa həsr edir, beləliklə də yeni uşaq ədəbiyyatını sağlam əsaslar üzrə möhkəmləndirirdilər. Azərbaycanda əsl uşaq ədəbiyyatının yaranması və təşəkkülü daha çox bu sənətkarların adları ilə bağlıdır. Həmin sahədə Abdulla Şaiqi öz dostlarından, müasirlərindən fərqləndirən başlıca cəhət isə fəaliyyətə başladığı gündən ömrünün sonunadək hamıdan artıq və hamıdan ardıcıl məşğul olmasıdır. Təsadüfi deyil, bu da ona "uşaq ədəbiyyatının klassik yaradıcısı" (M.İbrahimov), "Azərbaycanda yeni uşaq ədəbiyyatının banisi" (M.Rzaquluzadə) kimi şərəfli ad qazandırmışdır.

**Yaqub İsmayılov**

***

Abdulla Şaiq Azərbaycanda məktəb və maarif, mədəniyyətimiz tarixində ən müasir üsulda ortatəhsilli məktəbin ilk yaradıcılarından olmuşdur. Bakıda milli məktəblərin ana dilli ilk ədəbiyyat müəllimlərindən biri, ziyalılarımızın bir neçə nəslinin pərəstiş etdiyi mötəbər ədəbi sima, uşaqların ilk peşəkar "yazıçı babası" olmuşdur.

Abdulla Şaiq şair ikən də müəllim, müəllim ikən də şair idi. Onu hamının gözündə ucaldan və dərs dediyi sinifdə ideala çevirən, bəlkə də, məhz elə bu vəhdətin ifadə etdiyi bir mükəmməllik idi! Ruhundakı gözəlliyi, mənəvi, fitri bir məlahəti və zərifliyi o, həm məktəb, həm də sənət arasında



bərabər bölüşürdü. Şeirdə də, tərbiyədə də məqsədi gəncliyin mənəvi çırağını alışdırmaq idi.

**Yaşar Qarayev**

***

Şaiq öz biliyi, insani rəftarı, tələbələrə göstərdiyi atalıq qayğısı ilə müəllimlər içərisində xüsusi yer tuturdu. Bu gün belə tələbəlik günlərinin sönməz bir xatirəsi olaraq Şaiqə dərin ehtiram hissləri yaşayır və yaşayacaqdır.

Bu unudulmaz insan, böyük sənətkar və hörmətli müəllimin xatirəsi qarşısında diz çöküb təzim edirik.

**Yusif Məmmədəliyev**

***

Yeri gəlmişkən deyək ki, A.Şaiq çox güclü nəzəri dilçilik məlumatına malik idi – çox dil (ana dili ilə yanaşı rus, ərəb, fars dillərini) bildiyi kimi, dillərin quruluş xüsusiyyətlərini, inkişaf qanunlarını, dillər arasındakı oxşar və fərqli cəhətləri, dil sistemlərini yaxşı bilirdi. Onun aşağıdakı müqayisəsi bunu göstərmək üçün maraqlı nümunədir: "...fars və ərəb dilləri də rus dili kimi eyni quruluşlu dillər sisteminə, yəni inkisari dillər sisteminə daxildir. Bu dillərdə kəlmələrin kökləri dəyişilib şəkilçilər başa, ortaya və sonlarına gətirilir. Bundan əlavə, Azərbaycan dili nəhvi dillər, rus, fars və ərəb dilləri isə sərfi dillər zümrəsindəndir. Azərbaycan cümlə quruluşu ilə rus, fars və ərəb cümlə quruluşlarında olan fərq də buradan irəli gəlir".

**Yusif Seyidov**

***

İlk dəfə orta təhsilin milliləşməsi Demokratik Respublika hakimiyyəti illərində həyata keçirilmişdir. Bu pedaqogika

tariximizdəki böyük hadisə qüdrətli sənətkarımız, müəllimlər müəllimi Abdulla Şaiqin adı ilə bağlıdır.

Bu hadisə 1919-cu ildə, Demokratik Respublikanın bir-birinin ardınca mədəni tədbirlər həyata keçirdiyi bir zamanda baş verdi. Bütün dərslər rus dilində keçilən Bakı birinci realnı məktəbinin nəzdində müəllimimiz Abdulla Şaiqin təşəbbüsü ilə Azərbaycan dili üzrə üçaylıq kurs açıldı. Bu kursu qurtaran şagirdlər üçün 49 rus sinfi olan Bakı birinci realnı məktəbində bütün dərslər Azərbaycan dilində keçilən bir sinif açıldı. Bu sinifdə 25 şagird oxuyurdu. Onlar 1924-cü ildə ana dilində orta məktəbi bitirən ilk məzunlar oldular. Azərbaycan maarif tarixində Azərbaycan dilində ilk orta təhsili bitirən şagirdlər olan bizlər sonralar görkəmli elm, mədəniyyət və istehsalat xadimləri həmin məktəbin müəllimləri olan Abdulla Şaiq Talıbzadəni, Cəmo Cəbrayılbəylini, Qafur Rəşad Mirzəzadəni, Xudaverdi Kələntərlini və başqalarını həmişə böyük məhəbbətlə yad edirik.

**Azad Əfəndizadə,**
**Rəmzi Yüzbaşov,**
**Saleh Salayev**



## ŞAİQ...

Nə diyorlar: bəşərlə firdovsə
Dönəcəkmiş degilmi, dünyamız?
Biri: "İnsan mələk olurmu?" – desə,
Bən derim: "Bir misali var, bakınız:
Bu təbii şüari-munislə,
Bəncə: "Şaiq nümunədir mələkə..."

**İsmayıl Hikmət**
*Bakı, 23 kanuni əvvəl, 1923*

## MƏKTƏBMİ! GÜLŞƏNMİ!

Məktəbi-gülşəndə inləyən bülbül!
Bir çox zamanlardır gəlir avazın;
Anlat bir neçindir bu açdığın dil,
Bu güllərdən söylə, nədir niyazın?!

Nalənin təsiri getməz dillərdən,
Almışam bən xəbər canlı güllərdən;
Əks-sədasıdır gəlir ellərdən
Ucaldığın göylər, yandıran sazın.

Qələmdən səpdiyin nurlu jalələr,
Çıkardı torpaqdan güllər, lalələr.
Çəkmə bundan belə acı nalələr,
Yetər şam kibi suzü güdazın.



Əməllər toxmunu əkdiyin bağlar,
Göyərib açmışdır yaşıl yarpaqlar,
Cəhalət zəhmilə sınan budaqlar
Yetişib olmuşdur məhrəmi-razın.*

**Seyidzadə Bədri**

## HÖRMƏTLİ ŞAİQƏ

Qanadından şəfəq saçar bir mələk,
Özvan yurduna, aşina quşdu
Qarşılarkən onu: ay, ülkər,** çiçək
"Şaiq-Şair"–deyə hayqırdı, coşdu.

Sevincindən nazlı mələklər çağlar!
Biz gülürüz, artıq fələklər ağlar!

Yapdığın dalğalar, dənizlər aşmış,
Taleyiniz uğurlu bir günəşmiş,
"Yeddi ülkər" bir-birinə dolaşmış,
Yaradan ruhuna yaqin bir eşmiş.

Səsləniriz: dağlar, dağlar, ah dağlar!
Sən gülürkən gülün, bülbülün ağlar.

**Atababa Musaxanlı**

* Məhrəmi-raz – sirdaş
** Ülkər – ulduz

## ŞAİQ ƏFƏNDİYƏ

Ey yeni gəncliyin əski bağbanı
Yurdu qaranlıqdan qurtarmaq üçün,
Bəzətmək üçün bu Azəristanı –
Sən toxumlar səpdin, pək çox çalışdın.

Qəlbə nüfuz edən əsərlərinlə,
Qaranlıq pərdəyi yırtmaq istədin.
Usanmaq bilməyən əməllərinlə
Nəhayət, zülmətə sən qalib gəldin.

İştə bu gün sənin şən bağçaların
Çiçəklər açaraq meyvələr verdi.
Yeni həyat üçün çaldığın sazın
Əski ənənəyi artıq məhv etdi.

Gənclik üçün sənin qoyduğun yollar
Hər yerə ziyalar, nurlar saçıyor,
Kükrədi əkdiyin bütün toxumlar
Bu gün gənclik səni həp alqışlıyor.

**Adil Nəcdət**



## ŞAİQƏ

Ey azər şairi, sən çox çalışdın,
Kəndi şeirin ilə həqqə alışdın,
Cəhl odu ilə hərbə qalkışdın,
Yazıq Şaiqləri olmayanlara.

İnlətdin rübabın xəstə telini,
Oyatdın uyqudan sən türk elini,
Döndərdin bahara xəzan yelini,
Yazıq Şaiqləri olmayanlara.

Vətən bağçasının oldun bağbanı,
Həzin şeirin oldu xəstə dərmanı,
Xoş günə çıkardın Azərbaycanı
Yazıq Şaiqləri olmayanlara.

**Məhəmməd Səad**

# İTHAF

*Pək möhtərəm Abdulla Şaiq bəyə*

Şən olan yerləri zalım xəzandan
Bayquş yurdu kibi viranə gördün,
Ayrılmadın onun eşqindən bir an,
Çalışdın, çarpışdın, şənlənsin dedin.

Baxdın ki, annənin başında siyah,
İnlər o, yaralı, bir əsgər kibi.
Tərənnümü müdam ağlayıcı ah...
Bir zülmət quyusu, görünməz dibi.

Fəqət o zülməti məhv edərək sən
Nurlandırdın yenə ana diyarı,

Qəm dolu yerləri eyləyərək şən
Sevindirdin sən o pək nazlı yarı!..

**Hüseyn Nəcdət**

"Ədəbiyyatçılar nə yaparlar?!" deyənlərə
"Şaiq nə yapdı?!" – soracağım...

**Mikayıl Rzaquluzadə**



## Abdulla Şaiq tələbələri haqqında

Cəfər Cabbarlını hələ kiçik ikən, Bakının yeddinci şəhər məktəbində oxuduğu zamandan tanıyırdım. O mənim kiçik, ən çox sevdiyim şagirdlərimdən idi. Özünün zəkası və istedadı ilə yoldaşlarından seçilirdi. Onun hərəkətlərində, danışıqlarında, mühakimələrində bir qəribəlik, qeyri-adilik nəzərə çarpırdı. Sinifdə sakit otura bilməz, əlləri havada oynar, iri, parlaq, qaynar gözlərindən od tökülərdi. Müəllim sinifdə dərs soruşarkən əllərini havada oynadaraq: "Müəllim, mən, mən" – demək adəti idi. Bunu kiçik Cəfərə tərgitmək mümkün olmayırdı. Divara bitişik son partada otururdu.

***

Ana dili müəllimləri, adətən, şəriət dərslərini də aparmalı idilər. Şəriət məcburi hesab edildiyi üçün o, çox vaxt orta saatlara daxil edilirdi. Odur ki, çox tez-tez şəriət dərslərini dilə və ədəbiyyat dərslərinə çevirir, həmin saatlarda ədəbi materiallar oxuyur, təhlil edirdim. Şəriət dərslərini isə evdə hazırlamağı tapşırırdım. Mənim bu hərəkətimi kimsə müdirə xəbər vermişdi. Bir gün şəriət dərsi zamanı müdir qəflətən qapını açıb içəri girdi. Səhv etmirəmsə, mən Sabirin yaradıcılığı haqqında danışır, şeirlərini təhlil edirdim. Vəziyyət ağır idi, müdirə nə cavab verəcəyimi bilmirdim. Lakin onun özü məni bu çətin vəziyyətdən qurtardı, üzünü tələbələrə tutaraq:

– Bugünkü dərsinizin mövzusu nədir? – deyə soruşdu.

Tələbələrdən Həbib Talışinski tez ayağa qalxıb:

– Bu dərsdə müəllim bizimlə miras məsələsini keçir, – deyə cavab verdi.

Tələbənin cavabı müdiri təmin etdiyindən məndən heç bir şey soruşmadı, az sonra sinfi tərk etdi.



***

Bir hadisə də Tiflis maarif şöbəsi tərəfindən Bakıya göndərilmiş Slavinskinin mənim sinfimi yoxlamağa gəldiyi zaman baş verdi.

Dərslik olmadığından o zaman mən mənzum və mənsur əsərlər seçib tələbələrin dəftərlərinə yazdırırdım. Belə seçilmiş parçalar içərisinə bəzən öz əsərlərimi də daxil edirdim. Tələbələrin dəftərinə o cümlədən "Niyə uçdu?" şeirimi yazdırmışdım. Bu şeir 1905-ci il inqilabından sonra ölkəni bürüyən irticanın əleyhinə yazılmışdı. Bir gün səhər dərsə gəldiyim zaman müdiri pilləkən başında dayanmış gördüm. O, rəsmi paltarını geymiş, orden və medallarını səliqə ilə döşünə taxmış, əsgəri vəziyyətdə dayanmışdı. Məni görən kimi ayaq saxladı, salamlaşdıq. Sonra bir qədər rəsmi tonda Slavinskinin bu gün mənim dərsimə gələcəyini söylədi. Tez sinfə girdim. Dərsə başlamaq istəyirdim ki, müdir Slavinski ilə birlikdə içəri girdi. Uşaqlar ayağa qalxdılar. Slavinski partaların üstündə dərslik yerinə dəftərləri görüb soruşdu:

– Dərsliyiniz yoxdurmu?

– Yoxdur, münasib əsərləri uşaqların dəftərlərinə yazdırıram, – deyə cavab verdim.

Dərslərin belə qeyri-rəsmi təşkili Slavinskinin xoşuna gəlmədi. Odur ki, parta üstündə qoyulmuş dəftərlərdən birini götürüb vərəqlədi, sonra yazılmış parçaları bir-bir tələbələrə oxudub ruscaya tərcümə etdirdi. "Qadın anadır" sərlövhəli əsər çox xoşuna gəldi. Növbə mənim "Niyə uçdu?" şeirimə gəldi. Tələbə həvəslə şeiri oxudu. Mən işin nə ilə nəticələnəcəyini gözləyirdim. Slavinski şeirin mövzusunu eynilə bilsəydi, məni ya müəllimlikdən azad etdirəcək, ya da başqa bir tədbir gördürəcək idi. Lakin bu dəfə də tələbələrimdən Tağı Şahbazi məni ağır vəziyyətdən xilas etdi. O, şeiri oxuduqdan sonra: "Bu

şeir öz mövzusu etibarilə Puşkinin "Bir mələyə" adlı şeirinə oxşayır", – deyə cavab verdi.

***

O zaman realnıda məktəb kitabxanası təşkil edilməsi də mütərəqqi təşəbbüslərdən biri idi...

Kitabxananın yaradılmasında istəkli tələbələrimdən biri olan Tağı Əliyevin də böyük xidməti olmuşdur. O, qarayanız, arıq, ortaboy bir uşaq idi. Zamanın iztirab və kədərləri onun qara, düşüncəli gözlərində bir xatirə dəftəri kimi oxunur, mühakiməsi və ictimai şüuru yaşından irəli getdiyi üçün daha yaşlı görünürdü. Məktəb müdirindən uşaqlar üçün Azərbaycan dilində kiçik bir kitabxana açmaq üçün icazə aldığımı sinifdə söyləyərkən, o, həyəcanla yerindən qalxaraq titrək və əsəbi səslə mənim bu təşəbbüsümü alqışladı və bütün sinif tərəfindən mənə təşəkkür etdi.

Kitabxananı yaratmaq üçün məktəb daxilində bir müsamirə də vermək lazım idi. O hər gün artırmada məni görərkən yanaşıb: "Müəllim, müsamirə verməyə müdirdən izn aldınızmı?" – deyə soruşur, məni tələsdirirdi. Müsamirə verməyə müdirdən izn aldıq... Kitabxananın ən ağır zəhmətini Tağı Əliyev öz üzərinə götürmüşdü...

Məktəbdə Tağı mənim sağ əlim idi. Hər işdə o mənim imdadıma çatırdı.

Orta məktəb tələbələrinin o zaman gizli yığıncaqları olurdu. O yığıncaqlarda ən fəal iştirak edən və ortaya yeni fikirlər atan Tağı Əliyev idi.

1917-ci ildə Oktyabr inqilabından sonra realnı məktəbində milli siniflər açılması haqqında əmr gəlmişdi. Bu tədbirin icrası mənə tapşırılmışdı. Mən atalar ilə iclas edib onların razılığını aldıqdan sonra beş sinif milliləşdirdim. Məktəbin tədris işləri



müdiri Nikolay Petroviç ataları və uşaqları danlayıb milli siniflərdə oxumağa mane olurdu. Demə, Tağı Əliyev bu işdən xəbər tutub bir yoldaşı ilə bərabər müdir müavini Nikolay Petroviçin qəbuluna gedir və onun bu hərəkətinə qarşı bütün tələbələrin və ataların etiraz etdiyini söyləyir.

Həmin günün səhəri mən müəllimlər otağında ikən Nikolay Petroviç üzü, gözü qızarmış, pörtmüş halda mənə yanaşıb dedi: "Talıbzadə, mənim heç xəbərim olmaya-olmaya sənin tələbələrin qarşımı kəsib deyirlər ki, sən milli siniflərin açılmasına mane olursan, uşaqları və ataları öyrədirsən. Mənim bu işlərdən əsla xəbərim yoxdur".

***

Yuxarı siniflərdə tələbələrin bilik səviyyəsi müxtəlif olduğundan istədiyim kimi dərs keçə bilmirdim. Ona görə də bir müntəxəbat hazırlamağa qərar verdim. Siniflərdə tələbələrin dəftərlərinə yazdırdığım ədəbi parçaları və tərcümeyi-halları toplayaraq, 1909-cu ildə "Gülzar" adlı müntəxəbatı hazırladım. Kitab 1912-ci ildə nəşr edildi. Daha sonra "Müntəxəbat", "Türk çələngi" dərsliklərini təlif etdim.

***

Sabiq realnı məktəbinin dördüncü sinfindən etibarən Simurqun türk dili müəllimi olmuşam. O dinc, sakit, həlim, müəllimləri və arkadaşlarına qarşı hörmətli, çalışqan və ciddi bir tələbə idi. Tağı bütün fənlərdən "əla" qiymət aldığı kimi, əxlaq qiyməti də birinci gündən ikmal edincəyə qədər "əla" qaldı. Müəllimlər şurasında adının yaramazlıqda çəkildiyini bir dəfə də olsun görmədim. O, gəncliyindən şüurlu, ciddi, yüksək məfkurəli, uca tərbiyəli bir tələbə idi.

***

İstedadlı, çalışqan və mehriban tələbəni heç vaxt unutmaq olmur. Belə tələbələrimdən biri də Böyükağa Talıblı idi. Böyükağanı Realnı məktəbin dördüncü sinfindən xatırlayıram. Ciddi, çevik, çalışqan və mütəşəbbüs bir tələbə idi. O, inandığı və sevdiyi arkadaşlarını başına toplayaraq ədəbi dərnək təşkil edir və siyasi məsələlərlə maraqlanırdı.

***

Ən sevimli və unudulmaz tələbələrimdən olan Ruhulla Axundovu ilk dəfə Birinci Bakı realnı məktəbində dərs dediyim zamanlarda, təxminən 1910–1911-ci illərdə görmüşdüm. Çox sakit və qaradinməz nəzərimə çatan bu tələbə az zaman içərisində bütün şagirdlərin, müəllimlərin dərin məhəbbətini qazandı, özünü hamıya sevdirdi.

***

Hələ çox kiçik ikən, orta məktəbdə oxuduğu zaman öz istedad və şeirə həvəsilə məni cəlb edən belə tələbələrimdən biri Süleyman Rüstəmzadə olmuşdu.

Süleymana mən Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra vaxtilə Həbib bəy Mahmudbəyovun adını daşıyan məktəbdə dərs demişəm. İndi Cəfər Cabbarlı küçəsində yerləşən bu məktəbdə inqilabın ilk illərində qocaman müəllimimiz Səməd Hacıəliyev müdir idi. Onun xahişilə burada ədəbiyyat və dil dərslərini aparırdım. Süleymanı da ilk dəfə həmin məktəbdə dərs dediyim zaman görmüşdüm. Arıq, xoşsima olan bu gəncin bir ədəbiyyat müəllimi kimi mənə oxuduğu şeirlərində hələ o zaman bir hərarət və od duyurdum.



***

Onunla eyni sinifdə oxuyan, sonralar ədəbi tənqid sahəsində fəal çalışan cavanlardan biri də Əli Nazim idi. Onların hər ikisi elə bil bir ulduz kimi sinifdə parlayırdılar. Mən də həmin sinfə gedəndə xüsusi hazırlaşar, Azərbaycan klassiklərindən, eləcə də mütərəqqi türk şairlərinin əsərlərindən daha çox nümunələr oxuyar və təhlil edərdim.

Heç yadımdan çıxmaz, bir gün Əli Nazim xalq şairimiz Sabir haqqında yazdığı məqaləsini sinifdə oxumaq istədiyini bildirdi. Mən məmnuniyyətlə qəbul etdim. Məqalə çox maraqlı yazılmışdı. O məqalənin sonralar çap olunub-olunmadığını bilmədim.

## Abdulla Şaiq müəllimlik fəaliyyəti haqqında

Azərbaycan dili Bakının bir neçə məktəbində tədris olunurdu, o da "altıncı dərs" kimi (azad dərs şəklində). Dərs cədvəllərində isə Azərbaycan dili "туземный язык" (yerli dil) kimi yazılırdı. Çarizm Azərbaycanı nəinki çar müstəmləkəsinə çevirmişdi, həm də azərbaycanlılara Rusiyada yaşayan başqa millətlər kimi təzyiq göstərir, Azərbaycan xalqının mədəni irsi müxtəlif üsullarla inkar edilirdi. Odur ki, "туземный язык" müəllimlərindən tələb olunurdu ki, dərslərdə dinin təbliğinə, öyrənilməsinə xüsusi diqqət yetirilsin və s. Əlbəttə, bir çox başqa müəllimlər kimi mən də bu yol ilə getmirdim. Şagirdlər mənim dərslərimdə Azərbaycan çar müstəmləkəsinə çevrilməyi barədə də, ölməz Nizaminin yaradıcılığı haqqında da məlumatı eşidə bilirdilər. Hətta çar mütləqiyyətinə istehza edən, mövcud ictimai-siyasi quruluşu qamçılayan Sabirin satiraları da o vaxt mənim dərslərimdə əldən-ələ gəzirdi.

Xatırlamaq nə qədər ağırdısa da, lakin o vaxt elə valideynlər tapılırdı ki, öz uşaqlarına "yerli dil" dərslərində iştirak etməyə icazə vermirdilər. Yadımdadır, bir dəfə, varlı Məmmədbəyov (bu günə qədər bu familiyanı xatırlayıram) müəllimlər otağına soxularaq, hamı eşidəcək bir tərzdə dedi ki, "guya mən onun oğlunun başını boş, lazımsız dərslərlə yoruram". Mitskeviçusu bu əhvalat çox həyəcanlandırdı. O vaxt Mitskeviçus elə yerindəcə, müəllimlər otağında öz narazılığını bildirərək dedi: "O adam ki öz doğma ana dilini öyrənməkdən utanır, onu adam adlandırmaq olmaz".

***

Ali Pedaqoji İnstitutunda və onun nəzdində olan Şaiq Nümunə Məktəbində, pedaqoji texnikumda və Ali Pedaqoji İnstitutunda çalışmışam... Məktəblərimiz milliləşdikdən, orta və ali məktəblər çıxdıqdan sonra mənim iş imkanım qat-qat artmışdı. Proqram yox, material yox idi. Bir tərəfdən Maarif Komissarlığının tapşırığı ilə proqram yazır, digər tərəfdən müxtəlif yuxarı siniflərdə keçməkdə olduğum dərslərə aid material hazırlayırdım. Bir tərəfdən dərs proqramlarında keçiləcək şairlərin dövrünün səciyyəsini, tərcümeyi-halını, təhlil və tənqidinə aid məqalələr yazır, digər tərəfdən, dərsliklər hazırlayırdım. 1930-cu ilə qədər gecələr saat ikiyə, bəzən üçə qədər çalışmaq məcburiyyətində idim. Ona görə də bu uzun müddət ədəbi sahədə çalışmaqdan geri qaldım. Ancaq 1930-cu ildən sonra, yeni yetişməkdə olan gənc müəllim kadrların fəaliyyətə başladığı zaman mən qismən və ruhən dincəlməyə başladım. "Yeni müntəxəbat", "Ədəbiyyat dərsləri", "Ədəbiyyatdan iş" kitablarını hazırlamağa müvəffəq oldum.



***

1917-ci il fevral inqilabından sonra Tiflisin müvəqqəti hakimiyyət orqanı olan Seym tərəfindən bütün məktəblərin milliləşdirilməsi haqqında əmr verilmişdi. Bundan sonra mürtəce millətçi müəllimlər mənə düşmən kəsildilər. Vaxtdan istifadə edib üç ehtiyat, iki əsas olmaq üzrə beş sinif təşkil etdim. Məmur təbiətli müəllimlər və müdiriyyət mənə çox maneələr törətdi, ancaq gənc iradəm sayəsində, maneələri ortadan qaldırmağa müvəffəq oldum. Bu xüsusda realnı məktəbin yuxarı sinifləri də mənə çox yardım etmişdi. Müdiriyyət milliləşdirilmiş qrupları dağıtmaq məqsədi ilə dəfələrlə tələbələrin atalarını toplayıb etirazlarını bildirmiş, uşaqlarını rus məktəbində oxutmağa dəvət etmişdilər. Bəzi cahil atalar onlara inanıb uşaqlarını yenə rus qruplarına verirdilər. Mən onları yenidən təşkil etdiyim qruplara gətirirdim. Bir tərəfdən çar siyasəti yürüdən rus pedaqoqları ilə, digər tərəfdən də cahil valideynlərlə mübarizə aparmağa məcbur olurdum. Xülasə, davamlı mübarizələrdən sonra beş sinif təşkil edildi. Tanıdığım fəal və bilikli müəllimlərdən: Cəmo Cəbrayılbəylini, Qafur Rəşadı, Qasımov Əli Raqibi riyaziyyat, təbiyyat və coğrafiya dərslərini aparmaq üçün dəvət etdim. Aşağı siniflərdə realnı məktəbi ikmal etmiş tələbələrdən Sadıq Quliyev və Qulaməli Həsənov dərs deyirdilər. Bununla da sonralar Şaiq Nümunə Məktəbi adını daşıyacaq tədris müəssisəsinin əsası qoyuldu.

***

..... bir çox müasirlərim və yazıçı dostlarımla birlikdə, mən də yeni bir qüvvə və energiya ilə işə girişdim. N.Vəzirov, S.S.Axundov, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, M.S.Ordubadi, C.Cabbarlı və başqaları kimi mənim üçün də yeni yaradıcılıq dövrü başladı. Azərbaycanda Sovet hakimiyyətinin qurul-

masının lap ilk günlərindən etibarən kurslarda, orta və ali məktəblərdə çalışmağa başladım. Mən bu zaman Ali Pedaqoji İnstitutundan başqa Şərq fakültəsində, institut nəzdində mənim milliləşdirdiyim Şaiq texnikumu adını almış Nümunə məktəbində və işçi fakültəsində çalışırdım. Ana dili, ədəbiyyat tarixi və poetikadan proqramlar, dərsliklər və başqa elmi materiallar olmadığından, həmin işlərin başqa bir qismini Maarif Komissarlığı mənə tapşırdı. Zəif vücudumla, gecə-gündüz çarpışaraq yoxluqlardan bir varlıq yaratmalı idim. Gənc nəslə olan eşqim və zəhmətə olan həvəsim bu ağır işi keçirməkdə mənə yardım etdi. Bir tərəfdən müxtəlif proqramlar yazıb Maarif Komissarlığında təsdiq etdirir, bir tərəfdən ədəbiyyata məxsus dərsliklər tərtib edir, bir tərəfdən də ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsinə dair elmi materiallar hazırlayırdım. Gənc nəslimizə geniş və elmi məlumat vermək üçün gecə yarıya qədər çalışırdım. Hər sahədə olur-olsun, dünyada zəhmət çəkib yaratmaqdan ləzzətli şey yoxdur.





*Abdulla Şaiq 3 saylı Bakı Kişi Gimnaziyasının müəllim və şagirdləri ilə. 1912*
*(AŞM O.F.24/D.K.461)*



*Fotonun arxasındakı xatirə yazısı*



*Cəmo Cəbrayılbəyli, Abdulla Şaiq, Səməd bəy Acalov. 1958*
*(AŞM O.F.9/D.K.446)*



*Həsən Əliyev (GTT-nin rejissoru), Abdulla Şaiq, Zəfər Nemətov (GTT-nin rejissoru), Sadıq Şərifzadə (rəssam), Cahangir Cahangirov (bəstəkar). 1949*
*(AŞM O.F.15/D.K.452)*



*Abdulla Şaiq, müəllim Zərbəli Səmədov, oğlu Kamal Talıbzadə, Kamalın dostu Adil Cavadlı. 1956*
*(AŞM O.F.133/D.K.636)*



*Abdulla Şaiq və şair Ənvər Əlibəyli məktəblilər arasında. 1949*
*(AŞM O.F.167/D.K.655)*



*Abdulla Şaiq rəhbərlik etdiyi ədəbiyyat dərnəyi üzvləri arasında. Soldan: Atababa Musaxanlı, Abdulla Şaiq, Şəfiqə xanım Əfəndizadə, Cabbar Əfəndizadə və son kurs tələbəsi Mirzağa Quluzadə. 1927*
*(AŞM O.F.162/D.K.653)*



*Abdulla Şaiq mənzilində məktəblilərlə. 1956*
*(AŞM O.F.169/D.K.656)*



*Azərbaycan müəllimlərinin Birinci qurultayının təşkilatçıları və nümayəndələri. Azərbaycan müəllimlərinin I qurultayı 1906-cı ilin 15 avqustunda başlanıb, 30 avqustda başa çatıb. Qurultayda Azərbaycan dilində mövcud proqramlar müzakirə olunub, yenisinin tərtib edilməsi, müvafiq dərsliklərin hazırlanması, təlimin ana dilində aparılması, kənd müəllimlərinin vəziyyətinin yaxşılaşdırılması kimi məsələlər müzakirə olunub. İlk qurultay Azərbaycan təhsili tarixində mühüm rol oynayıb. Bu qurultayın təşkili və keçirilməsində H. Zərdabi, N.Nərimanov, A.Şaiq, S.S.Axundov, F.Ağazadə, F.Köçərli böyük fəallıq göstəriblər.*

*(Tablo Xalq Təhsili Muzeyində sərgilənir)*



*Abdulla Şaiq və 190 nömrəli orta məktəbin ədəbiyyat müəllimi Zərbəli Səmədov şagirdlər arasında. 1956*
*(AŞM O.F.47/D.K.484)*



Pedaqoji texnikumu bitirən məzunların 20 illiyi münasibətilə. 1946-cı il. Oturanlar (soldan): II. Əhməd Kərəbi Zəkuyev, Cəmo Cəbrayılbəyli, Abdulla Şaiq və digərləri: Salam Salamzadə, Sabit Rəhman, Yusif Şirvan, Ağabala Axundov, Hidayət Əfəndiyev, Səid Rüstəmov, Mehdi Hüseyn, Həbibulla Səmədzadə, İsmayıl Axundov, Ağabala İsgəndərov və b. 1946

(AŞM O.F.165/D.K.6769)



Abdulla Şaiq Azərbaycanda Sovet yazıçılarının I qurultayı nümayəndələri arasında. Oturanlar (sağdan): R.B.Əfəndiyev, V.Vişnevski, A.Şirvanzadə, A.Şaiq, Y.V.Çəmənzəminli, M.K.Ələkbərli. Ayaqüstə duranlar (sağdan): Y.Qurviç, M.Rəfili, C.Cabbarlı, Qantəmir, M.S.Ordubadi, Ə.Cavad, S.Vurğun, M.Hüseyn. 1934

(AŞM O.F.164/D.K.6768)



Abdulla Şaiq və Süleyman Sani Axundov Yeddinci rus-müsəlman məktəbinin şagirdləri arasında. 1908
(AŞM O.F.125/ D.K. 6750)



*Abdulla Şaiq, İsmayıl Hikmət, Hüseyn Cavid. 1926*
*(AŞM O.F.67/ D.K. 6723)*



*A.Şaiq "Nicat" cəmiyyətinin üzvləri arasında. Ön sırada, soldan: Məmmədəmin Rəsulzadə. I sırada, soldan: II. Üzeyir Hacıbəyli, III. S.S.Axundov, V. A.Şaiq, VIII. A.Sübhanverdixanov. II sırada, sağdan: IV. Əlibəy Hüseynzadə, V. Həsənbəy Ağayev. III sırada, soldan: I. Əbdürrəhimbəy Haqverdiyev, II. Mirzə Ələkbər Sabir. Bakı, 1907*

*(AŞM O.F. 103/D.K. 6736)*



*Abdulla Şaiq qələm dostları arasında. Öndə oturanlar (soldan sağa): M.Müşfiq, S.Hüseyn, C.Cabbarlı. Orta sırada oturanlar, soldan sağa: A.Şaiq, C.Məmmədquluzadə, Xəlil İbrahim, Sabit Rəhman, Ə.Haqverdiyev, Hacı Kərim Sanılı, Süleyman Rüstəm. Ayaq üstə duranlar (soldan sağa): S.S.Axundov, İbrahim Eminbəyli, Ə.Cavad, H.Cavid. 1928*

*(AŞM O.F. 160/ D.K. 6735)*



*Abdulla Şaiq. 1955*
*(AŞM O.F. 145/D.K. 642)*



*Abdulla Şaiq. 1957*
*(AŞM O.F. 237 / D.K. 825)*



*Abdulla Şaiq iş otağında. 1957*
*(AŞM O.F. 146/D.K. 643)*

**Kitabdakılar**


Arzu Əhməd Hacıyeva. Ön söz ........ 6
Fərrux Rüstəmov. Abdulla Şaiq Nümunə Məktəbi ........ 16
Şaiqin həmkarları ........ 31
Məlahət Mürşüdlü. Azərbaycan Xalq Cümhuriyyəti dönəmində təhsil ........ 75
Şaiqin tələbələri ........ 79
Şaiqin tərtib etdiyi dərsliklər ........ 145
Abdulla Şaiq – 20 ........ 151
Kamal Talıbzadə. Şaiq gecəsi ........ 152
Müəllim Şaiq haqqında deyilənlər ........ 157
Duyğular ........ 177
Müəllim Şaiqin dediklərindən ........ 183
Müəllim Şaiq fotolarda ........ 193

**Şaiq Nümunə Məktəbi**
Bakı, "Aspoliqraf", 2022

**Naşir**
Elşən Məmmədov

**Tərtibçilər**
Ülkər Talıbzadə
Arzu Hacıyeva

**Elmi redaktor**
Alxan Bayramoğlu

**Mətn yığımı**
Ülviyyə Əliyeva
Mahiyyə Qədirova

**Texniki redaktor**
Məleykə Əsgərova

**Dizayner**
Mirəziz Sadıqzadə

**Korrektor**
Günel Məmmədova

Çapa imzalanmışdır: 14.07.2022.
Format 60 x 90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 13,0
Sifariş 16. Tiraj 650.

**"Aspoliqraf LTD" MMC-nin** mətbəəsində
çap olunmuşdur.

Bakı, AZ1052, F. Xoyski küç., 151
e-mail: aspoligraf.ltd@gmail.com
Tel.: (+994 12) 567-81-28/29